AMADA
STAY CLEAN



AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ

# QAYDALARI

2021

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| **GİRİŞ** | | 2 |
| **MADDƏ 1** | **DOPİNQ ANLAYIŞI** | 7 |
| **MADDƏ 2** | **ANTİDOPİNQ QAYDA POZUNTULARI** | 7 |
| **MADDƏ 3** | **DOPİNQİN SÜBUTU** | 11 |
| **MADDƏ 4** | **QADAĞAN EDİLMİŞ SİYAHI** | 13 |
| **MADDƏ 5** | ***TEST ETMƏ* VƏ TƏHQİQATLAR** | 19 |
| **MADDƏ 6** | ***NÜMUNƏLƏRİN* ANALİZİ** | 23 |
| **MADDƏ 7** | ***NƏTİCƏLƏRİN EMALI*: MƏSULİYYƏT, İLKİN YOXLAMA, BİLDİRİŞ VƏ *ŞƏRTİ KƏNARLAŞDIRILMALAR*** | 25 |
| **MADDƏ 8** | ***NƏTİCƏLƏRİN EMALI*: ƏDALƏTLİ DİNLƏMƏ HÜQUQU VƏ DİNLƏMƏ QƏRARI BARƏDƏ BİLDİRİŞ** | 29 |
| **MADDƏ 9** | **FƏRDİ NƏTİCƏLƏRİN AVTOMATİK *LƏĞV EDİLMƏSİ*** | 31 |
| **MADDƏ 10** | **FƏRDİ ŞƏXSLƏRƏ QARŞI SANKSİYALAR** | 31 |
| **MADDƏ 11** | **KOMANDALAR ÜÇÜN *SANKSİYALAR*** | 44 |
| **MADDƏ 12** | ***AMADA* TƏRƏFİNDƏN *MİLLİ FEDERASİYALARA* QARŞI SANKSİYALAR** | 45 |
| **MADDƏ 13** | ***NƏTİCƏLƏRİN EMALI*: APELLYASİYALAR** | 45 |
| **MADDƏ 14** | **MƏXFİLİK VƏ HESABATLILIQ** | 51 |
| **MADDƏ 15** | **QƏRARLARIN TƏTBİQİ** | 55 |
| **MADDƏ 16** | **İDDİA MÜDDƏTİ** | 57 |
| **MADDƏ 17** | **TƏHSİL** | 57 |
| **MADDƏ 18** | ***MİLLİ FEDERASİYALARIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ** | 57 |
| **MADDƏ 19** | ***AMADA-NIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ** | 60 |
| **MADDƏ 20** | ***İDMANÇILARIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ** | 60 |
| **MADDƏ 21** | ***İDMANÇININ KÖMƏKÇİ HEYƏTİNİN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ** | 61 |
| **MADDƏ 22** | **HAZIRKİ ANTİDOPİNQ QAYDALARINA TABE OLAN DİGƏR *ŞƏXSLƏRİN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ** | 61 |
| **MADDƏ 23** | ***MƏCƏLLƏNİN* ŞƏRHİ** | 62 |
| **MADDƏ 24** | **YEKUN MÜDDƏALAR** | 62 |
| **ƏLAVƏ 1** | **ANLAYIŞLAR** | 65 |

**AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ AGENTLİYİ**

**AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ QAYDALARI**

## GİRİŞ

### Preambula

Bu Antidopinq Qaydaları, Azərbaycan Milli Antidopinq Agentliyinin (*AMADA*-nın) *Məcəllə* üzrə öhdəliklərinə uyğun olaraq və *AMADA*-nın Azərbaycanda idmanda dopinqin aradan qaldırılması üzrə davamlı səylərinin dəstəklənməsi məqsədilə qəbul və tətbiq edilmişdir.

Bu Antidopinq Qaydaları, idmanda iştirak şərtlərini tənzimləyən idman qaydalarıdır. Qlobal və ahəngdar tərzdə həyata keçirilməsini hədəf tutan antidopinq qaydaları, təbiətcə cinayət və mülki hüquqdan fərqlənirlər. Qaydaların mütənasiblik və insan hüquqları prinsiplərinə uyğun tərzdə tətbiq edilməsinə baxmayaraq, onlar cinayət və mülki icraatlara dair tətbiq edilən hər hansı milli tələb və hüquqi standartların çərçivəsinə daxil deyil və ya onlarla məhdudlaşdırılmır. İş üzrə faktların və müvafiq tətbiq ediləcək hüququn baxılması zamanı, bütün məhkəmələr, artbitraj tribunalları və ədalət mühakiməsini həyat keçirən digər qurumlar, *Məcəlləni* tətbiq edən bu Antidopinq Qaydalarının fərqli təbiətindən və bu qaydaların ədadlətli idmanı müdafiə və təmin etmək məqsədilə nəyin zəruri olduğuna dair dünya üzrə maraqlı tərəflərin geniş spektrinin konsensusunu təmsil etməsi faktından məlumatlı olmalı və ona hörtmət etməlidirlər.

*Məcəllədə* müəyyən edildiyi kimi, *AMADA, dopinq nəzarətinin* bütün aspektlərinin həyata keçirilməsi üçün cavabdeh olmalıdır. *Dopinq nəzarətinin* və ya antidopinq *təhsilinin* hər hansı aspekti *AMADA* tərəfindən *Səlahiyyətləndirilmiş Üçüncü Şəsxə* həvalə edilə bilər, o şərtlə ki, *AMADA*, *Səlahiyyətləndirilmiş Üçüncü Şəsxdən* həmin aspektləri *Məcəllə, beynəlxalq standartlar* və bu Antidopinq Qaydalarına uyğun qaydada həyata keçirməyi tələb etsin. *AMADA*, hər hansı həvalə edilmiş aspektlərin *Məcəlləyə* uyğun həyata keçirilməsinin təmin edilməsinə görə hər zaman cavabdeh olaraq qalmalıdır. *AMADA*, özünün mübahisələrin həlli öhdəliklərini və *nəticələrin emalını İAM*-ın Antidopinq Bölməsinə həvalə edə bilər.

Bu Antidopinq Qaydalarında kursivlə yazılmış anlayışlar, Əlavə 1-də tərifi verilmiş anlayışlardır.

Digər hal nəzərdə tutulmadıqda, maddələrə edilən istinadlar bu Antidopinq Qaydalarının maddələrinə edilən istinadlardır.

### *Məcəllə* və *AMADA*-nın Antidopinq Qaydaları üçün fundamental əsaslar

Antidopinq proqramları, idmanın təməlində duran dəyərə əsaslanır. Bu təməl dəyərinə çox zaman hər bir *idmançının* təbii istedadlarının hədəfli təkmilləşdirilməsi vasitəsilə insan kamilliyinin etik təqib edilməsini ifadə edən “idmanın ruhu” kimi istinad edilir.

Antidopinq proqramları *idmançıların* sağlamlığını müdafiə etmək və *idmançılara qadağan edilmiş maddələrdən* və *qadağan edilmiş üsullardan istifadə* etmədən insan kamilliyinin təqib edilməsi imkanını təmin etməyi məqsədini daşıyır.

Antidopinq proqramlarının məqsədi qaydalara, digər rəqiblərə, ədalətli yarışa, bərabər yarış imkanlarına və dünya üçün təmiz idman dəyərinə hörmət mənasında idmanın dürüstlüyünü qorumaqdır.

İdman ruhu, insan ruhu, vücudu və zəkasının şöhrətləndirilməsidir. Bu, Olimpiya hərakatının mahiyyətidir və aşağıdakılar daxil olmaqla idmanda və idman vasitəsilə təmsil olunan dəyərlərdə ifadə olunur:

- Sağlamlıq
- Etika, ədalətli oyun və dürüstlük
- *İdmançıların* hüquqları (*Məcəllədə* müəyyən edildiyi kimi)
- İdman göstəricilərində kamillik
- Xasiyyət və *təhsil*

- Əyləncə və sevinc
- Komanda işi
- İthaf və təəhhüd
- Qaydalara və qanunlara hörmət
- Özünə və digər *iştirakçılara* hörmət
- Cəsarət
- Birlikik və həmrəylik

İdman ruhu bizim necə ədalətli yarışdığımızda ifadə edilir.

Dopinq, fundamental cəhətdən idman ruhuna ziddir.

**Azərbaycan Milli Antidopinq Agentliyi (*AMADA*)**

*Müstəqillik*

*AMADA,* maliyyə sərbəstliyinə və öz büdcəsinə malik olan, Nizamnaməsində müəyyən edilmiş vəzifə və öhdəliklərini müstəqil qaydada həyata keçirən, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda, digər müvafiq qanunvericilik aktlarında və *AMADA*-nın funksiyalarını, hüquqlarını və öhdəliklərini bilavasitə nəzərdə tutan bu Antidopinq Qaydalarında nəzərdə tutulmuş səlahiyyətləri icra edən müstəqil *Milli Antidopinq Təşkilatıdır*.

*Yurisdiksiya*

"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq *AMADA*-ya, bu Antidopinq Qaydalarında əks etdirilmiş digər fəaliyyətlər daxil olmaqla *test etmə*, *təhsil*, tədqiqat, məlumatların toplanması və təhqiqat, hüquq və *nəticələrin emalını* ehtiva edən hərtərəfli milli antidopinq proqramını icra etmək və həmin sahələr üzrə proqramlar, qaydalar və prosedurlar hazırlamaq üçün tam və müstəsna səlahiyyət verilmişdir.

Bütün *Milli Federasiyalar, idmançılar, idmançının köməkçi keyəti* və digər *idman subyektləri* avtomatik olaraq *AMADA*-nın müstəsna səlahiyyətlərini tanımalı və qəbul etməlidirlər.

*Vəzifələr*

- *İdmançıların* və *idmançının köməkçi heyətinin* hüquqlarını və *idmançıların* sağlamlığını qorumaq məqsədi ilə idmanda dopinqsiz iştirakı təbliğ etmək;

- İdmanda dopinqdən istifadənin qarşısının alınması məqsədi ilə ictimaiyyət arasında və, xüsusilə idman ictimaiyyəti arasında maarifləndirmə fəaliyyətini həyata keçirmək;

- İdmanda dopinqdən istifadənin qarşısının alınması və onunla mübarizə ilə bağlı strategiyanı hazırlamaq;

- *Məcəllə* və *beynəlxalq standartlara* uyğun olaraq Antidopinq Qaydalarını qəbul etmək və həyata keçirmək;

- *Məcəllənin* müddəalarını yerinə yetirmək və Azərbaycan Respublikasının dopinqlə bağlı tərəfdar çıxdığı bütün beynəlxalq müqavilə və sazişlərin müddəalarına riayət etmək;

- Bütün idman növlərində, *Milli Federasiyalarda* və *idman subyektlərində testlərinin edilməsi* və toplanmış nümunələrin analizini həyata keçirmək daxil olmaqla ölkədə antidopinq fəaliyyətini təmin etmək;

- Antidopinq ilə bağlı müxtəlif qayda və *beynəlxalq standartların* tətbiq olunmasını təbliğ və təmin etmək;

- *ÜADA* tərəfindən işlənib hazırlanmış *Məcəlləyə* və müvafiq *beynəlxalq standartlara* uyğun olaraq *nümunələrin* toplanması və analiz edilməsi ilə bağlı prosedurlar və həmin prosedurlara edilən əlavə və dəyişikliklər haqqında *idmançıları*, *idmançının köməkçi heyətini* və digər *şəxsləri* məlumatlandırmaq;

- Təsdiq edilmiş qaydalara və *beynəlxalq standartlara* uyğun olaraq *idmançılardan nümunələri* toplamaq və onların analiz edilməsi üçün *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriyalara təhlükəsiz qaydada daşınmasını təmin etmək;

- *Qeydiyyata alınmış Test Qrupu* barədə məlumatı *Məcəllədə* nəzərdə tutulmuş qaydada Antidopinq İnzibatçılıq və İdarəetmə Sistemində (*ADAMS*-da) saxlamaq;

- Bu Antidopinq Qaydalarına uyğun olaraq antidopinq qayda pozuntuları ilə bağlı məsuliyyətin həyata keçirilməsini və həmin pozuntuların törədilməsində iştirak edən şəxslər barədə təhqiqatların aparılmasını təmin etmək;

- Bu Antidopinq Qaydalarına riayət etmək və onların tətbiq edilməsi məqsədilə bütün zəruri tədbirləri həyata keçirmək;

- İdmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan edilmiş dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək;

- Antidopinq qayda pozuntularının təhqiqatları və ya bu Antidopinq Qaydalarının 8-ci və 13-cü maddələrində nəzərdə tutulan qurumlarda aparılan dinləmələr zamanı aşkarlanmış cinayət, inzibati və ya digər qanun pozuntuları barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat vermək;

- Antidopinq qayda pozuntusunu törətmiş *idmançı* və ya digər *şəxsdən* dövlət büdcəsindən ona ayrılan pul mükafatlarının, maddi və ya digər nemətlərin, habelə bu Antidopinq Qaydalarının yurisdiksiyasına daxil olan yarışlarda antidopinq qayda pozuntusunu törətməklə əldə edilmiş medalların geri qaytarılmasını tələb etmək;

- Bu Antidopinq Qaydaları və *Məcəllənin* müddəalarına riayət etmək və onların tətbiq olunması məqsədilə bütün zəruri tədbirləri həyata keçirmək;

- "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və ya digər müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş hər hansı digər vəzifələri icra etmək.

**Milli Antidopinq Proqramı**

*AMADA*, Azərbaycan Respublikası tərəfindən "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan üçün *Milli Antidopinq Təşkilatı* kimi fəaliyyət göstərmək məqsədilə təsis edilmişdir. Bu qurum kimi və *Məcəllənin* 20.5.1-ci maddəsinə uyğun olaraq *AMADA*-nın xüsusi olaraq öz əməliyyat qərarlarında və fəaliyyətində idmandan və idman sahəsi üzrə aidiyyatı dövlət qurumlarından müstəqil olmaq üçün zəruri səlahiyyəti və öhdəliyi vardır. Bu, məhdudiyyət olmadan, eyni zamanda hər hansı Beynəlxalq Federasiya, *Milli Federasiya*, *Əsas Tədbir Təşkilatçısı, Milli Olimpiya Komitəsi,* Milli Paralimpiya Komitəsi və ya idman və ya antidopinq sahələri üzrə məsuliyyət daşıyan dövlət qurumunun rəhbərliyinə və ya əməliyyatlarına cəlb olunan hər hansı *şəxsin AMADA*-nın əməliyyat qərarları və ya fəaliyyətinə hər hansı cəlb olunmasının qadağan edilməsini ehtiva edir.

**Antidopinq Qaydalarının əhatə dairəsi**

Bu Antidopinq Qaydaları aşağıdakılara şamil edilir:

(a) *AMADA*, o cümlədən onun şura üzvləri, direktorları, vəzifəli şəxsləri və müəyyən edilmiş işçiləri və *Səlahiyyətli Üçüncü Şəxsləri* və onların *dopinq nəzarətinin* hər hansı aspektinə cəlb edilmiş işçiləri;

(b) Azərbaycanın *Milli Federasiyaları*, o cümlədən onların şura üzvləri, direktorları, vəzifəli şəxsləri və müəyyən edilmiş işçiləri və *Səlahiyyətli Üçüncü Şəxsləri* və onların *dopinq nəzarətinin* hər hansı aspektinə cəlb edilmiş işçiləri;

(c) Azərbaycan vətəndaşı və ya rezidenti olub-olmamasından asılı olmayaraq, aşağıdakı *idmançılar, idmançının köməkçi heyəti* və digər *şəxslər (qorunan şəxslər* daxil olmaqla):

(i) Azərbaycanda hər hansı *Milli Federasiyanın* və ya Azərbaycanda hər hansı *Milli Federasiyanın* üzvünün və ya əlaqəli təşkilatının (o cümlədən hər hansı klublar, komandalar, assosiasiyalar və ya liqaların) üzvləri və ya lisenziya sahibləri olan bütün *idmançılar* və *idmançının koməkçi heyəti*;

(ii) Keçirilməsi yerindən asılı olmayaraq Azərbaycanda hər hansı *Milli Federasiya* və ya Azərbaycanda hər hansı *Milli Federasiyanın* üzvü və ya əlaqəli təşkilatı (o cümlədən hər hansı klublar, komandalar, assosiasiyalar və ya liqalar) tərəfindən təşkil edilmiş, çağırılmış, icazə verilmiş və ya tanınmış *tədbirlərdə*, *yarışlarda* və ya digər fəaliyyətlərdə iştirak edən bütün *idmançılar* və *idmançının koməkçi heyəti*;

(iii) antidopinq məqsədləri üçün akkreditasiya, lisenziya və ya digər müqavilə razılaşması əsasında və ya digər səbəbdən Azərbaycanda hər hansı *Milli Federasiya* və ya Azərbaycanda hər hansı *Milli Federasiyanın* üzvü və ya əlaqəli təşkilatın (o cümlədən hər hansı klublar, komandalar, assosiasiyalar və ya liqaların) səlahiyyətinə tabe olan hər hansı digər *idmançı* və ya *idmançının koməkçi heyəti* və ya digər *şəxs*; və

(iv) *Milli tədbirin* və ya *Milli Federasiya* ilə əlaqəli olmayan milli liqanın təşkilatçısı[1] tərəfindən təşkil edilmiş, keçirilmiş, çağırılmış və ya icazə verilmiş hər hansı fəaliyyətdə hər hansı formada iştirak edən bütün *idmançılar* və *idmançının köməkçi heyəti*.

(v) *Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs,* yəni bədən tərbiyəsi məqsədləri üçün idmanda və ya fitnesdə iştirak edən, lakin *Milli Federasiya* və ya hər hansı əlaqəli və qeyri-əlaqəli assosiasiya, təşkilat, klub, komanda və ya liqa tərəfindən təşkil edilən, tanınan və ya ev sahibliyi etdiyi *yarış* və ya *tədbirlərdə* iştirak etməyən və hər hansı antidopinq qayda pozuntusu törədilməsindən əvvəl beş (5) il ərzində *beynəlxalq səviyyəli idmançı* (*Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq hər bir Beynəlxalq Federasiyanın müəyyən etdiyi kimi) və ya *milli səviyyəli idmançı* (*Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq *AMADA* və ya digər *Milli Antidopinq Təşkilatının* müəyyən etdiyi kimi) olmayan; açıq kateroqiyada Azərbaycanı və ya digər ölkəni *beynəlxalq tədbirdə* təmsil etməyən[2]; və ya hər hansı Beynəlxalq Federasiya, *AMADA* və ya digər *Milli Antidopinq Təşkilatı* tərəfindən saxlanılan hər hansı *Qeydiyyata alınmış Test Qrupuna* və ya digər məkan məlumatı qrupuna daxil edilməmiş hər hansı *şəxs*.

(d) "İdmanda dopinq vasitələrindən və üsullarında istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş bütün digər *idman subyektləri*.

(e) *Məcəllə* tərəfindən *AMADA*-ya üzərilərində səlahiyyət verilmiş bütün digər *şəxslər*, o cümlədən Azərbaycan vətəndaşları və ya rezidentləri olan bütün *idmançılar* və yarışmaq, məşq etmək üçün və ya digər səbəbdən Azərbaycanda olan bütün *idmançılar*.

---

1 *[(iv)-cü bəndə şərh: Sözügedən təşkilatçı qurumlar milli antidopinq proqramına daxil edilməlidirlər.]*

2 *[Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxsə dair şərh: "Açıq kateqoriya" anlayışı, gənclər və ya yaş qrup kateqoriyaları ilə məhdudlaşdırılmış yarışların istisna edilməsi mənasını daşıyır.]*

Sözügedən *şəxslərin* hər biri, onun Azərbaycanda idmanda iştirakının və ya idmana cəlb edilməsinin şərti kimi, bu Antidopinq Qaydaları ilə razılaşmalı və onlara riayət etməli, həmçinin *AMADA*-nın bu Antidopinq Qaydalarını, o cümlədən sözügedən qaydaların pozulmasına görə *sanksiyaları* tətbiq etmək səlahiyyətinə, həmçinin bu Antidopinq Qaydalarına uyğun olaraq başlanmış mübahisələri və müvafiq apellyasiyaları dinləmək və müəyyən etmək məqsədilə 8-ci və 13-cü maddələrdə müəyyən edilmiş dinləmə qruplarının yurisdiksiyasına tabe olmalıdır.[3]

Bu Antidopinq Qaydaları ilə əlaqəli və onlara riayət etməli olan yuxarıda qeyd olunmuş ümumi *idmançılar* qrupu arasında, növbəti *idmançılar* bu Antidopinq Qaydalarının məqsədləri üçün *milli səviyyəli idmançılar* hesab edilməlidirlər və, bununla, bu Antidopinq Qaydalarında *milli səviyyəli idmançılara* tətbiq edilən müəyyən müddəalar (*məs., test etmə, TİI*-lər, məkan məlumatı və *nəticələrin emalı)* cari və ya əvvəlki il ərzində aşağıdakı kateqoriyaların biri ilə əhatə edilən *idmançılara* tətbiq edilməlidir:

(a) *Qeydiyyata alınmış Test Qrupuna* və ya *Test Qrupuna* daxil edilmiş *idmançılar*; və ya

(b) Hər hansı *Milli Federasiyanın* üzvləri və ya lisenziya sahibləri olan *idmançılar*; və ya

(c) *Milli Federasiya* ilə əlaqəli hər hansı təşkilatın, o cümlədən assosiasiyalar, klublar, komandalar və ya liqaların üzvü olan *idmançılar,* o şərtlə ki, sözügedən təşkilat həmin *Milli Federasiyanın* ən yüksək liqasında iştirak etsin; və ya

(d) *Milli əhəmiyyətli yarışda* iştirak edərək və ya yarışaraq mükafat yerləri tutmuş *idmançılar*; və ya

**Qeyd:** bu müddəanın məqsədləri üçün "mükafat yerləri" dedikdə müvafiq olaraq qızıl, gümüş və bürünc medalları və ya medal olmdadıqda, eyni dəyər və ya məna daşıyan digər mükafatlar verilən yerlər nəzərdə tutulur.

(e) *Beynəlxalq tədbir* və ya *yarışda* iştirak etmiş və ya yarışmış, lakin *beynəlxalq səviyyəli idmançı* kimi təsnif edilməyən hər hansı digər *idmançı*,

o şərtlə ki, yuxarıda qeyd olunan (b), (c), (d) və (e) müddəaları, *prioritetləşdirilmiş idman növləri* üzrə böyük və gənc *idmançılara* aid edilsin.

Lakin, hər hansı bu cür *idmançıların* öz müvafiq Beynəlxalq Federasiyaları tərəfindən *beynəlxalq səviyyəli idmançılar* kimi təsnif edildiyi hallarda onlar, bu Antidopinq Qaydalarının məqsədləri üçün *milli səviyyəli idmançı* deyil, *beynəlxalq səviyyəli idmançı* hesab edilməlidirlər.

---

3 *[Şərh: Məcəllə tərəfindən idmançı və ya idmançının köməkçi heyəti olmayan şəxsin Məcəlləyə tabe olması tələb edildiyi halda, həmin şəxs nümunə toplanması və ya test edilməsinə məruz qalmamalıdır və Məcəlləyə uyğun olaraq qadağan edilmiş maddə və ya qadağan edilmiş üsuldan istifadə və ya onlara sahibliyə görə antidopinq qayda pozuntusunun törədilməsində iddia edilməməlidir. Fəqət, həmin şəxs yalnız Məcəllənin 2.5-ci (Saxtalaşdırma), 2.7-ci (Dövriyyə), 2.8-ci (Tətbiq etmək), 2.9-cu (Əlbirlik), 2.10-cu (Qadağan edilmiş əməkdaşlıq) və 2.11-ci (Qisas almaq) maddələrinin pozulmasına görə intizam tədbirlərinə məruz qalmalıdır. Bundan əlavə, həmin şəxs Məcəllənin 21.3-cü maddəsinə uyğun olaraq əlavə rol və öhdəliklər daşımalıdır. Həmçinin, işçinin Məcəlləyə tabe olmasını tələb etmək öhdəliyi müvafiq qanunvericiliklə tənzimlənir.*

*AMADA təmin etməlidir ki, bu Antidopinq Qaydalarının 19-cu maddəsinə uyğun olaraq onların şura üzvləri, direktorları, vəzifəli şəxsləri və müəyyən edilmiş işçiləri, o cümlədən Səlahiyyətləndirilmiş Üçüncü Şəxslər və onların işçiləri ilə bağlanmış hər hansı – işəgötürmə haqqında, müqavilə və ya digər məqsədli – razılaşmalara həmin şəxslərin bu Antidopinq Qaydalarına tabe olduqlarına, ona riayət etməyə razı olduqlarına və AMADA-nın antidopinq mübahisələrinə dair qərar vermək səlahiyyəti ilə razılaşdıqlarına dair xüsusi müddəalar daxil edilsin.]*

**MADDƏ 1 DOPİNQ ANLAYIŞI**

Dopinq, bu Antidopinq Qaydalarının 2.1 - 2.11-ci maddələrində nəzərdə tutulmuş bir və ya bir neçə antidopinq qayda pozuntusunun baş verməsi kimi müəyyən edilir.

**MADDƏ 2 ANTİDOPİNQ QAYDA POZUNTULARI**

2-ci maddənin məqsədi antidopinq qayda pozuntularını təşkil edən halları və davranışı müəyyən etməkdir. Dopinq mübahisələrində dinləmələr, bu xüsusi qaydaların biri və ya bir neçəsinin pozulmasının ehtimal edilməsinə əsaslanaraq həyata keçirilir.

*İdmançılar* və digər *şəxslər,* hansı hal və davranışın antidopinq qayda pozuntusu təşkil etdiyini və *Qadağan edilmiş siyahıya* daxil edilmiş maddələri və üsulları bilmələrinə görə məsuliyyət daşımalıdırlar.

Aşağıdakılar antidopinq qayda pozuntularını təşkil edirlər:

**2.1 *İdmançının nümunəsində qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* mövcudluğu**

**2.1.1** Heç bir *qadağan edilmiş maddənin* bədənlərinə daxil olmamasını təmin etmək *idmançıların* şəxsi öhdəliyidir. *İdmançılar*, öz *nümunələrində* mövcudluğu aşkar edilmiş hər hansı *qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinə* görə məsuliyyət daşıyırlar. Müvafiq olaraq, 2.1-ci maddə üzrə antidopinq qayda pozuntusunu müəyyən etmək üçün *idmançının* niyyətinin, *təqsirinin*, *səhlənkarlığının* və ya bilərəkdən *istifadənin* müəyyən edilməsi zəruri deyil.[4]

**2.1.2** 2.1-ci maddə üzrə antidopinq qayda pozuntusunun kifayət edici sübutü aşağıdakıların hər hansı biri ilə müəyyən edilir: *idmançının* B *nümunəsinin* analiz edilməsindən imtina etməsi və B *nümunəsinin* analiz edilməməsi halında *idmançının* A *nümunəsində qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* mövcudluğu; və ya *idmançının* B *nümunəsinin* analiz edilməsi və həmin analizin nəticəsində *idmançının* A *nümunəsində* aşkarlanmış *qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin idmançının* B *nümunəsində* mövcudluğunun təsdiq edilməsi; və ya *idmançının* B *nümunəsinin* iki (2) hissəyə bölünməsi və bölünmüş *nümunənin* təsdiqedici hissəsinin analizinin nəticəsində bölünmüş *nümunənin* birinci hissəsində aşkarlanmış *qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* mövcudluğunun təsdiq edilməsi və ya *idmançının,* bölünmüş *nümunənin* təsdiqedici hissəsinin analizindən imtina etməsi.[5]

**2.1.3** *Qadağan edilmiş siyahıda* və ya *texniki sənəddə qərar limiti* xüsusilə müəyyən edilmiş maddələr istisna olmaqla, *idmançının nümunəsində qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* hesabatda təsbit edilmiş hər hansı kəmiyyətdə mövcudluğu antidopinq qayda pozuntusunu təşkil etməlidir.

**2.1.4** 2.1-ci maddənin ümumi qaydasına istisna olaraq, *Qadağan edilmiş siyahı, beynəlxalq standartlar* və ya *texniki sənədlər* müəyyən *qadağan edilmiş*

---

[4] *[2.1.1-ci maddəyə şərh: Bu maddə ilə əhatə edilən antidopinq qayda pozuntusu idmançının təqsiri nəzərə alınmadan törədilmiş hesab edilir. Bu qaydaya, müxtəlif İAM qərarlarında "ciddi məsuliyyət" kimi istinad edilir. İdmançının təqsiri, 10-cu maddəyə uyğun olaraq həmin antidopinq qayda pozuntusu üzrə sanksiyaların müəyyən edilməsi zamanı nəzərə alınır. Bu prinsip, mütəmadi olaraq İAM tərəfindən dəstəklənmişdir.]*

[5] *[2.1.2-ci maddəyə şərh: Nəticələrin emalı səlahiyyətinə malik olan Antidopinq Təşkilatı, idmançının B nümunəsinin analizini tələb etmədiyi halda belə, öz mülahizəsi əsasında B nümunəsinin analiz edilməsini seçə bilər.]*

*maddələrin* qiymətləndirilməsi və onlar üzrə hesabatların verilməsi üçün xüsusi meyarlar müəyyən edə bilərlər.

**2.2 *İdmançı* tərəfindən *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan istifadə* və ya *istifadə cəhdi*** [6]

**2.2.1** Heç bir *qadağan edilmiş maddənin* bədənlərinə daxil olmamasını və heç bir *qadağan edilmiş üsuldan* istifadə edilmədiyini təmin etmək *idmançıların* şəxsi öhdəliyidir. Müvafiq olaraq, *qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun istifadəsi* üzrə antidopinq qayda pozuntusunu müəyyən etmək üçün *idmançının* niyyətinin, *təqsirinin*, *səhlənkarlığının* və ya bilərəkdən *istifadənin* müəyyən edilməsi zəruri deyil.

**2.2.2** *Qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun istifadəsinin* və ya *istifadə cəhdinin* uğurlu və ya uğursuz olması əhəmiyyət kəsb etmir. Antidopinq qayda pozuntusunun törədilməsi üçün *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun istifadəsinin* və ya *istifadəyə cəhdinin* baş verməsi kifayət hesab edilir.[7]

**2.3 *İdmançı* tərəfindən *nümunə* toplanmasından yayınma, imtina və ya *nümunəni* təqdim etməmək**

Müvafiq səlahiyyətləşdirilmiş *şəxs* tərəfindən bildiriş verildikdən sonra əsaslı səbəb olmamadan *nümunə* toplanmasından imtina və ya *nümunəni* təqdim etməmək; və ya nümunə toplanmasından yayınma.[8]

**2.4 *İdmançı* tərəfindən məkan məlumatı pozuntusu**

*Nəticələrin emalı* üzrə *beynəlxalq standartda* müəyyən edilmiş qaydada, 12 ay müddəti ərzində *Qeydiyyata alınmış Test Qrupunda* olan *idmançı* tərəfindən üç (3) buraxılmış test və (və ya) məkan məlumatının təqdim edilməməsinin hər hansı kombinasiyası.

**2.5 *İdmançı* və ya *digər şəxs* tərəfindən *dopinq nəzarətinin* hər hansı bir hissəsinin *saxtalaşdırılması* və ya *saxtalaşdırma cəhdi***

---

[6] *[2.2-ci maddəyə şərh: Hər zaman hesab edilir ki, qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun istifadəsi və ya istifadə cəhdi hər hansı etibarlı vasitələrlə müəyyən edilə bilər. 3.2-ci maddəyə şərhdə qeyd olunduğu kimi, 2.1-ci maddə üzrə antidopinq qayda pozuntusunun müəyyən edilməsi üçün tələb olunan sübutdan fərqli olaraq, istifadə və ya istifadə cəhdi həmçinin idmançının etirafları, şahid ifadələri, sənədli dəlil, İdmançının Biloloji Pasportunun hissəsi kimi toplanan məlumat daxil olmaqla uzunmüddətli göstəricilər əsasında müəyyən edilmiş norma üzrə nəticələr və ya digər halda 2.1-ci maddə üzrə qadağan edilmiş maddənin "mövculuğunun" müəyyən edilməsi üçün bütün tələblərə cavab verməyən digər analitik məlumat kimi digər etibarlı vasitələrlə müəyyən edilə bilər.*

*Məsələn, istifadə, A nümunəsinin analizindən və ya Antidopinq Təşkilatı tərəfindən təsdiq məqsədilə digər nümunənin analiz edilməməsinin məqbul izahı olduğu halda yalnız B nümunəsinin analizindən nətiəclənən etibarlı analitik məlumat əsasında müəyyən edilə bilər.]*

[7] *[2.2.2-ci maddəyə şərh: Qadağan edilmiş maddə və ya qadağan edilmiş Üsulun "istifadəsinə cəhdin" müəyyən edilməsi idmançının niyyətinin olmasının sübut edilməsini tələb edir. Həmin antidopinq pozuntusunun sübutu üçün niyyət tələbi, qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun istifadəsinə görə 2.1-ci maddənin və 2.2-ci maddənin pozuntuları üçün müəyyən edilmiş ciddi məsuliyyət prinsipinə xələl gətirmir.*

*İdmançı tərəfindən qadağan edilmiş maddənin istifadəsi, həmin maddənin yarışdan kənar müddətdə qadağan edilmədiyi və idmançının istifadəsinin yarışdan kənar müddətdə baş verdiyi hal istisna olmaqla antidopinq qayda pozuntusu təşkil edir. (Buna baxmayaraq, yarış müddətində toplanmış nümunədə qadağan edilmiş maddə və ya onun metabolitləri və ya markerlərinin mövcudluğu həmin maddənin nə zaman istifadə edildiyindən asılı olmayaraq 2.1-ci maddənin pozuntusudur.)]*

[8] *[2.3-cü maddəyə şərh: Məsələn, idmançı tərəfindən test barədə bilidirişdən və ya test edilməkdən yayınmaq məqsədilə dopinq nəzarəti rəsmilərindən bilərəkdən boyun qaçırmasının müəyyən edildiyi halda, "nümunə toplanmasından yayınma" antidopinq qayda pozuntusu hesab edilir. ˝Nümunəni təqdim etməməyin˝ idmançının qəsdən və ya səhlənkar davranışı əsasında tövsif edilə biləcəyi halda, nümunə toplanmasından ˝yayınma˝ və ya ˝imtina˝ idmançının qəsdən davranışı əsasında tövsif edilir.]*

**2.6 *İdmançı* və ya digər *şəxs* tərəfindən *qadağan edilmiş maddəyə* və ya *qadağan edilmiş üsula sahiblik***

**2.6.1** *Sahibliyin* 4.4-cü maddəyə və ya digər əsaslı səbəbə uyğun olaraq icazə verilmiş Terapevtik İstifadə üçün İstisna (*Tİİ*) ilə uyğun olmasının *idmançı* tərəfindən sübut edilməsi halları istisna olmaqla, *idmançı* tərəfindən *yarış müddətində* hər hansı *qadağan edilmiş maddə* və ya hər hansı *qadağan edilmiş üsula sahiblik* və ya *yarışdan kənar müddətdə idmançı* tərəfindən *yarışdan kənar müddətdə* qadağan edilmiş hər hansı *qadağan edilmiş maddə* və ya hər hansı *qadağan edilmiş üsula sahiblik*.

**2.6.2** *İdmançının köməkçi heyətinin üzvü* tərəfindən *sahibliyin idmançıya* 4.4-cü maddəyə və ya digər əsaslı səbəbə uyğun olaraq icazə verilmiş Terapevtik İstifadə üçün İstisna (*Tİİ*) ilə uyğun olmasının sübut edilməsi halları istisna olmaqla, *idmançının köməkçi heyətinin üzvü* tərəfindən *yarış müddətində* hər hansı *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsula sahiblik* və ya *idmançının köməkçi heyəti üzvü* tərəfindən *yarışdan kənar müddətdə idmançı*, *yarış* və ya məşqlə əlaqədar *yarışdan kənar müddətdə* qadağan edilmiş hər hansı *qadağan edilmiş maddə* və ya hər hansı *qadağan edilmiş üsula sahiblik*.[9]

**2.7** *İdmançı* və ya digər *şəxs* tərəfindən hər hansı *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun dövriyyəsi* və ya *dövriyyəsinə cəhd*

**2.8** *İdmançı* və ya digər *şəxs* tərəfindən *yarış müddətində* hər hansı *idmançıya* hər hansı *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun tətbiq edilməsi* və ya *tətbiq etmə cəhdi* və ya *yarışdan kənar müddətdə* hər hansı *idmançıya yarışdan kənar müddətdə* qadağan edilmiş hər hansı *qadağan edilmiş maddə* və ya hər hansı *qadağan edilmiş üsulun tətbiq edilməsi* və ya *tətbiq etmə cəhdi*

**2.9** *İdmançı* və ya digər *şəxs* tərəfindən əlbirlik və ya əlbirlik *cəhdi*

Digər *şəxs* tərəfindən törədilmiş antidopinq qayda pozuntusu, antidopinq qayda pozuntusuna *cəhd* və ya 10.14.1-ci maddənin pozulması ilə əlaqədar yardım, həvəsləndirmə, dəstək, təhrik, gizlətmə, gizli sövdələşmə və ya digər hər hansı növ qəsdən əlbirlik və ya əlbirlik *cəhdi*.[10]

**2.10 *İdmançı* və ya digər *şəxs* tərəfindən qadağan edilmiş əməkdaşlıq**

**2.10.1** *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olan *idmançı* və digər *şəxs* tərəfindən hər hansı *idmançının köməkçi heyətinin üzvü* ilə peşəkar və ya idmanla əlaqədar əməkdaşlıq, hansı ki:

**2.10.1.1** *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olduğu halda *diskvalifikasiya* müddətindədir; və ya

**2.10.1.2** *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olmadığı və *diskvalifikasiya* müddəti *Məcəlləyə* uyğun olaraq *nəticələrin emalı* prosesində tətbiq edilmədiyi halda, həmin *şəxsə Məcəlləyə* uyğun qaydaların tətbiq ediləcəyi təqdirdə antidopinq qayda pozuntusu

---

[9] *[2.6.1-ci və 2.6.2-ci maddələrə şərh: Məsələn, şəkər xəstəliyi olan uşaq üçün həkim reseptinə əsasən insulinin alınması, yəni əsaslı tibbi hallar istisna olmaqla, əsaslı səbəb, məsələn dosta və ya qohuma vermək üçün qadağan edilmiş maddənin alınmasını və ya ona sahibliyini ehtiva etməməlidir.]*

*[2.6.1-ci və 2.6.2-ci maddələrə şərh: Əsaslı səbəb, məsələn: (a) idmançı və ya komanda həkimi tərəfindən qadağan edilmiş maddələrin və ya qadağan edilmiş üsulların kəskin və təcili hallar üçün üzərində saxlanması (məs., epinefrin avto enjektorları) və ya (b) idmançı tərəfindən bunu Tİİ üçün müraciət etməmişdən və qərar əldə etməmişdən qısa zaman əvvəl qadağan edilmiş maddəyə və ya üsula sahib olmasını ehtiva edə bilər.]*

[10] *[2.9-cu maddəyə şərh: Əlbirlik və ya əlbirlik cəhdi həm fiziki, həm də psixoloji dəstəyi ehtiva edə bilər.]*

hesab edilə bilən hərəkətlərə görə cinayət, intizam və ya peşəkar icraat üzrə məhkum olunmuş və ya təqsirləndirilmişdir. Həmin *şəxsin* diskvalifikasiya statusu hansının daha uzun olmasından asılı olaraq cinayət, inzibati və ya peşəkar cəza üzrə qərarın verilməsi tarixindən və ya tətbiq edilmiş cinayət, inzibati və ya peşəkar sanksiyanın müddətindən etibarən altı (6) il ərzində qüvvədə olmalıdır; və ya

**2.10.1.3** 2.10.1.1-ci və ya 2.10.1.2-ci maddələrdə təsvir edilmiş fərd üçün təmsilçi və ya vasitəçi kimi çıxış edir.

**2.10.2** 2.10-cu maddənin pozulmasını müəyyən etmək üçün *Antidopinq Təşkilatı, idmançı* və ya digər *şəxsin idmançının köməkçi heyəti üzvünün* diskvalifikasiya statusu barədə bildiyini sübüt etməlidir.

2.10.1.1-ci və 2.10.1.2-ci maddələrdə təsvir edilən *idmançının köməkçi heyətinin üzvü* ilə hər hansı əməkdaşlığın peşəkar və ya idmanla əlaqəli olmadığı və (və ya) bu cür əməkdaşlığın ağlabatan tərzdə qarşısının alınmasının qeyri-mümkün olması üzrə sübüt etmə yükü *idmançının* və digər *şəxsin* üzərinə düşməlidir.

2.10.1.1-ci, 2.10.1.2-ci və ya 2.10.1.3-cü maddələrdə təsvir edilən meyarlara cavab verən *idmançının köməkçi heyəti* barədə məlumatlı olan *Antidopinq Təşkilatları* bu məlumatı *ÜADA-ya* təqdim etməlidirlər.[11]

## 2.11 Səlahiyyətli qurumların məlumatlandırılmasına *idmançı* və ya digər *şəxs* tərəfindən maneəçilik və ya buna görə qisas xarakterli əməllər

Bu davranış 2.5-ci maddə ilə pozuntu təşkil edilmədiyi hallarda:

**2.11.1** *ÜADA, Antidopinq Təşkilatı,* hüquq mühafizə orqanı, tənzimləyici və ya peşəkar intizam qurumu, dinləmə qurumu və ya *ÜADA* və ya *Antidopinq Təşkilatı* üçün təhqiqat aparan *şəxsin* antidopinq qayda pozuntusu və ya *Məcəlləyə* uyğunsuzluq ehtimalı barədə dürüstlük prinsipi əsasında məlumatlandırılmasına maneəçilk niyyətilə digər *şəxsin* təhdid edilməsi və ya ona təzyiq göstərilməsi üzrə hər hansı əməl.

**2.11.2** *ÜADA*-ya, *Antidopinq Təşkilatına,* hüquq mühafizə orqanına, tənzimləyici və ya peşəkar intizam qurumuna, dinləmə qurumuna və ya *ÜADA* və ya *Antidopinq Təşkilatı* üçün təhqiqat aparan *şəxsə* antidopinq qayda pozuntusu və ya *Məcəlləyə* uyğunsuzluq ehtimalı barədə dürüstlük prinsipi əsasında sübut və ya məlumatı təqdim etmiş *şəxsə* qarşı qisas xarakterli əməl.

---

[11] *[2.10-cu maddəyə şərh: İdmançılar və digər şəxslər, antidopinq qayda pozuntusu törədilməsinə görə diskvalifikasiya edilmiş və ya dopinqlə əlaqədar cinayət məsuliyyətinə cəlb olunmuş və ya peşəkar cəhətdən intizam tədbirinə məruz qalmış məşqçilər, təlimçilər, həkimlər və digər idmançının köməkçi heyəti ilə işləməməlidirlər. Bu, həmçinin diskvalifikasiya müddətində olan zaman məşqçi və ya idmançının köməkçi heyəti qismində fəaliyyət göstərən hər hansı digər idmançı ilə həmçinin əməkdaşlığı qadağan edir. Qadağan edilmiş bəzi əməkdaşlıq misallarına daxildir: təlimə, strategiyaya, texnikaya qidaya dair və ya tibbi məsləhət alma; terapiya, müalicə və ya reseptlər əldə etmə; analiz üçün hər hansı bədən məhsulunun təmin edilməsi; və ya idmançının köməkçi heyəti üzvünə agent və ya nümayəndə kimi xidmət etməyə icazə vermək. Qadağan edilmiş əməkdakdaşlıq hər hansı formada təzminatın ödənilməsini ehtiva etməyə bilər.*

*2.10-cu maddənin Antidopinq Təşkilatından idmançını və ya digər şəxsi idmançının köməkçi heyəti üzvünün diskvalifikasiya statusu barədə məlumatlandırmağı tələb etməməsinə baxmayaraq, həmin bildiriş, edildiyi halda, idmançı və ya digər şəxsin idmançının köməkçi heyəti üzvünün diskvalifikasiya statusu barədə bildiyinin sübut edilməsi üçün əhəmiyyətli dəlil ola bilər.]*

2.11-ci maddənin məqsədləri üçün qisas, təhdid və ya təzyiqə həmin *şəxsə* qarşı dürüstlük prinsipinə əsaslanmayan və ya qeyri-müvafiq cavab olan əməl də daxildir.[12]

## MADDƏ 3 DOPİNQİN SÜBUTU

### 3.1 Sübut etmə yükü və standartları

Antidopinq qayda pozuntusunun törədilməsinin sübut edilməsi yükü *AMADA*-nın üzərinə düşməlidir. *AMADA* tərəfindən edilən iddianın ağırlığını nəzərə alaraq, *AMADA*-nın antidopinq qayda pozuntusunun törədilməsinin dinləmə qrupu üçün məqbul səviyyədə sübut edib-etməməsi sübut etmə standartı hesab olunmalıdır. Bu sübut etmə standartı, bütün hallarda sadə ehtimallar balansından yuxarı və əsaslandırılmış şübhəsiz sübutdan aşağıdır. Bu Antidopinq Qaydalarına əsasən, 3.2.2-ci və 3.2.3-cü maddələr istisna olmaqla prezumpsiyanı təkzib etmək, xüsusi faktları və ya şəraiti müəyyən etmək üzrə sübut etmə yükü antidopinq qayda pozuntusunu törətməkdə iddia edilən *idmançı* və ya digər *şəxsin* üzərinə düşdükdə, sübut etmə standartı ehtimallar balansı ilə olunmalıdır.[13]

### 3.2 Faktlar və prezumpsiyaların müəyyənləşdirilməsi üsulları

Antidopinq qayda pozuntuları ilə bağlı faktlar, etiraflar daxil olmaqla, istənilən etibarlı vasitələrlə müəyyən edilə bilər. [14] Dopinq mübahisələrinə aşağıdakı sübut qaydaları tətbiq edilməlidir:

**3.2.1** Müvafiq elmi ictimaiyyətlə konsultasiyadan və ya ekspert qiymətləndirilməsindən sonra *ÜADA* tərəfindən təsdiq olunmuş analitik üsullar və ya *qərar limitləri* elmi cəhətdən etibarlı ehtimal edilir. Bu ehtimal üçün şəraitin qarşılanıb-qarşılanmamasını şübhə altına qoyan və ya elmi cəhətdən etibarlılıq prezumpsiyasını təkzib etməyə iddia edən hər hansı *idmançı* və ya digər *şəxs,* hər hansı belə bir iddia üçün ilkin şərt kimi öz iddiası və iddiasının əsaslandırılması barədə *ÜADA*-nı məlumatlandırmalıdır. İlkin dinləmə qurumu, apellyasiya qurumu və ya *İAM,* həmçinin öz təşəbbüsü ilə *ÜADA*-nı hər hansı belə iddia barədə məlumatlandıra bilər. *ÜADA* tərəfindən belə bildirişin və işin materiallarının alınmasından sonra on (10) gün ərzində *ÜADA*-nın da həmin icraatda tərəf kimi müdaxilə etmək, dinləmə üzrə ekspert (*amicus curiae*) kimi çıxış etmək və ya digər üsülla sübutları təqdim etmək hüququ olmalıdır. *İAM* tərəfindən dinlənilən mübahisələr zamanı, *ÜADA*-nın tələbi ilə, *İAM*-ın dinləmə qrupu təqdim olunmuş iddianın qiymətləndirilməsində qrupa dəstək üçün müvafiq elmi ekspert təyin etməlidir.[15]

---

[12] *[2.11.2-ci maddəyə şərh: Bu maddə dürüstlük prinisipinə əsaslanan məlumatlar verən şəxslərin müdafiəsi üçün nəzərdə tutulur və bilərəkdən saxta məlumat bildirən şəxsləri müdafiə etmir.]*

*[2.11.2-ci maddəyə şərh: Qisas özündə, məsələn, məlumat verən şəxslərin, onların ailə üzvlərinin və ya əlaqəli şəxslərinin fiziki və ya mənəvi rifahını və ya iqtisadi maraqlarını təhdid edən əməlləri ehtiva edə bilər. Qisas özündə Antidopinq Təşkilatı tərəfindən məlumat verən şəxsə qarşı dürüstlük prinsipinə əsaslanaraq antidopinq qayda pozuntusu iddiasının irəli sürülməsini ehtiva etmir. 2.11-ci maddənin məqsədləri üçün məlumat verən şəxsin həmin məlumatın saxta olduğunu bildiyi halda həmin məlumat dürüstülk prinsipinə əsasən verilmiş hesab edilmir.]*

[13] *[3.1-ci maddəyə şərh: AMADA tərəfindən qarşılanmalı olan bu sübut standartı, əksər ölkələrdə peşəkar pozuntulara dair işlərdə tətbiq edilən standart ilə müqayisəlidir.]*

[14] *[3.2-ci maddəyə şərh: Məsələn, AMADA, 2.2-ci maddəyə əsasən idmançının etirafları, üçüncü şəxslərin etibarlı ifadələri, etibarlı sənədli dəlil, 2.2-ci maddə üçün şərhlərdə qeyd edilən A və ya B nümunəsindən alınmış etibarlı analitik məlumat və ya İdmançının Bioloji Pasportundan məlumat kimi idmançının qan və ya sidik nümunələri seriyasının göstəricilərindən əldə edilmiş nəticələr əsasında antidopinq qayda pozuntusunu müəyyən edə bilər.]*

[15] *[3.2.1-ci maddəyə şərh: ÜADA, müəyyən qadağan edilmiş maddələr üçün ÜADA tərəfindən akkreditə edilmiş laboratoriyarı qadağan edilmiş maddənin və ya onun metabolitlərinin və ya markerlərinin ethimal edilmiş konsentrasiyasının minimal hesabat dərəcəsindən aşağı olması hallarında nümunələri Qeyri-əlverişli Analiz Nəticəsi kimi hesab etməməyi təlimatlandıra bilər. ÜADA-nın həmin minimal hesabat dərəcəsini və ya hansı qadağan edilmiş*

**3.2.2** *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriyalar və *ÜADA* tərəfindən təsdiqlənmiş digər laboratoriyaların *nümunə* analizi və saxlama prosedurları Laboratoriyalar üzrə *beynəlxalq standarta* uyğun olaraq aparılmış hesab edilir. *İdmançı* və ya digər *şəxs, Qeyri-əlverişli Analiz Nəticəsinə* ağlabatan şəkildə səbəb ola bilən Laboratoriyalar üzrə *beynəlxalq standartdan* yayınmanı müəyyən etməklə bu prezumpsiyanı təkzib edə bilər.

*İdmançı* və ya digər *şəxs, Qeyri-əlverişli Analiz Nəticəsinə* ağlabatan şəkildə səbəb ola bilən Laboratoriyalar üzrə *beynəlxalq standartdan* yayınmanı nümayiş etdirərək yuxarıda qeyd edilmiş prezumpsiyanı təkzib etdikdə, bu zaman həmin yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir.[16]

**3.2.3** Hər hansı digər *beynəlxalq standartdan* və ya *Məcəllədə* müəyyən edilmiş digər antidopinq qaydalarından və ya siyasətindən, və ya bu Antidopinq Qaydalarından yayınmalar analitik nəticələri və ya antidopinq qayda pozuntusunun digər sübutlarını etibarsız etməməlidir; [17] lakin, *idmançı* və ya digər *şəxs,* aşağıdakı müəyyən *beynəlxalq standart* müddəalarının birindən yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsi* və ya məkan məlumatı pozuntusu əsasında antidopinq qayda pozuntusuna ağlabatan şəkildə səbəb ola bilməsini sübut etdikdə, bu zaman həmin yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* və ya məkan məlumatı pozuntusuna səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir:

(i) *Qeyri-əlverişli Analiz Nəticəsi* əsasında antidopinq qayda pozuntusuna ağlabatan şəkildə səbəb ola bilən *nümunə* toplanması və ya *nümunə* ilə davranışla əlaqədar *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartdan* yayınma – bu zaman həmin yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir;

(ii) Ağlabatan şəkildə antidopinq qayda pozuntusuna səbəb ola bilən *Qeyri-əlverişli Pasport Nəticəsilə* bağlı *Nəticələrin emalı* üzrə *beynəlxalq standart* və *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartdan* yayınma – bu zaman həmin yayınmanın antidopinq qayda pozuntusuna səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir;

---

*maddələrin minimal hesabat dərəcəsinə tabe olmasına dair qərarı mübahisələndirilə bilməz. Əlavə olaraq, belə qadağan edilmiş maddənin nümunədə laboratoriya tərəfindən ethimal edilmiş konsentrasiyası yalnız ehtimal ola bilər. Nümunədə qadağan edilmiş maddənin dəqiq konsentrasiyasının minimal hesabat dərəcəsindən aşağı olması ehtimalı heç bir halda həmin qadağan edilmiş maddənin nümunədə mövcudluğuna əsaslanan antidopinq qayda pozuntusu üçün müdafiə təşkil edə bilməz.]*

[16] *[3.2.2-cı maddəyə şərh: Laboratoriyalar üzrə beynəlxlaq standartdan Qeyri-əlverişli Analiz Nəticəsinə ağlabatan şəkildə səbəb ola bilən yayınmanı ehtimallar balansı vasitəsilə sübut etmək yükü idmançı və ya digər şəxsin üzərinə düşür. Bununla, idmançı və ya digər şəxs ehtimallar balansı vasitəsilə yayınmanı sübut edə bildikdə, bu zaman idmançı və ya digər şəxsin sübut etmə yükü üçün səbəb-nəticə əlaqəsi münasibətində daha aşağı sübut standartı tətbiq edilir – "ağlabatan şəkildə səbəb ola bilən". İdmançı və ya digər şəxs bu standartın tələblərini yerinə yetirdikdə, bu zaman yayınmanın Qeyri-əlverişli Analiz Nəticəsinə səbəb olmamasını dinləmə qrupu üçün məqbul səviyyədə sübut etmə yükü AMADA-ya keçir.]*

[17] *[3.2.3-cü maddəyə şərh: Nümunə toplanması və ya onunla davranışla, Qeyri-əlverişli Pasport Nəticəsi ilə və ya məkan məlumatı pozuntusu və ya B nümunəsinin açılması ilə əlaqədar idmançının məlumatlandırılması ilə bağlı olmayan beynəlxalq standartdan və ya digər qaydadan yayınma – məsələn, Təhsil üzrə beynəlxlaq standartdan, Şəxsi həyat və fərdi məlumatın mühafizəsi üzrə beynəlxalq standartdan və ya Terapevtik İsitfadə üçün İstisnalar üzrə beynəlxalq standartdan yayınmalar ÜADA tərəfindən uyğunluq prosedurasının başlanması ilə nəticələnə bilər, lakin antidopinq qayda pozuntuları üzrə icraatda müdafiə qismində istifadə edilmir və onlar idmançı tərəfindən antidopinq qayda pozuntusunun törədilib-törədilməməsinin müəyyən edilməsində əhəmiyyət kəsb etmir. Eyni qayda ilə, AMADA tərəfindən 20.7.7-ci maddədə istinad edilmiş sənədin müddəalarının pozulması antidopinq qayda pozuntusu üçün müdafiə təşkil etməməlidir.]*

(iii) *Qeyri-əlverişli Analiz Nəticəsi* əsasında antidopinq qayda pozuntusuna ağlabatan şəkildə səbəb ola bilən *idmançıya* B *nümunəsinin* açılmasına dair bildiriş verilməsi tələbi ilə bağlı *Nəticələrin emalı* üzrə *beynəlxalq standartdan* yayınma – bu zaman həmin yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir;[18]

(iv) Ağlabatan şəkildə məkan məlumatı pozuntusu əsasında antidopinq qayda pozuntusuna səbəb ola bilən *idmançıya* bildiriş verilməsilə bağlı *Nəticələrin emalı* üzrə *beynəlxalq standartdan* yayınma – bu zaman həmin yayınmanın məkan məlumatı pozuntusuna səbəb olmadığını sübut etmək yükü *AMADA*-nın üzərinə düşməlidir.

**3.2.4** Məhkəmənin və ya müvafiq yurisdiksiyalı peşəkar intizam tribunalının apellyasiya şikayəti verilməmiş qərarı ilə müəyyən edilən faktlar, qərarın həmin faktları aid edilən *idmançı* və ya digər *şəxsə* qarşı təkzibedilməz sübut hesab edilməlidir, o halda ki *idmançı* və ya digər *şəxs* qərarın haqq-ədalətə zidd olan prinsiplər əsasında qəbul edilməsini sübut etməmiş olsun.

**3.2.5** Antidopinq qayda pozuntusu üzrə icraatı aparan dinləmə qrupu, *idmançının* və ya digər *şəxsin* dinləmə zamanı müvafiq öncədən göndərilən bildirişdən sonra dinləmə qrupunun və ya *AMADA*-nın suallarına cavab verməK və dinləmədə (şəxsən və ya dinləmə qrupunun göstərişi ilə telefon bağlantısı vasitəsi ilə) iştirak etməkdən imtinasına əsaslanaraq həmin *idmançıya* və ya *şəxsə* qarşı qeyri-əlverişli qərara gələ bilər.

## MADDƏ 4 QADAĞAN EDİLMİŞ SİYAHI

### 4.1 *Qadağan edilmiş siyahının* daxil edilməsi

Bu Antidopinq Qaydaları, *Məcəllənin* 4.1-ci maddəsində müəyyən edildiyi kimi *ÜADA* tərəfindən dərc edilmiş və düzəlişlər edilmiş *Qadağan edilmiş siyahını* daxil edir.

*Qadağan edilmiş siyahıda* və ya ona düzəlişlərdə digər qayda müəyyən edilmədiyi halda, *Qadağan edilmiş siyahı* və onun düzəlişləri, *AMADA* tərəfindən heç bir əlavə tədbir tələb etmədən *ÜADA* tərəfindən dərc olunduqdan üç (3) ay sonra bu Antidopinq Qaydalarına uyğun olaraq qüvvəyə minir. Bütün *idmançılar* və digər *şəxslər, Qadağan edilmiş siyahı* və ona edilmiş düzəlişlərə heç bir əlavə rəsmiləşdirmə tələb etmədən qüvvəyə mindiyi tarixdən etibarən riayət etməlidirlər. Ən yeni *Qadağan edilmiş siyahı* və ona düzəlişlərlə tanış olmaq bütün *idmançı* və digər *şəxslərin* öhdəlikləridir.[19]

### 4.2 *Qadağan edilmiş siyahıda* müəyyən edilmiş *qadağan edilmiş maddələr* və *qadağan edilmiş üsullar*

**4.2.1** *Qadağan edilmiş maddələr* və *qadağan edilmiş üsullar*

*Qadağan edilmiş siyahı,* gələcək *yarışlarda* idman göstəricilərinin artırılması potensiallarına və ya öz gizlədici potensiallarına görə (həm *yarışdan kənar müddətdə,* həm də *yarış müddətində*) dopinq kimi hər zaman qadağan edilmiş *qadağan edilmiş maddələri* və *qadağan edilmiş*

---

[18] *[3.2.3.(iii)-cü maddəyə şərh: AMADA, belə yayınmanın Qeyri-əlverişli Analiz Nəticəsinə səbəb olmamasının sübut etmə yükünü, məsələn, B nümunəsinin açılması və analizinin müstəqil şahid tərəfindən müşahidə edilməsini və heç bir uyğunsuzluqların müşahidə edilmədiyini göstərməklə qarşılaya bilər.]*

[19] *[4.1-ci maddəyə şərh: Cari qadağan edilmiş siyahı ÜADA-nın https://www.wada-ama.org veb-saytında mövcuddur. Qadağan edilmiş siyahı, ehtiyac yarandıqca yenilənir və dərc edilir. Buna baxmayaraq, ardıcıllığın saxlanılması məqsədi üçün dəyişikliklərinin olub-olmamasından asılı olmayaraq yeni Qadağan edilmiş siyahı hər il dərc edilir.]*

*üsulları* və yalnız *yarış müddətində qadağ*an edilmiş maddələri və üsulları müəyyən edir. *Qadağan edilmiş siyahı ÜADA* tərəfindən müəyyən idman növü üçün təkmilləşdirilə bilər. *Qadağan edilmiş maddələr* və *qadağan edilmiş üsullar*, *Qadağan edilmiş siyahıya* ümumi kateqoriyalar (məs., anabolik vasitələri) və ya müəyyən maddə və ya üsula xüsusi istinad etməklə daxil edilə bilərlər.[20]

**4.2.2** *Xüsusi maddələr* və ya *xüsusi üsullar*

10-cu maddənin tətbiqi məqsədləri üçün, *Qadağan edilmiş siyahıda* digər hal nəzərdə tutulmadıqda, bütün *qadağan edilmiş maddələr xüsusi maddələr* hesab edilir. *Qadağan edilmiş siyahıda* xüsusilə *xüsusi üsul* kimi müəyyən edilməyən heç bir *qadağan edilmiş üsul xüsusi üsul* hesab edilmir.[21]

**4.2.3** *Asılılıq yaradan maddələr*

Cəmiyyətdə idmandan xaric sui-sitifadə edilməsini nəzərə alaraq, 10-cu maddənin tətbiqi məqsədləri üçün, *asılılıq yaradan maddələr, Qadağan edilmiş siyahıda* xüsusi olaraq *asılılıq yaradan maddələr* kimi müəyyən edilmiş *qadağan edilmiş maddələri* daxil edir.

### 4.3 *Qadağan edilmiş siyahının* məzmunun *ÜADA* tərəfindən müəyyən edilməsi

*ÜADA* tərəfindən *Qadağan edilmiş siyahıya* daxil ediləcək *qadağan edilmiş maddələr* və *qadağan edilmiş üsulların* müəyyən edilməsi, *Qadağan edilmiş siyahıda* maddələrin kateqoriyalar üzrə təsnifat bölgüsü, maddənin hər zaman və ya yalnız *yarış müddətində* qadağan edilən kimi təsnif edilməsi, maddə və üsulun *xüsusi maddə*, *xüsusi üsul* və ya *asılılıq yaradan maddə* kimi təsnif edilməsinə dair qərarları yekundur və *idmançı* və ya digər *şəxs* tərəfindən mübahisələndirilə bilməz, o cümlədən, maddə və ya üsulun gizlədici agent olub-olmaması və ya idman göstəricilərini artırma potensialının olub-olmaması, sağlamlıq üçün təhlükə yaradıb-yaratmaması və ya idman ruhunu pozub-pozmaması kimi, lakin bunlarla məhdudlaşmayan səbəblər gətirilərək mübahisələndirilə bilməz.

### 4.4 *Terapevtik İstifadə üçün İstisnalar* ("*Tİİ*")

**4.4.1** *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standarta* uyğun olaraq verilmiş *Tİİ*-nin müddəaları ilə uyğun olan *qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* mövcudluğu və (və ya) *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan istifadə* və ya *istifadə cəhdi*, *sahiblik*, *tətbiq etmə* və ya *tətbiq etmə cəhdi* antidopinq qayda pozuntusu hesab edilmir.

**4.4.2** *Tİİ* üçün müraciət prosesi

**4.4.2.1** *Beynəxalq səviyyəli idmançı* olmayan hər bir *idmançı, Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartın* 4.1-ci və ya 4.3-cü maddələrinin tətbiq olunduğu hallar istisna olmaqla, *Tİİ* üçün Azərbaycan Milli Antidopinq Terapevtik İstifadəyə İcazə Komitəsinə (*AMATİİK*) dərhal müraciət etməlidir. Müraciət, *AMADA*-nın veb-saytında dərc edilmiş *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartın* 6-cı maddəsinə uyğun edilməlidir.

---

[20] *[4.2.1-ci maddəyə şərh: Yarış müddətində toplanmış nümunə ilə əlaqədar maddə və ya onun metabolitləri və ya markerləri üzrə Qeyri-əlverişli Analiz Nəticəsi hesabatı edildiyi hallar istisna olmaqla yalnız yarış müddətində qadağan edilmiş maddənin yarışdan kənar müddətdə istifadəsi antidopinq qayda pozuntusu deyil.]*

[21] *[4.2.2-ci maddəyə şərh: 4.2.2-ci maddədə müəyyən edilmiş xüsusi maddələr və xüsusi üsullar, digər dopinq maddələri və ya üsullarından heç bir halda az əhəmiyyətli və ya az təhlükəli hesab edilməməlidirlər. Daha doğrusu, onlar, sadəcə olaraq idmançı tərəfindən idman göstəricilərinin artırılmasından fərqli məqsəd üçün qəbulu və ya istifadəsi ehtimalı daha çox olan maddə və üsullardır.]*

**4.4.2.2** *AMATİİK,* "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı 4.4.2.2(a) - (d) maddəyə uyğun olaraq *Tİİ* verilməsi üçün müraciətlərə baxmaq məqsədilə yaradılmışdır:

(a) *AMATİİK, idmançılara* qayğı və müalicə təcrübəsinə, kliniki, idman və bədən tərbiyyəsinə dair tibb sahəsi üzrə müvafiq biliyə malik olan sədr, sədr müavini və ən azı beş (5) digər üzvdən ibarət olmalıdır. Üzvlər dörd (4) illik müddətə təyin edilməlidir.

(b) *AMATİİK* üzvü kimi fəaliyyət göstərdikdən əvvəl, hər bir üzv maraqlar münaqişəsi və məxfiliyə dair bəyanat imzalamalıdır. Təyin edilən üzvlər *AMADA*-nın işçiləri ola bilməzlər.

(c) *Tİİ* verilməsi üçün *AMATİİK*-ə müraciət edildikdə *AMATİİK*-in sədri, müraciətə baxılması üçün (sədrin daxil olması mümkünlüyü ilə) ən azı üç (3) üzv təyin etməldir.

(d) *Tİİ* müraciətinə baxdıqdan əvvəl, hər bir üzv müraciət edən *idmançıya* münasibətdə onun bitərəfliyinə təsir edə biləcəyi hər hansı halları sədrə açıqlamalıdır. Sədr tərəfindən müraciətə baxmaq üçün təyin edilmiş üzv hər hansı səbəbdən *idmançının Tİİ* müraciətini qiymətləndirməkdən imtina etdikdə və ya buna qadir olmadıqda, sədr onu əvəz edə və ya yeni üzv təyin edə bilər. *Tİİ* qərarının bitərəfliyinə təsir etmək ehtimalı olan hər hansı hallar mövcud olduqda, sədr müraciətə baxmaq üçün üzv kimi fəaliyyət göstərə bilməz.

**4.4.2.3** *AMATİİK, Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartın* müvafiq müddəalarına uyğun olaraq və adətən (yəni, istisna hallar tətbiq edilmədikə) tam ərizənin alınması tarixindən iyirmi bir (21) gündən çox olmayan müddətdə müraciəti operativ qiymətləndirməli və ona dair qərar verməlidir. Müraciətin *tədbirdən* əvvəl ağalabatan müddətdə edilməsi zamanı *AMATİİK*, öz qərarını *tədbirin* başlanmasından əvvəl verilməsi üçün səy göstərməlidir.

**4.4.2.4** *AMATIIK*-in qərarı, *AMADA*-nın yekun qərarı olmalıdır və ondan 4.4.6-cı maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət edilə bilər. *AMATİİK*-in qərarı, *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standarta* uyğun olaraq yazılı qaydada *idmançıya*, *ÜADA*-ya və digər *Antidopinq Təşkilatlarına* bildirilməlidir. O, həmçinin ən qısa müddətdə *ADAMS*-a daxil edilməlidir.[22]

---

[22] *[4.4.2-ci maddəyə şərh: Terapevtik İstifadə üçün İstisnalar üzrə beynəlxalq standartın 5.1-ci maddəsinə uyğun olaraq AMATİİK, AMADA tərəfindən öz test bölüşdürülməsi planında prioritetləşdirilməmiş idman növlərindən olan milli səviyyəli idmançıların əvvəlcən təqdim edilmiş Tİİ müraciətlərinin baxılmasından imtina edə bilər. Bu halda o, hər belə sonradan test edilmiş idmançıya retroaktiv Tİİ üçün müraciət etməyə icazə verməlidir. Əlavə olaraq, AMADA, bu qaydanın təsirinə məruz qalmış idmançıların məlumatlı olması üçün belə qaydanı öz veb-saytında yerləşdirməlidir.*

*AMATİİK və ya AMADA-ya saxta sənədlərin təqdim edilməsi, əməlin yerinə yetirilməsi və ya yetirilməməsi üçün şəxsə rüşvətin təklif edilməsi və ya qəbul edilməsi, hər hansı şahiddən yalan ifadə alınması və ya hər hansı digər saxta əməlin törədilməsi və ya Tİİ prosesinin hər hansı aspektinə digər oxşar qəsdən müdaxilə və ya müdaxilə cəhdi, 2.5-ci maddəyə əsasən saxtalaşdırma və ya saxtalaşdırma cəhdi üzrə sanksiya ilə nəticələnməlidir.*

**4.4.3** Retroaktiv *TİI* müraciətləri

*AMADA, beynəlxalq səviyyəli* və ya *milli səviyyəli idmançı* olmayan *idmançını* test etməyi seçdikdə, o, həmin *idmançıya* onun terapevtik məqsədlər üçün *istifadə* etdiyi hər hansı *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsula* dair retroaktiv qaydada *TİI* üçün müraciət etməyə icazə verməlidir.

**4.4.4** *TİI*-nin tanınması

*AMATİİK* tərəfindən verilmiş *TİI* istənilən milli səviyyədə istənilən ölkədə etibarlıdır və onun hər hansı digər *Milli Antidopinq Təşkilatı* tərəfindən tanınması zəruri deyil.

Lakin, *idmançı beynəlxalq səviyyəli idmançı* olduqda və ya *beynəlxalq tədbirdə* yarışdıqda həmin *TİI* qərarı aşağıdakı qaydada *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standarta* uyğun olaraq müvafiq Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı* tərəfindən tanındığı halda etibarlı hesab edilir:

**4.4.4.1** *İdmançıya* məsələ üzrə maddə və ya üsul üçün *AMATİİK* tərəfindən artıq *TİI* verildikə və həmin *TİI*-nin Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı* tərəfindən avtomatik tanınmadıqa, *idmançı* həmin *TİI*-nin tanınması üçün öz Beynəlxalq Federasiyasına və ya *Əsas Tədbir Təşkilatçısına* müraciət etməlidir. Həmin *TİI Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartda* müəyyən edilmiş meyarlara cavab verdikdə, bu zaman Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı* onu tanımalıdır.

Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı AMATİİK* tərəfindən verilmiş *TİI*-nin həmin meyarlara cavab vermədiyi qərarına gəldikdə, bu zaman Beynəlxalq Federasiya dərhal *idmançı* və *AMADA*-ya bu barədə əsaslandırılmış məlumat verməlidir. *İdmançının* və (və ya) *AMADA*-nın 4.4.6-cı maddəyə uyğun olaraq məlumatı aldıqdan sonra iyirmi bir (21) gün ərzində məsələnin *ÜADA* tərəfindən yenidən baxılması üçün yönləndirmək hüququ vardır.

Məsələ 4.4.6-cı maddəyə uyğun olaraq *ÜADA* tərəfindən yenidən baxılması üçün yönləndirildikdə, *AMATİİK* tərəfindən verilən *TİI*, *ÜADA*-nın qərar qəbul edməsinədək milli səviyyəli *yarış* və *yarışdan kənar müddətdə test* üçün qüvvədə qalır (beynəlxalq səviyyəli *yarış* istisna olmaqla).

Məsələ iyirmi bir (21) gün ərzində yenidən baxılması üçün *ÜADA*-ya yönləndirilmədikdə, verilən *TİI*-nin milli səviyyəli *yarış* və *yarışdan kənar müddətdə test* üçün istənilən halda etibarlı olub-olmamasını *AMATİİK* müəyyən etməlidir (o şərtlə ki, *idmançı beynəlxalq səviyyəli idmançı* olmasın və beynəlxalq səviyyəli *yarışda* iştirak etməsin). *TİI*, *AMATİİK*-in qərar verilməsinədək milli səviyyəli *yarış* və *yarışdan kənar müddətdə test* üçün qüvvədə qalır (beynəlxalq səviyyəli *yarış* istisna olmaqla).[23]

---

*İdmançı, TİI verilməsi (və ya TİI yenilənməsi) üçün müraciətinin təsdiqlənəcəyini ehtimal etməməlidir. Müraciət üzrə TİI verilməsindən əvvəl hər hansı qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun istifadəsi, tətbiq edilməsi və ya ona sahibliyi üzrə risk tamamilə idmançının üzərinə düşür.]*

[23] *[4.4.4.1-ci maddəyə şərh: Terapevtik İstifadə üçün İstisnalar üzrə beynəlxalq standartın 5.7-ci və 7.1-ci maddələrinə uyğun olaraq Beynəlxalq Federasiya, (1) səlahiyyəti altında olan hansı idmançılar TİI üçün ona müraciət etməli olduğunu, (2) belə müraciətlər əvəzinə hansı Antidopinq Təşkilatlarının TİI qərarlarını avtomatik tanıyacağını və (3) hansı Antidopinq*

**4.4.4.2** *İdmançı* məsələ üzrə maddə və ya üsul üçün *AMATİİK* tərəfindən verilmiş *Tİİ*-yə malik olmadıqda, *idmançı* zərurət olduqda dərhal *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartda* müəyyən edilmiş prosesə uyğun olaraq *Tİİ* üçün birbaşa Beynəlxalq Federasiyaya müraciət etməlidir.

Beynəlxalq Federasiya *idmançının* müraciətini rədd etdikdə, o, dərhal *idmançıya* əsaslandırılmış məlumat bildirməlidir.

Beynəlxalq Federasiya *idmançının* müraciəti üzrə icazə verdikdə, o, *idmançı* və *AMADA*-nı məlumatlandırmalıdır. *AMADA*, Beynəlxalq Federasiya tərəfindən verilən *Tİİ*-nin *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartda* müəyyən edilmiş meyarlara cavab vermədiyini hesab etdikdə, onun, məlumatı aldıqdan sonra iyirmi bir (21) gün ərzində məsələnin *ÜADA* tərəfindən yenidən baxılması üçün yönləndirmək hüququ vardır.

*AMADA* məsələni *ÜADA* tərəfindən yenidən baxılması üçün yönləndirdikdə, Beynəlxalq Federasiya tərəfindən verilən *Tİİ*, *ÜADA*-nın qərar qəbul ediməsinədək beynəlxalq səviyyəli *yarış* və *yarışdan kənar müddətdə test* üçün qüvvədə qalır (milli səviyyəli *yarış* istisna olmaqla).

*AMADA* məsələni *ÜADA* tərəfindən yenidən baxılması üçün yönləndirmədikdə, Beynəlxalq Federasiya tərəfindən verilən *Tİİ*, yenidən baxılması üçün iyirmi bir (21) günlük müddət bitdikdən sonra milli səviyyəli *yarış* üçün də etibarlı olur.[24]

**4.4.5** *Tİİ*-nin müddətinin bitməsi, ləğv edilməsi və ya dəyişdirilməsi

**4.4.5.1** Bu Antidopinq Qaydalarına uyğun verilmiş *Tİİ*,: (a) hər hansı əlavə bildiriş və ya digər rəsmiyyətə zərurət olmadan verildiyi hər hansı müddət bitdikdən sonra avtomatik olaraq qüvvədən düşməlidir; (b) *idmançının Tİİ*-nin verilməsi zamanı *AMATİİK* tərəfindən qoyulmuş hər hansı tələb və ya şərtlərə dərhal riayət etmədiyi halda ləğv edilir; (c) *Tİİ* verilməsi üçün meyarların faktiki olaraq qarşılanmadığı sonradan müəyyən edildiyi halda *AMATİİK* tərəfindən ləğv edilə bilər; və ya (d) ÜADA tərəfindən yenidən baxıldıqdan sonra və ya apellaysiya şikayəti əsasında dəyişdirilə bilər.

**4.4.5.2** Bu halda, *idmançı, Tİİ-nin* müddətinin bitməsi, ləğv edilməsi və ya dəyişdirilməsinin qüvvəyə minməsindən əvvəl *Tİİ*-yə uyğun olan *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun*

---

*Təşkilatlarının Tİİ qərarları tanınma üçün ona təqdim olunmalı olduğunu müəyyən edərək öz veb-saytında dərc etməli və davamlı olaraq yeniləməlidir. İdmançının Tİİ-si avtomatik tanınan Tİİ-lər kateqoriyasına aid edildikdə, bu zaman idmançı tərəfindən həmin Tİİ-nin tanınması üçün öz Beynəlxalq Federasiyasına müraciət etməsi zəruri deyil.*

*Terapevtik İstifadə üçün İstisnalar üzrə beynəlxalq standartın tələblərinə uyğun olaraq AMADA, idmançılara AMATİİK tərəfindən verilmiş Tİİ-lərin tanınması üçün Beynəlxalq Federasiyaya və ya Əsas Tədbir Təşkilatçısına təqdim etməli olduqlarını müəyyən etməyə köməklik göstərir və həmin idmançıları tanınma prosesində təlimatlandırır və dəstəkləyir.*

*Beynəlxalq Federasiya, AMATİİK tərəfindən verilmiş Tİİ-ni Terapevtik İstifadə üçün İstisnalar üzrə beynəlxalq standartda qeyd edilmiş meyarların təmin edilməsinin nümayiş etdirilməsi üçün yalnız tələb olunan tibbi qeydlər və ya digər məlumatların çatışmamasına görə tanımaqdan imtina etdikdə, məsələ ÜADA-ya yönləndirilməməlidir. Əvəzində, iş materialları tamamlanmalı və yenidən Beynəlxalq Federasiyaya təqdim edilməlidir.]*

[24] *[4.4.4.2-ci maddəyə şərh: Beynəlxalq Federasiya və AMADA razılaşa bilərlər ki, AMATİİK, Beynəlxalq Federasiya adından Tİİ müraciətlərinə baxsın.]*

*istifadəsi*, *tətbiq edilməsi* və ya ona *sahibliyi* əsasında heç bir *sanksiyalara* məruz qalmamalıdır. *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 5.1.1.1-ci maddəsinə uyğun olaraq *TİI*-nin müddətinin bitməsi, ləğv edilməsi və ya dəyişdirilməsi tarixindən dərhal sonra hesabat edilmiş *Qeyri-əlverişli Analiz Nəticəsinin* yenidən baxılması zamanı həmin nəticənin həmin tarixədək *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun istifadəsi* ilə uyğun olub-olmamasını nəzərə alınmalıdır, və təsdiqləndiyi halda bu antidopinq qayda pozuntusu hesab edilməməlidir.

**4.4.6** *TİI* qərarlarının yenidən baxılması və onlara dair apellyasiya qaydasında şikayətlərin verilməsi

**4.4.6.1** *AMATİİK, TİI* üçün müraciəti rədd etdikdə, *idmançı* müstəsna olaraq 13.2.2-ci maddədə təsvir edilmiş apellyasiya qurumuna apellyasiya qaydasında şikayət verə bilər.

**4.4.6.2** *ÜADA, idmançı* və ya *AMADA* tərəfindən *ÜADA*-ya yönləndirilən Beynəlxalq Federasiyanın *AMATİİK* tərəfindən verilən *TİI*-nin tanımaması qərarını yenidən baxmalıdır. Əlavə olaraq, *ÜADA, AMADA* tərəfindən ona yönləndirilən Beynəlxalq Federasiyanın *TİI* vermək qərarını yenidən baxmalıdır. *ÜADA,* məsələ ilə əlaqəli tərəflərin müraciəti və ya öz təşəbbüsü ilə istənilən *TİI* qərarlarının istənilən zaman yenidən baxılmasını həyata keçirə bilər. Yenidən baxılan *TİI* qərarı *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartda* müəyyən edilmiş meyarlara cavab verdikdə, *ÜADA* bu qərara müdaxilə etmir. *TİI* qərarı bu meyarlara cavab vermədikə, bu zaman *ÜADA* bu qərarı dəyişdirir.[25]

**4.4.6.3** Beynəlxalq Federasiyanın (yaxud müraciətin Beynəlxalq Federasiyanın adından baxılmasına dair razılıq əldə edildiyi halda *AMATİİK*-in) *ÜADA* tərəfindən yenidən baxılmamış və ya yenidən baxılıb, lakin dəyişdirilməyən hər hansı *TİI* qərarı ilə bağlı *idmançı* və (və ya) *AMADA* tərəfindən müstəsna olaraq *İAM*-a apellyasiya qaydasında şikayət verilə bilər.[26]

**4.4.6.4** *ÜADA*-nın *TİI* qərarının dəyişdirilməsi qərarının təsirinə məruz qalmış *idmançı*, *AMADA* və (və ya) Beynəlxalq Federasiya bu qərarla bağlı müstəsna olaraq *İAM*-a apellyasiya qaydasında şikayət verə bilər.

**4.4.6.5** *TİI*-nin verilməsi və ya tanınması və ya *TİI* qərarının yenidən baxılması üçün lazımi qaydada təqdim olunan müraciət ilə əlaqədar ağlabatan müddət ərzində qərar qəbul edilməməsi həmin müraciətin rədd edilməsi hesab edilərək yenidən baxılması və ya apellyasiya qaydasında şikayətin verilməsi üçün əsas verir.

---

[25] *[4.4.6.2-ci maddəyə şərh: ÜADA,: (a) 4.4.8-cü maddəyə uyğun olaraq yenidən baxmalı olduğu; və (b) qərarın dəyişdirilməsi ilə nəticələnən öz mülahizəsi ilə icra etdiyi hər hansı yenidən baxılma xərclərinin ödənilməsini tələb etmək hüququna malikdir.]*

[26] *[4.4.6.3-ci maddəyə şərh: Belə hallarda barəsində apellyasiya şikayəti verilən qərar Beynəlxalq Federasiyanın TİI qərarıdır, ÜADA-nın TİI qərarını yenidən baxmamaq və ya (baxdıqdan sonra) dəyişdirməmək qərarı deyil. Lakin, TİI qərarından apellyasiya qaydasında şikayət vermək müddəti, ÜADA-nın öz qərarı barədə məlumat verdiyi tarixdən başlayır. İstənilən halda qərarın ÜADA tərəfindən yenidən baxılıb-baxmamasından asılı olmayaraq apellyasiya qaydasında şikayət vermək barədə ÜADA-ya məlumat verilməlidir ki, o müvafiq hesab etdiyi halda iştirak edə bilsin.]*

## MADDƏ 5 *TEST ETMƏ* VƏ TƏHQİQATLAR

### 5.1 *Test etmə* və təhqiqatların məqsədi[27]

**5.1.1** *Test etmə* və təhqiqatlar, istənilən antidopinq məqsədləri üçün həyata keçirilə bilər. Onlar *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartın* müddəalarına və *AMADA*-nın həmin *beynəlxalq standarta* əlavə olan xüsusi protokollarına uyğun olaraq həyata keçirilməlidir.

**5.1.2** *Test etmə, idmançı* tərəfindən 2.1-ci (*idmançının nümunəsində qadağan edilmiş maddə* və ya onun *metabolitləri* və ya *markerlərinin* mövcudluğu) və ya 2.2-ci (*idmançı* tərəfindən *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan istifadə* və ya *istifadə cəhdi*) maddələrinin pozulub-pozulmamasını müəyyənləşdirmək məqsədilə həyata keçirilir.

### 5.2 *Test etmənin* həyata keçirilməsi üçün səlahiyyət

**5.2.1** *Tədbir* zamanı *test etmə* ilə bağlı 5.3-cü maddədə müəyyənləşdirilən məhdudiyyətləri nəzərə alaraq, *AMADA*, bu Antidopinq Qaydalarının Giriş hissəsində ("Antidopinq Qaydalarının əhatə dairəsi" bölməsi) müəyyən edilmiş bütün *idmançılar* üzərində *yarış müddətində* və *yarışdan kənar müddətdə test etmək* səlahiyyətinə malikdir.

**5.2.2** *AMADA*, üzərində *test etmək* səlahiyyətinə malik olduğu hər hansı bir *idmançıdan* (*diskvalifikasiya* müddətində olan hər hansı *idmançı* daxil olmaqla) istənilən vaxt və istənilən yerdə *nümunə* təqdim etməsini tələb edə bilər. [28] *AMADA, idmançıların* olduğu məkanlara məhdudiyyətsiz giriş hüququna malikdir.

**5.2.3** Məcəllənin 20.7.8-ci maddəsinə uyğun olaraq *ÜADA*, *yarış müddətində* və *yarışdan kənar müddətdə test etmək* səlahiyyətinə malikdir.

**5.2.4** Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı test etmənin* hər hansı bir hissəsini birbaşa və ya *Milli Federasiya* vasitəsi ilə *AMADA*-ya həvalə və ya sifariş etdikdə, *AMADA*, əlavə *nümunələr* toplaya və ya *AMADA*-nın hesabına əlavə növ analizlərin həyata keçirilməsi üçün laboratoriyaya göstəriş verə bilər. Əlavə *nümunələrin* toplandığı və ya əlavə növ analizlərin həyata keçirilməsi zamanı Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatçısı* məlumatlandırılmalıdır.

### 5.3 *Tədbir* zamanı *test etmə*

**5.3.1** Aşağıda qeyd olunan digər hallar istisna olmaqla, yalnız bir təşkilat *tədbir müddətində tədbir yerlərində test etmə* səlahiyyətinə malik olmalıdır. Azərbaycanda keçirilən *beynəlxalq tədbirlərdə, tədbir* üzrə hakim qurum olan beynəlxalq təşkilat *test etmə* səlahiyyətinə malik olmalıdır. Azərbaycanda keçirilən *milli tədbirlərdə, test etmə* səlahiyyətinə *AMADA* malik olmalıdır. *Tədbir* üzrə hakim qurumun tələbi ilə, *tədbir müddətində tədbir yerlərindən* kənarda hər hansı *testin edilməsi tədbir* üzrə hakim qurum ilə əlaqələndirilməlidir.

---

[27] *[5.1-ci maddəyə şərh: Testin antidopinq məqsədləri üçün edildiyi halda analitik nəticələr və məlumatlar, Antidopinq Təşkilatının qaydalarına əsasən digər qanuni məqsədlər üçün istifadə edilə bilər. Bax, məsələn, Məcəllənin 23.2.2-ci maddəsinə şərh.]*

[28] *[5.2.2-ci maddəyə şərh: AMADA, digər Məcəlləyə imza təşkilatları ilə ikitərəfli və ya çoxtərəfli müqavilələrin bağlanması vasitəsilə test etmək üçün əlavə səlahiyyət eldə edə bilər. İdmançı 23:00 və 06:00 saatları arasında altmış dəqiqəlik test etmə pəncərəsini müəyyən etmədiyi və ya başqa cür həmin dövr ərzində test edilməsinə razılıq vermədiyi halda, AMADA, idmançının dopinqlə əlaqədar ciddi və xüsusi şübhəsi olmadığı təqdirdə, idmançını həmin dövrdə test etmir. AMADA-nın bu dövrdə test etməsi üçün kifayət qədər əsaslı şübhəsinin olub-olmaması üzrə mübahisə belə test etmə və ya test etmə cəhdi nəticəsində iddia edilən antidopinq qayda pozuntusu üzrə müdafiə təşkil etməməlidir.]*

**5.3.2** Digər hallarda *test etmək* səlahiyyəti olan, lakin *tədbirdə test etmə* təşəbbüsünə və təşkil edilməsinə məsuliyyət daşımayan *Antidopinq Təşkilatı tədbir müddətində tədbir yerlərində idmançıları test etmək* niyyətində olduqda, həmin *Antidopinq Təşkilatı* ilkin olaraq bu *testin edilməsinin* həyata keçirilməsi və əlaqələndirilməsinə icazə almaq üçün *tədbir* üzrə hakim qurumla məsləhətləşməlidir. *Antidopinq Təşkilatı, tədbir* üzrə hakim qurumun cavabından razı olmadığı halda, həmin *Antidopinq Təşkilatı, Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartda* müəyyən edilmiş prosedurlara uyğun olaraq *test etməyə* icazə almaq və bu cür *test etmə* prosesinin necə əlaqələndirilməsini müəyyənləşdirmək üçün *ÜADA*-ya müraciət edə bilər. *ÜADA, tədbir* üzrə hakim qurum ilə məsləhətləşmədən və bu haqda onları məlumatlandırmadan belə *testin edilməsi* üçün razılıq verə bilməz. *ÜADA*-nın qərarı yekundur və ondan apellyasiya qaydasında şikayət verilə bilməz. *Test etmə* ilə bağlı icazədə başqa cür qeyd olunmadıqda, belə testlər, *yarışdan kənar müddətdə* edilən testlər hesab edilməlidir. *Tədbirin* hakim qurumunun qaydalarında digər qayda nəzərdə tutulmadıqda, hər hansı belə test *nəticələrinin emalı* həmin testin təşəbbüskarı olan *Antidopinq Təşkilatının* məsuliyyəti olmalıdır.[29]

## 5.4 *Test etmə* üçün tələblər

**5.4.1** *AMADA,* test bölüşdürülməsinin planlaşdırılması və *test etməni Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartın* tələb etdiyi qaydada həyata keçirməlidir.

**5.4.2** Ağlabatan dərəcədə mümkün olduqda, *test etmə*, cəmləşdirilmiş *test etmə* prosesinin effektivliyinin mümkün qədər artırılması və lüzumsuz təkrar *test etmələrin* qarşısının alınması məqsədilə *ADAMS* vasitəsilə əlaqələndirilməlidir.

## 5.5 *İdmançının* məkan məlumatı

**5.5.1** *AMADA*, *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq məkan məlumatını təmin etməli olan və 10.3.2-ci maddədə göstərildiyi kimi 2.4-cü maddənin pozulmasına görə *sanksiya* edilə bilən *idmançıların Qeydiyyata alınmış Test Qrupunu* yaratmışdır. *AMADA,* bu *idmançıların* müəyyənləşdirilməsi və onların məkan məlumatının toplanmasını Beynəlxalq Federasiyalar ilə əlaqələndirməlidir.

**5.5.2** *AMADA*, öz *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilmiş *idmançıların* adları ilə müəyyənləşdirilən siyahısını *ADAMS* vasitəsi ilə açıqlamalıdır. *AMADA*, zərurət yarandıqca *idmançıların* özünün *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməsi üçün meyarlarına yenidən baxmalı və yeniləməlidir və hər bir siyahıya daxil edilmiş *idmançının* həmin müvafiq meyarlara cavab verməsini təmin etmək üçün *Qeydiyyata alınmış Test Qrupundakı idmançıların* siyahısına müntəzəm şəkildə yenidən baxmalıdır (ən azı rübdə bir dəfə). *Qeydiyyata alınmış Test Qrupuna* daxil edildikdən və həmin qrupdan çıxarıldıqdan əvvəl *idmançılara* bu barədə bildiriş verilməlidir. Bildiriş özündə *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartda* müəyyən edilmiş məlumatı ehtiva etməlidir.

**5.5.3** İdmançının beynəlxalq *Qeydiyyata alınmış Test Qrupuna* öz Beynəlxalq Federasiyası tərəfindən və milli *Qeydiyyata alınmış Test Qrupuna*

[29] *[5.3.2-ci maddəyə şərh: AMADA-ya beynəlxalq tədbirdə test etməni başlamağa və həyata keçirməyə icazə verdikdən əvvəl ÜADA, tədbirin hakim qurumu olan beynəlxalq təşkilat ilə məsləhətləşməlidir. Beynəlxalq Federasiyaya milli tədbirdə test etməni başlamağa və həyata keçirməyə icazə verməzdən əvvəl ÜADA, AMADA ilə məsləhətləşməlidir. "Test etməni başlayan və həyata keçirən" Antidopinq Təşkilatı, öz mülahizəsi ilə, nümunə toplanması və ya dopinq nəzarəti prosesinin digər aspektlərinin həyata keçirilməsinin həvalə edilməsi məqsədilə Səlahiyyətli Üçüncü Şəxslə razılaşma bağlaya bilər.]*

*AMADA* tərəfindən daxil edildiyi halda, *AMADA* və Beynəlxalq Federasiya onların hansının həmin *idmançının* məkan məlumatını qəbul edəcəkləri barədə razılığa gəlməlidirlər; *idmançıdan* heç bir halda onların birindən çoxuna məkan məlumatının təqdim edilməsi tələb edilə bilməz.

**5.5.4** *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq *Qeydiyyata alınmış Test Qrupundakı* hər bir *idmançı* aşağıdakıları etməlidir:

(a) *AMADA*-ya məkan məlumatlarını rüblük əsasında təqdim etmək;

(b) məlumatın hər zaman dəqiq və tam olması üçün zəruri hallarda həmin məlumatları yeniləmək; və

(c) *Test edilməsi* üçün təqdim edilmiş məkanlarda olmaq.

**5.5.5** 2.4-cü maddənin məqsədləri üçün, *idmançının Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartın* tələblərinə riayət etməməsi *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* B Qoşmasında müəyyən edilmiş şərtlərin qarşılandığı hallarda B Qoşmasında müəyyən edildiyi kimi məkan məlumatının təqdim edilməməsi və ya buraxılmış test hesab edilməlidir.

**5.5.6** *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilmiş *idmançı,* a) *AMADA*-ya idmanı tərk etməsi barədə yazılı bildiriş verməsi və ya b) *AMADA* tərəfindən onun artıq *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməsi üçün meyarlara cavab verməməsi barədə məlumatlandırılması anına qədər *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartda* müəyyən edilmiş məkan məlumatlarının verilməsi üzrə tələbləri qarşılamaq öhdəliyini daşımağa davam etməlidir.

**5.5.7** *Qeydiyyata alınmış Test Qrupunda* olduğu zaman *idmançı* tərəfindən təqdim edilmiş məkan məlumatlarına *ADAMS* vasitəsilə *ÜADA*-nın və 5.2-ci maddəyə uyğun olaraq həmin *idmançını test etmək* səlahiyyətinə malik olan digər *Antidopinq Təşkilatlarının* çıxışı vardır. Məkan məlumatı bütün hallarda ciddi şəkildə məxfi saxlanılmalıdır; o, müstəsna olaraq *dopinq nəzarətinin* planlaşdırılması, əlaqələndirilməsi və ya həyata keçirilməsi, *İdmançının Bioloji Pasportu* və digər analitik nəticələr ilə bağlı məlumatın təmin edilməsi, mümkün antidopinq qayda pozuntusunun təhqiqatının dəstəklənməsi və ya antidopinq qayda pozuntusuna dair icraatın dəstəklənməsi məqsədləri üçün istifadə edilməlidir; və həmin məqsədlər üçün artıq münasib olmadığı təqdirdə Şəxsi həyat və fərdi məlumatların mühafizəsi üzrə *beynəlxalq standarta* uyğun olaraq məhv edilməlidir.

**5.5.8** *AMADA*, *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilmiş *idmançılardan* fərqli olaraq daha yumşaq məkan məlumatı tələblərinə riayət etməli olan *idmançıları* daxil edən *Test Qrupunu* yaratmışdır.

**5.5.9** *AMADA, Test Qrupuna* daxil etdikdən və çıxardıqdan əvvəl *idmançıları* məlumatlandırmalıdır. Bu cür bildiriş, məkan məlumatı tələblərini və 5.5.10-cu və 5.5.11-ci maddələrində göstərildiyi kimi riayət etməmə halında tətbiq ediləcək sanksiyaları daxil etməlidir.

**5.5.10** *Test Qrupuna* daxil edilmiş *idmançılar AMADA*-ya aşağıdakı məkan məlumatını təqdim etməlidirlər ki, onların yerləri müəyyən edilə və onlar *test edilə* bilinsinlər*:*

(a) Gecələdiyi ünvan;

(b) *Yarış / Tədbir* cədvəli; və

(c) Müntəzəm məşq fəaliyyətləri.

Bu cür məkan məlumatı, digər *Antidopinq Təşkilatları* ilə daha səmərəli *test etmənin* əlaqələndirilməsinə şərait yaratmaq üçün *ADAMS*-a daxil edilməlidir.

**5.5.11** *İdmançı* tərəfindən *AMADA*-nın tələb etdiyi tarixdə və ya ondan əvvəl məkan məlumatının təqdim edilməməsi və ya *idmançı* tərəfindən məkan məlumatının dəqiqliklə təqdim edilməməsi *AMADA* tərəfindən *idmançının AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməsi ilə nəticələnməlidir.

**5.5.12** *AMADA*, *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq *Qeydiyyata alınmış Test Qrupuna* və ya *Test Qrupuna* daxil edilməmiş *idmançılardan* məkan məlumatını toplaya bilər. *AMADA* bunu etmək qərarına gəldikdə, *idmançı* tərəfindən *AMADA*-nın tələb etdiyi tarixdə və ya ondan əvvəl məkan məlumatının təqdim edilməməsi və ya *idmançı* tərəfindən məkan məlumatının dəqiqliklə təqdim edilməməsi *AMADA* tərəfindən *idmançının AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməsi ilə nəticələnməlidir.

## 5.6 İdmanı tərk etmiş *idmançıların yarışa* qayıtmaları

**5.6.1** a) *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupunda* və ya *Test Qrupunda* olan *beynəlxalq səviyyəli idmançı* və ya *milli səviyyəli idmançı;* və ya

b) *Prioritetləşdirilmiş idman növü* üzrə hər hansı *Milli Federasiyanın* üzvü və ya lisenziya sahibi olan böyük və ya gənc *idmançı*; və ya

c) *Milli Federasiyanın* ən yüksək liqasında iştirak edən *Milli Federasiya* ilə əlaqəli hər hansı təşkilatın, o cümlədən assosiasiyalar, klublar, komandalar və ya liqaların üzvü olan böyük və ya gənc *idmançı*

idmanı tərk etdikdə və sonradan idmanda fəal iştirak etmək üçün qayıtmaq niyyətində olduqda, həmin *idmançı*, öz Beynəlxalq Federasiyasına və *AMADA*-ya altı ay əvvəldən yazılı bildiriş verməklə özünü *test edilməsi* üçün hazır etməyənədək *beynəlxalq tədbirlərdə* və ya *milli tədbirlərdə* iştirak edə bilməz.

*ÜADA, AMADA* və *idmançının* Beynəlxalq Federasiyası ilə məsləhətləşmədən sonra, altı ay öncədən yazılı bildiriş qaydasının məcburi tətbiqinin *idmançıya* qarşı ədalətsizlik olması halında *Qeydiyyata alınmış Test Qrupundakı beynəlxalq səviyyəli idmançını* və ya *milli səviyyəli idmançını* həmin qaydanın tətbiqindən azad edə bilər. Bu qərardan 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər. Digər *idmançılar* üçün, bu cür azadolunma *AMADA* tərəfindən *idmançının* Beynəlxalq Federasiyası ilə məsləhətləşmə şərtilə verilə bilər. *AMADA*-nın qərarından 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər.

Bu 5.6.1-ci maddənin pozulması nəticəsində əldə edilmiş hər hansı yarış nəticələri *ləğv edilməlidir*, o şərtlə ki, *idmançı* iştirak etdiyi yarışın *beynəlxalq tədbir* və ya *milli tədbir* olduğunu ağlabatan qaydada bilmək imkanı olmadığını sübut edə bilməsin.

**5.6.2** *İdmançı diskvalifikasiya* müddətində olduğu zaman idmanı tərk etidkdə, o, tərk etmə barədə *diskvalifikasiya* müddətini təyin etmiş *Antidopinq Təşkilatına* yazılı bilidiriş verməlidir. Həmin *idmançı* sonradan idmanda fəal iştirak etmək üçün qayıtmaq niyyətində olduqda, öz Beynəlxalq Federasiyasına və *AMADA*-ya altı ay (və ya *diskvalifikasiya* müddətinin altı (6) aydan artıq olduğu halda *idmançının* idmanı tərk etdiyi tarixdən hesablanaraq qalan *diskvalifikasiya* müddətinə bərabər müddət) əvvəldən

yazılı bildiriş verməklə özünü *test edilməsi* üçün hazır etməyənədək *beynəlxalq tədbirlərdə* və ya *milli tədbirlərdə* iştirak edə bilməz.

### 5.7 *Müstəqil Müşahidəçi Proqramı*

*AMADA* və Azərbaycanda *milli tədbirlər* üzrə hər hansı təşkilatçı komitələr, belə *tədbirlərdə Müstəqil Müşahidəçi Proqramına* icazə verməli və dəstək göstərməlidirlər.

## MADDƏ 6 *NÜMUNƏLƏRİN* ANALİZİ

*Nümunələr* aşağıdakı prinsiplərə uyğun olaraq analiz edilməlidirlər:

### 6.1 Akkreditə edilmiş, təsdiq edilmiş laboratoriyaların istifadəsi və digər laboratoriyalar

**6.1.1** 2.1-ci maddəyə uyğun olaraq *Qeyri-əlverişli Analiz Nəticəsinin* birbaşa müəyyən edilməsi məqsədləri üçün, *nümunələr* yalnız *ÜADA* tərəfindən akkreditə edilmiş və ya digər üsul ilə *ÜADA* tərəfindən təsdiq edilmiş laboratoriyalarda analiz edilməlidir. *Nümunələrin* analizi üçün *ÜADA* tərəfindən akkeditə edilmiş və ya *ÜADA* tərəfindən təsdiq edilmiş laboratoriyanın seçimi müstəsna olaraq *AMADA* tərəfindən müəyyən edilir. [30]

**6.1.2** 3.2-ci madddədə müəyyən edildiyi kimi, antidopinq qayda pozuntusu ilə əlaqədar faktlar istənilən etibarlı vasitələrlə müəyyən edilə bilər. Bu, məsələn, *ÜADA* tərəfindən akkreditə edilmiş və ya təsdiq edilmiş laboratoriyadan kənarda keçirilmiş etibarlı laborator və ya ekspertiza testini ehtiva edə bilər.

### 6.2 *Nümunələrin* analizinin və məlumatların məqsədi

*Nümunələr* və əlaqəli analitik məlumatlar və ya *dopinq nəzarəti* məlumatı, *Qadağan edilmiş siyahıda* müəyyən edilmiş *qadağan edilmiş maddələrin* və ya *qadağan edilmiş üsulların* və ya *Məcəllənin* 4.5-ci maddəsində təsvir edilmiş monitorinq proqramına əsasən *ÜADA*-nın göstərişi əsasında digər maddələrin aşkarlanması, habelə DNT və ya genom göstəriciləri daxil olmaqla, *idmançının* sidik, qan və ya digər nümunələrində (*matrix*) müvafiq parametrlər üzrə norma göstəricilərinin müəyyən edilməsi və yaradılması üçün *AMADA*-ya dəstək göstərilməsi və ya digər qanuni antidopinq məqsədləri üçün analiz edilməlidir.[31]

### 6.3 *Nümunələr* və məlumatlar üzrə tədqiqatlar

*Nümunələr,* əlaqəli analitik məlumatlar və ya *dopinq nəzarəti* məlumatı antidopinq tədqiqatı məqsədləri üçün istifadə edilə bilər, lakin, *idmançının* yazılı icazəsi olmadan heç bir *nümunə* tədqiqat üçün istifadə edilə bilməz. Antidopinq tədqiqatı məqsədləri üçün istifadə edilən *nümunələr,* əlaqəli analitik məlumatlar və ya *dopinq nəzarəti* məlumatı ilk növbədə elə emal edilməlidilər ki, *nümunələr,* əlaqəli analitik məlumatlar və ya *dopinq nəzarəti* məlumatının geri izlənməsi yolu ilə həmin *idmançıya* gətirib çıxarmasın. *Nümunələr* və əlaqəli analitik məlumatlar və ya *dopinq nəzarəti* məlumatından istifadə edən hər hansı tədqiqat, *Məcəllənin* 19-cu maddəsində müəyyən edilmiş prinsiplərə riayət etməlidir.[32]

---

[30] *[6.1.1-ci maddəyə şərh: 2.1-ci maddənin pozuntuları yalnız ÜADA tərəfindən akkreditə edilmiş laboratoriya və ya digər ÜADA tərəfindən təsdiq edilmiş laboratoriya tərəfindən keçirilmiş nümunə analizləri ilə müəyyən edilə bilər. Digər maddələrin pozuntuları, nəticələri etiabrlı olan digər laboratoriyalardan olan analitik nəticələr ilə müəyyən edilə bilər.]*

[31] *[6.2-ci maddəyə şərh: Məsələn, müvafiq dopinq nəzarəti ilə əlaqədar məlumat hədəfli testin yönləndirilməsi və ya 2.2-ci maddə üzrə antidopinq qayda pozuntusu icraatını dəstəkləmək və ya hər ikisi üçün istifadə oluna bilər.]*

[32] *[6.3-cü maddəyə şərh: Bir çox tibbi və ya elmi kontekstlərdə olduğu kimi, nümunələrin və əlaqədar məlumatın keyfiyyətinin təminatı, keyfiyyətin artırılması, metodikanın təkmilləşdirilməsi və inkişafı və ya referent populyasiyaların müəyyən edilməsi üçün istifadəsi tədqiqat hesab edilmir. Belə icazəli qeyri-tədqiqat məqsədləri üçün istifadə edilən nümunələr və əlaqəli məlumatlar, Məcəllənin 19-cu maddəsində müəyyən edilmiş prinsiplərə, o cümlədən Laboratoriyalar üzrə*

## 6.4 *Nümunə* analizi və hesabatlılıq standartları

*Məcəllənin* 6.4-cü maddəsinə uyğun olaraq *AMADA*, laboratoriyalardan *nümunələri* Laboratoriyalar üzrə *beynəlxalq standarta* və *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartın* 4.7-ci maddəsinə riayət edərək analiz etməyi tələb etməlidir.

Laboratoriyalar, öz təşəbbüsləri və hesabları əsasında və ya *AMADA*-nın tələbi ilə *nümunənin* standart analiz sifarişinə (*standard analysis menu*) daxil edilməmiş *qadağan edilmiş maddələr* və ya *qadağan edilmiş üsullar* üzrə *nümunələri* analiz edə bilərlər. Belə analizlərin hər hansı nəticələri barədə *AMADA*-ya hesabat verilməli və onlar hər hansı digər analitik nəticə kimi eyni etibarlılığa malik olmalı və eyni *sanksiyalara* səbəb olmalıdır.[33]

## 6.5 *Nəticələrin emalından* əvvəl və ya *nəticələrin emalı* ərzində *nümunənin* sonrakı analizi

*AMADA idmançıya nümunənin* 2.1-ci maddəyə uyğun olaraq antidopinq qayda pozuntusu iddiası üçün əsas təşkil etməsi barədə bildiriş verdiyindən əvvəl laboratoriya tərəfindən *nümunənin* təkrar və ya əlavə analiz edilməsi səlahiyyətinə heç bir məhdudiyyət qoyulmamalıdır. Belə bildirişdən sonra *AMADA* həmin *nümunənin* əlavə analiz edilməsini seçdikdə, bunu *idmançının* razılığı və ya dinləmə qurumunun təsdiqi ilə edə bilər.

## 6.6 Mənfi nəticəli hesabat verildikdən sonra və ya hər bir halda antidopinq qayda pozuntusu iddiası ilə nəticələnməyən *nümunənin* sonrakı analizi

Laboratoriya *nümunənin* nəticəsini mənfi hesab etdikdən və ya *nümunə* hər bir halda antidopinq qayda pozuntusu iddiası ilə nəticələnmədikdən sonra, həmin *nümunə* saxlanıla bilər və müstəsna olaraq *nümunə* toplanmasının təşəbbüskarı olan və göstərişlər verən *Antidopinq Təşkilatının* və ya *ÜADA*-nın göstərişi ilə istənilən zaman 6.2-ci maddənin məqsədləri üçün əlavə analiz edilə bilər. Saxlanılan *nümunənin* əlavə analiz edilməsini seçən və *idmançını* test etmək səlahiyyətinə malik olan hər hansı *Antidopinq Təşkilatı,* bunu *nümunə* toplanmasının təşəbbüskarı olan və göstərişlər verən *Antidopinq Təşkilatının* və ya *ÜADA*-nın icazəsi ilə edə bilər, və bu halda hər hansı sonrakı *nəticələrin emalı* üçün məsuliyyət daşımalıdır. *ÜADA* və ya digər *Antidopinq Təşkilatının* təşəbbüsü ilə hər hansı *nümunənin* saxlanılması və ya əlavə analizi *ÜADA*-nın və ya həmin təşkilatın hesabına həyata keçirilməlidir. *Nümunələrin* əlavə analizi, Laboratoriyalar üzrə *beynəlxalq standartın* tələblərinə uyğun olmalıdır.

## 6.7 A və ya B *nümunəsinin* bölünməsi

*ÜADA, nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatı* və (və ya) *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriya (*ÜADA* və ya *nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatının* təsdiqi ilə) *nümunəni*, onun birinci hissəsini A *nümunəsinin* analizi və ikinci hissəsini təsdiq üçün istifadə etmək üçün A və ya B *nümunəsinə* bölmək qərarına gəldiyi halda Laboratoriyalar üzrə *beynəlxalq standartda* müəyyən edilmiş prosedurlara riayət edilməlidir.

## 6.8 *ÜADA*-nın *nümunə* və məlumatlar üzərində sahibliyi əldə etmək hüququ

*ÜADA,* öz mülahizəsi əsasında istənilən zaman, əvvəlcədən bildiriş verməklə və ya bildirişsiz, laboratoriyanın və ya *Antidopinq Təşkilatının* sahibliyində olan hər hansı *nümunə* və əlaqəli analitik və ya digər məlumat üzərində fiziki sahibliyi əldə edə bilər. *ÜADA*-nın tələbi

---

*beynəlxalq standartın və Şəxsi həyat və fərdi məlumatlarların mühafizəsi üzrə beynəlxalq standartın tələblərinə hörmət edərək ilk növbədə onların geri izlənməsi yolu ilə həmin idmançıya gətirib çıxarmayan tərzdə emal edilməlidirlər.]*

[33] *[6.4-cü maddəyə şərh: Bu maddənin məqsədi, dopinqin ən effektiv və səmərəli aşkarlanması üçün "ağıllı test" prinsipinin nümunə analizi sifarişinə tətbiq edilməsidir. Məlumdur ki, dopinqlə mübarizə üçün vasitələr məhdud və nümunə analizi sifarişinin genişləndirilməsi bəzi idman növlərində və bəzi ölkələrdə analiz edilə bilinən nümunələrin sayının azaldılmasına səbəb ola bilər.]*

ilə, *nümunə* və ya məlumat üzərində sahibliyi olan laboratoriya və ya *Antidopinq Təşkilatı,* dərhal *ÜADA*-ya giriş imkanını təmin etməli və ona *nümunə* və ya məlumat üzərində fiziki sahibliyi əldə etməyə imkan yaratmalıdırlar. *ÜADA*, *nümunə* və ya məlumat üzərində sahibliyi əldə etdikdən əvvəl laboratoriya və ya *Antidopinq Təşkilatına* əvvəlcədən bildiriş vermədikdə o, sahibliyi əldə etdikdən sonra ağlabatan müddət ərzindən *nümunələri* və ya malumatı *ÜADA* tərəfindən əldə edilən laboratoriya və ya *Antidopinq Təşkilatına* bildiriş verməlidir. Götürülmüş *nümunə* və məlumatın analizi və hər hansı təhqiqatından sonra *ÜADA*, ehtimal edilən antidopinq qayda pozuntusu aşkarlandığı halda *idmançını* test etmək səlahiyyətinə malik olan digər *Antidopinq Təşkilatına nümunə* və ya məlumat üzərində öhdəliyi qəbul etmək barədə göstəriş verə bilər.[34]

## MADDƏ 7 *NƏTİCƏLƏRİN EMALI*: MƏSULİYYƏT, İLKİN YOXLAMA, BİLDİRİŞ VƏ *ŞƏRTİ KƏNARLAŞDIRILMALAR*

Bu Antidopinq Qaydaları üzrə həyata keçirilən *nəticələrin emalı*, antidopinq qayda pozuntusu məsələlərinin ədalətli, sürətli və səmərəli qaydada həll edilməsi üçün yaradılmış prosesi müəyyənləşdirir.

### 7.1 *Nəticələrin emalının* həyata keçirilməsinə görə məsuliyyət

**7.1.1** 6.6-cı, 6.8-ci maddələrdə və *Məcəllənin* 7.1-ci maddəsində müəyyən edilən hallar istisna olmaqla, *nəticələrin emalı*, *nümunə* toplanmasının təşəbbüskarı olan və göstərişlər verən *Antidopinq Təşkilatının* (və ya, *nümunə* toplanmasının olmaması halında, antidopinq qayda pozuntusu barədə *idmançıya* və ya digər *şəxsə* ilkin olaraq bildiriş verən və sonra həmin antidopinq qayda pozuntusunu lazımi qaydada təqib edən *Antidopinq Təşkilatının*) məsuliyyəti olmalı və onun prosedur qaydaları ilə idarə olunmalıdır.

**7.1.2** *Milli Antidopinq Təşkilatının* qaydalarının sözügedən *Milli Antidopinq Təşkilatının* həmin ölkənin vətəndaşı, rezidenti, lisenziya sahibi və ya idman təşkilatının üzvü olmayan *idmançı* və ya digər *şəxs* üzərində səlahiyyətini ehtiva etmədikdə və ya *Milli Antidopinq Təşkilatı* belə səlahiyyəti tətbiq etməkdən imtina etdikdə, *nəticələrin emalı* müvafiq Beynəlxalq Federasiya və ya müvafiq Beynəlxalq Federasiyanın qaydalarında göstərildiyi kimi *idmançı* və ya digər *şəxs* üzərində səlahiyyətə malik olan üçüncü şəxs tərəfindən həyata keçirilməlidir.

**7.1.3** Mümkün məkan məlumatı pozuntusu (məkan məlumatının təqdim edilməməsi və ya buraxılmış test) ilə əlaqədar *nəticələrin emalı, Nəticələrin emalı* üzrə *beynəlxalq standartda* məyyən edildiyi kimi həmin *idmançının* məkan məlumatını təqdim etdiyi Beynəlxalq Federasiya və ya *AMADA* tərəfindən idarə edilməlidir. *AMADA* məkan məlumatının təqdim edilməməsini və ya buraxılmış testin baş verməsini məüyyən etdikdə, o həmin məlumatı digər müvafiq *Antidopinq Təşkilatları* üçün açıq olan *ADAMS* vasitəsilə *ÜADA*-ya təqdim etməlidir.

---

[34] *[6.8-ci maddə üçün şərh: ÜADA-nın nümunə və ya məlumat üzərində fiziki sahibliyi əldə etməsinə müqavimət göstərmək və ya imtina, saxtalaşdırma, əlbirlik və ya Məcəlləyə imza təşkilatları tərəfindən Məcəlləyə uyğunluq üzrə beynəlxalq standartda müəyyən edildiyi kimi Məcəlləyə uyğunsuzluq əməlini və, o cümlədən Laboratoriyalar üzrə beynəlxalq standartın pozuntusunu təşkil edə bilər. Zəruri olduğu hallarda, laboratoriya və (və ya) Antidopinq Təşkilatı ÜADA-ya götürülmüş nümunə və ya məlumatın müvafiq ölkəni tərk etməsi üçün gecikdirilməməsinin təmin edilməsində ÜADA-ya dəstək göstərməlidirlər.]*

*[6.8-ci maddə üçün şərh: Əlbəttə ki, ÜADA ehtimal edilən antidopinq qayda pozuntusu, Məcəlləyə imza təşkilatın Məcəlləyə uyğunsuzluğu və ya digər şəxs tərəfindən dopinq fəaliyyətləri ilə əlaqədar əsaslı səbəb olmadan nümunələr və ya analitik məlumat üzərində sahibliyi birtərəfli qaydada əldə etmir. Buna baxmayaraq, əsaslı səbəbin mövcud olub-olmaması qərarı ÜADA-nın mülahizəsidir və mübahisələndirilə bilməz. Xüsusilə, əsaslı səbəbin mövcud olub-olmaması antidopinq qayda pozuntusu və ya onun nəticəsində tətbiq edilən sanksiyalara qarşı müdafiə hesab edilməməlidir.]*

**7.1.4** *AMADA*-nın öz səalhiyyəti altında olan *idmançılar* və digər *şəxslər* ilə əlaqəli antidopinq qayda pozuntularına dair *nəticələrin emalınının* həyata keçirilməsi üçün məsuliyyət götürməli olduğu digər hallar *Məcəllənin* 7-ci maddəsinə istinadla və ona uyğun müəyyən edilməlidir.

**7.1.5** *ÜADA*, xüsusi hallarda *AMADA*-ya *nəticələrin emalını* həyata keçirməyə göstəriş verə bilər. *AMADA*, *ÜADA* tərəfindən müəyyən edilmiş ağlabatan müddət ərzində *nəticələrin emalını* həyata keçirməkdən imtina etdikdə, belə imtina *Məcəlləyə* uyğunsuzluq əməli hesab edilməlidir və *ÜADA*, *idmançı* və ya digər *şəxs* üzərində səlahiyyətə malik olan və razılıq verən digər *Antidopinq Təşkilatına* və ya belə bir *Antidopinq Təşkilatının* olmadığı halda razılıq verən hər hansı digər *Antidopinq Təşkilatına AMADA*-nın əvəzinə *nəticələrin emalını* həyata keçirməyə göstəriş verə bilər. Belə halda, *AMADA*, *ÜADA* tərəfindən təyin edilmiş digər *Antidopinq Təşkilatının nətəcələrin emalını* həyata keçirmək üçün çəkdiyi bütün və vəkil xərclərini ödəməlidir və bu xərclərin ödənilməməsi *Məcəlləyə* uyğunsuzluq əməli hesab edilməlidir.

## 7.2 Ehtimal edilən antidopinq qayda pozuntularına dair yoxlama və bildiriş

*AMADA, Nəticələrin emalı* üzrə *beynəlxalq standarta* uyğun olaraq hər hansı ehtimal edilən antidopinq qayda pozuntusuna dair yoxlama və bildiriş prosesini həyata keçirməlidir.

## 7.3 Əvvəlki antidopinq qayda pozuntularının müəyyən edilməsi

Yuxarıda qeyd olunduğu kimi *idmançı* və ya digər *şəxsə* ehtimal edilən antidopinq qayda pozuntusu barədə bildiriş verdikdən əvvəl *AMADA*, hər hansı əvvəlki antidopinq qayda pozuntularının mövcud olub-olmamasını müəyyən etmək məqsədilə *ADAMS* vasitəsilə yoxlamalı və *ÜADA* və digər müvafiq *Antidopinq Təşkilatları* ilə əlaqə saxlamalıdır.

## 7.4 *Şərti kənarlaşdırılmalar*[35]

**7.4.1** *Qeyri-əlveriş Analiz Nəticəsindən* və ya *Qeyri-əlverişli Pasport Nəticəsindən* sonra məcburi *şərti kənarlaşdırılma*

*AMADA, xüsusi maddə* və ya *xüsusi üsul* olmayan *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* üzrə *Qeyri-əlverişli Analiz Nəticəsini* və ya *Qeyri-əlverişli Pasport Nəticəsini* (*Qeyri-əlverişli Pasport Nəticəsi* üzrə yoxlama prosesini yekunlaşdırdıqdan sonra) qəbul etdikdə o, 7.2-ci maddə ilə tələb olunan yoxlama və bildirişi zamanı və ya ondan dərhal sonra *idmançıya şərti kənarlaşdırılma* tətbiq etməlidir.

Məcburi *şərti kənarlaşdırılma* növbəti hallarda ləğv edilə bilər:

(i) *idmançı* Azərbaycan Milli Antidopinq İntizam Komitəsinə pozuntunun *kontaminasiyaya uğramış məhsuldan* nəticələndiyinin baş verdiyini nümayiş etdirdikdə, və ya

(ii) pozuntu *asılılıq yaradan maddədən* nəticələnməsini ehtiva etdikdə və *idmançı*, 10.2.4.1-ci maddəyə uyğun olaraq azaldılmış *diskvalifikasiya* müddətinə hüququ olduğunu müəyyən etdikdə.

Azərbaycan Milli Antidopinq İntizam Komitəsinin, *idmançının kontaminasiyaya uğramış məhsula* dair iddiası əsasında məcburi *şərti kənarlaşdırılmanı* ləğv etməmək qərarından apellyasiya qaydasında şikayət verilə bilməz.

---

[35] *[7.4-ci maddəyə şərh: AMADA tərəfindən birtərəfli qaydada şərti kənarlaşdırılmanın tətbiq edilməsindən əvvəl bu Antidopinq Qaydalarında və Nəticələrin emalı üzrə beynəlxalq standartda müəyyən edilmiş daxili yoxlama keçirilməlidir.]*

**7.4.2** *Qeyri-əlverişli Analiz Nəticəsi* əsasında *xüsusi maddələr*, *xüsusi üsullar, kontaminasiyaya uğramış məhsullar* və ya digər antidopinq qayda pozuntuları üçün qeyri-məcburi *şərti kənarlaşdırılma*

*AMADA*, *idmançının* B *nümunəsinin* analizindən və ya 8-ci maddədə təsvir edilmiş yekun dinləmədən əvvəl 7.4.1-ci maddə ilə əhatə edilməyən antidopinq qayda pozuntuları üçün *şərti kənarlaşdırılma* tətbiq edə bilər.

Qeyri-məcburi *şərti kənarlaşdırılma, AMADA*-nın mülahizəsinə əsasən 8-ci maddəyə uyğun olaraq Azərbaycan Milli Antidopinq İntizam Komitəsinin qərarından əvvəl istənilən zaman aradan qaldırıla bilər, o şərtlə ki, *Nəticələrin emalı* üzrə *beynəlxlaq standartda* digər hal nəzərdə tutulmasın.

**7.4.3** Dinləmə və ya apellyasiya qaydasında şikayət imkanı

7.4.1-ci və 7.4.2-ci maddələrinin müddəalarından asılı olmayaraq, *idmançıya* və ya digər *şəxsə*:

(a) *şərti kənarlaşdırılmadan* əvvəl və ya onun tətbiqindən ağlabatan müddət sonra *şərti dinləmə* üçün imkan; və ya

(b) *şərti kənarlaşdırılmanın* tətbiqindən ağlabatan müddət sonra 8-ci maddəyə uyğun olaraq sürətləndirilmiş dinləmə imkanı

verilmədiyi hallarda *şərti kənarlaşdırılma* tətbiq edilə bilməz.

*Şərti kənarlaşdırılmanı* tətbiq etmək və ya *şərti kənarlaşdırılmanı* tətbiq etməmək haqqında qərardan 13.2-ci maddəyə uyğun olaraq sürətləndirilmiş proses vasitəsilə apellaysiya qaydasında şikayət verilə bilər.

**7.4.4** *Şərti kənarlaşdırılmanın* könüllü qəbul edilməsi

*İdmançılar,* öz təşəbbüslərilə *şərti kənarlaşdırılmanı* qəbul edə bilərlər, o şərtlə ki, bunu aşağıdakılardan hər hansının gec baş verdiyi tarixdən əvvəl etsinlər:

(i) B *nümunəsi* barədə hesabat (və ya B *nümunəsindən* imtina) tarixindən on (10) gün müddətinin və ya hər hansı digər antidopinq qayda pozuntusu barədə bildiriş tarixindən on (10) gün müddətinin bitməsi tarixindən, və ya

(ii) *idmançının* belə hesabat və ya bildirişdən sonra ilk yarışdığı tarixdən.

Digər *şəxslər* öz təşəbbüslərilə *şərti kənarlaşdırılmanı* qəbul edə bilərlər, o şərtlə ki, bunu antidopinq qayda pozuntusu barədə bildiriş tarixindən sonra on (10) gün ərzində etsinlər.

Könüllü qəbuldan sonra *şərti kənarlaşdırılma* tam qüvvəyə minməlidir və *şərti kənarlaşdırılma* 7.4.1-ci və ya 7.4.2-ci maddəyə uyğun olaraq tətbiq edilə biləcəyi kimi tətbiq edilməlidir; buna baxmayaraq, *şərti kənarlaşdırılmanı* könüllü qəbul etdikdən sonra istənilən zaman *idmançı* və ya digər *şəxs* qəbuldan imtina edə bilər, lakin bu halda həmin *idmançı* və ya digər *şəxsin* həmin *şərti kənarlaşdırılma* dövrü yekun qərar zamanı nəzərə alınmamalıdır.

**7.4.5** *Şərti kənarlaşdırılma* A *nümunəsinin Qeyri-əlverişli Analiz Nəticəsinə* əsaslanaraq tətbiq edildikdə və sonrakı B *nümunəsinin* analizi (*idmançı*

və ya *AMADA*-nın tələbi ilə) A *nümunəsinin* analizini təsdiq etmədikdə, bu zaman *idmançı*, 2.1-ci maddənin pozulması əsasında tətbiq edilən *şərti kənarlaşdırılmaya* artıq məruz qalmamalıdır. *İdmançı* və ya *idmançının* komandasının 2.1-ci maddəyə əsaslanaraq *tədbirdən* uzaqlaşdırıldığı və sonrakı B *nümunəsinin* analizi A *nümunəsinin* nəticələrini təsdiqləmədiyi halda, tədbirin gedişinə mənfi təsir göstərmədən *idmançının* və ya komandanın bərpa edilməsi mümkün olduqda, *idmançı* və ya komanda *tədbirdə* iştirak etməyə davam edə bilərlər.

### 7.5 ***Nəticələrin emalı* üzrə qərarlar**

*AMADA*, Azərbaycan Milli Antidopinq İntizam Komitəsi və ya Azərbaycan Milli Antidopinq Apellyasiya Komitəsinin *nəticələrin emalı* üzrə qərarları və ya mübahisələrin həlli hər hansı coğrafi sahə ilə və ya idmanla məhdudlaşmamalıdır və aşağıdakı məsələləri məhdudiyyətsiz qaydada müəyyən etməlidir:

(i) antidopinq qayda pozuntusunun törədilib-törədilməməsi, *şərti kənarlaşdırılmanın* tətbiq edilib-edilməsi, işin halları və pozulmuş maddələrin qeyd edilməsi, və

(ii) antidopinq qayda pozuntusu(-ları)ndan irəli gələn bütün *sanksiyalar*, o cümlədən 9-cu və 10.10-cu maddələrə uyğun olaraq tətbiq edilə bilən *nəticələrin ləğv edilməsi*, medal və ya mükafatların geri qaytarılması, hər hansı *diskvalifikasiya* müddəti (və onun başlama tarixi) və hər hansı *maliyyə sanksiyası*.[36]

### 7.6 ***Nəticələrin emalı* üzrə qərarlar barədə bildiriş**

*AMADA,* 14-cü maddəyə və *Nəticələrin emalı* üzrə *beynəlxlaq standarta* uyğun olaraq *idmançıları,* digər *şəxsləri, Məcəlləyə imza təşkilatları* və *ÜADA*-nı *nəitcələrin emalı* üzrə qərarları barədə məlumatlandırmalıdır.

### 7.7 İdmanı tərk etmə [37]

*İdmançı* və ya digər *şəxs*, *AMADA*-nın *nəticələrin emalı* prosesi gedişatında idmanı tərk etdikdə, *AMADA* öz *nəticələrin emalı* prosesini başa çatdırmaq səlahiyyətinə malikdir. *İdmançı* və ya digər *şəxs* hər hansı *nəticələrin emalı* prosesinin başlanmasınadək idmanı tərk etdikdə və *AMADA* həmin *idmançı* və ya digər *şəxs* üzərində *idmançı* və ya digər *şəxs* tərəfindən törədilmiş antidopinq qayda pozuntusu zamanı *nəticələrin emalı* səlahiyyətinə malik olduqda, *AMADA nəticələrin emalını* həyata keçirmək səlahiyyətinə malikdir.

### 7.8 Xərclərin ödənilməsi

*İdmançı* tərəfindən B *nümunəsinin* analizi və (və ya) əlaqəli laborator sənədlər paket(lər)inin verilməsi tələb edildiyi halda, buna dair bütün xərclər *idmançı* tərəfindən ödənilməlidir.

---

[36] *[7.5-ci maddəyə şərh: Nəticələrin emalı üzrə qərarlar şərti kənarlaşdırılmaları daxil edir.*

*AMADA, Azərbaycan Milli Antidopinq İntizam Komitəsi və Azərbaycan Milli Antidopinq Apellyasiya Komitəsinin hər bir qərarı, antidopinq qayda pozuntusunun törədilib-törədilməməsi və pozuntudan irəli gələn bütün sanksiyaları, o cümlədən 10.1-ci maddəyə uyğun olaraq (hakim qurumu tərəfindən müəyyən edilməli olan) nəticələrin ləğv edilməsi istisna olmaqla hər hansı nəticələrin ləğv edilməsini müəyyən etməlidir. 15-ci maddəyə əsasən, həmin qərar və ona uyğun olaraq tətbiq edilən sanksiya hər bir idmanda və hər bir ölkədə avtomatik olaraq qüvvəyə minməlidir. Məsələn, idmançının yarış müddətində toplanmış nümunəsi üçün Qeyri-əlverişli Analiz Nəticəsi əsasında antidopinq qayda pozuntusunun törədilməsi qərarına görə idmançının həmin yarışda əldə etdiyi nəticələri 9-cu maddəyə əsasən ləğv edilir və nümunə toplanması tarixindən başlayaraq diskvlalifikasiya müddəti ərzində idmançı tərəfindən əldə edilmiş bütün yarış nəticələri həmçinin 10.10-cu maddəyə əsasən ləğv edilir; tədbir zamanı edilən test nəticəsində Qeyri-əlverişli Analiz Nəticəsi hesabatı verildikdə, idmançının nümunə toplanmasından əvvəl tədbirdə əldə etdiyi digər fərdi nəticələrin 10.1-ci maddəyə uyğun olaraq ləğv edilib-edilməməsinə görə öhdəliyi Əsas Tədbir Təşkilatçısı daşıyır.*]

[37] *[7.7-ci maddəyə şərh: İdmançı və ya digər şəxsin hər hansı Antidopinq Təşkilatının səlahiyyətinə tabe olmasından əvvəl etdiyi davranış antidopinq qayda pozuntusunu təşkil etmir, lakin həmin idmançı və ya digər şəxsə idman təşkilatında üzvlükdən imtina etmək üçün qanuni əsas yaradır.]*

## MADDƏ 8 *NƏTİCƏLƏRİN EMALI*: ƏDALƏTLİ DİNLƏMƏ HÜQUQU VƏ DİNLƏMƏ QƏRARI BARƏDƏ BİLDİRİŞ

*AMADA*, *Məcəllə* və *Nəticələr emalı* üzrə *beynəlxlaq standarta* əsasən antidopnq qayda pozuntusunu törətməkdə iddia edilən hər bir *şəxs* üçün ədalətli, qərəzsiz və *əməliyyat müstəqilliyinə* malik olan dinləmə qrupu vasitəsilə ağlabatan müddətdə ədalətli dinləmə təmin etməlidir.

### 8.1 Ədalətli dinləmələr

**8.1.1** Ədalətli, qərəzsiz və *əməliyyat müstəqilliyinə* malik olan dinləmə qrupu

**8.1.1.1** Azərbaycan Milli Antidopinq İntizam Komitəsi (*AMAİK*), "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yaradılmışdır və bu Antidopinq Qaydalarının yurisdiksiyasına tabe olan *idmançı* və ya digər *şəxsi* dinləmək və *idmançı* və ya digər *şəxs* tərəfindən antidopinq qayda pozuntusunun törədilib-törədilməməsini müəyyən etmək və, tətbiq edildiyi halda, müvafiq *sanksiyaları* tətbiq etmək səlahiyyətinə malikdir.

**8.1.1.2** *AMADA*, *AMAİK*-in maraqlar münaqişəsindən azad olmasını və onun tərkibi, müddəti, peşəkar təcrübəsi, *əməliyyat müstəqilliyi* və lazımi qaydada maliyyələşdirilməsi *Nəticələrin emalı* üzrə *beynəlxlaq standartın* tələblərinə dair uyğun olmasını təmin etməlidir.

**8.1.1.3** *AMADA*-nın və ya onunla əlaqəli qurumların şura üzvləri, işçiləri, komissiya üzvləri, müşavirləri və rəsmiləri, həmçinin, mübahisə üzrə təhqiqat və ya iş üzrə mühakimədən əvvəl həyata keçirilən proseslərdə iştirak edən hər hansı *şəxs* *AMAİK*-in üzvü və (və ya) katibi (o şərtlə ki, bu cür katibin səlahiyyətlərinə mübahisə üzrə müşavirə prosesində və (və ya) bununla əlaqədar hər hansı bir qərarın hazırlanmasında iştirak etmək daxil olsun) təyin edilə bilməz. Xüsusilə, *TİI* müraciəti, *nəticələrin emalı* üzrə qərar və ya apellyasiya qaydasında baxılmış şikayət üzrə işdə iştirak edən üzv eyni işdə iştirak etməməlidir.

**8.1.1.4** *AMAİK*, müstəqil sədr, sədr müavini və ən azı beş (5) digər müstəqil üzvlərdən ibarət olmalıdır.

**8.1.1.5** Hər bir üzv, hüquq, idman, tibb və (və ya) elmi təcrübə daxil olmaqla antidopinq sahəsində olan təcrübə nəzərə alınmaqla təyin edilməlidir. Hər bir üzv yenilənən dörd (4) illik müddətə təyin edilir.

**8.1.1.6** *AMAİK*, *AMADA* və digər üçüncü şəxslər tərəfindən müdaxilə olmadan dinləmə keçirmək və qərar qəbul etmək səlahiyyətinə malik olmalıdır.

**8.1.2** Dinləmə prosesi

**8.1.2.1** *AMADA*, *idmançı* və ya digər *şəxsə* ehtimal edilən antidopinq qayda pozuntusu barədə bildiriş göndərdikdən sonra və *idmançı* və ya digər *şəxs* 8.3.1-ci və ya 8.3.2-ci maddələrə uyğun olaraq dinləmədən imtina etmədikləri halda, *Nəticələrin emalı* üzrə *beynəlxlaq standartın* 8-ci və 9-cu maddələrində təsvir edilmiş prinsiplərə uyğun olaraq dinləmə keçirilməsi və

mübahisənin həll edilməsi üçün mübahisəni *AMAİK*-ə yönləndirməlidir.

**8.1.2.2** Sədr, həmin mübahisəni dinləmək üçün ən azı üç (3) üzv təyin etməlidir (sədrin daxil olması mümkünlüyü ilə). Mübahisəni dinləyən zaman, dinləmə qrupunun biri (1) ən azı üç (3) il müvafiq hüquqi təcrübəyə malik ixtisaslı hüquqşünas və biri (1) ən azı üç (3) il müvafiq tibbi təcrübəyə malik ixtisaslı həkim olmalıdır.

**8.1.2.3** Sədr tərəfindən *AMAİK*-in üzvü kimi mübahisənin dinlənilməsi üçün təyin edildikdən sonra hər bir üzv, onun tərəfindən açıqlanmış hallardan başqa, mübahisə üzrə tərəflərin onun bitərəfliyini mübahisələndirə biləcəyi və ona məlum olan heç bir faktlar və ya halların mövcud olmaması üzrə bəyanat imzalamalıdır.

**8.1.2.4** Bu Antidopinq Qaydalarına tabe olan *idmançılara* və digər *şəxslərə* münasibətdə *tədbirlərlə* əlaqədar keçirilən dinləmələr *AMAİK* tərəfindən icazə verildiyi halda sürətləndirilmiş proses vasitəsilə keçirilə bilər.[38]

**8.1.2.5** *ÜADA*, Beynəlxlaq Federasiya və *idmançı* və ya digər *şəxsin Milli Federasiyası* dinləmələrdə müşahidəçi kimi iştirak edə bilərlər. Hər bir halda, *AMADA* onları icraatda olan mübahisələrin statusu və bütün dinləmələrin nəticələri barədə tam şəkildə məlumatlandırmalıdır.

## 8.2 Qərarlar barədə bildiriş

**8.2.1** Dinləmənin sonunda və ya bitməsindən sonra dərhal *AMAİK Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 9-cu maddəsinə əsasən qərar üzrə bütün əsasları, tətbiq edilmiş *diskvalifikasiya* müddətini, 10.10-cu maddəyə uyğun olaraq *nəticələrin ləğv edilməsini* və, tətbiq edildiyi halda, mümkün olan ən yüksək *sanksiyanın* tətbiq edilməməsi üzrə əsaslandırılmanı ehtiva edən yazılı qərar qəbul etməlidir.

**8.2.2** *AMADA*, həmin qərar barədə *idmançı* və ya digər *şəxsi* və 13.2.3-cü maddəyə əsasən apellyasiya hüququ olan digər *Antidopinq Təşkilatını* məlumatlandırmalı və həmin qərarı dərhal *ADAMS*-a daxil etməlidir. Qərardan 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər.

## 8.3 Dinləmədən imtina

**8.3.1** Antidopinq qayda pozuntusunda iddia edilən *idmançı* və ya digər *şəxs* dinləmədən imtina edə və *AMADA* tərəfindən təklif edilən *sanksiyalarla* razılaşa bilər.

**8.3.2** Buna baxmayaraq, antidopinq qayda pozuntusunda iddia edilən *idmançı* və ya digər *şəxs AMADA* tərəfindən verilən bildirişdə qeyd olunmuş iyirmi (20) günlük müddət ərzində həmin iddianı etiraz etmədiyi təqdirdə, həmin *idmançı* və ya digər *şəxs* dinləmə hüququndan imtina etmiş, pozuntunu etiraf etmiş və təklif edilən *sanksiyaları* qəbul etmiş hesab edilməlidir.

---

[38] *[8.1.2.4-ci maddəyə şərh: Məsələn, dinləmə, antidopinq qayda pozuntusu üzrə qərarın idmançının tədbirdə iştirak etməyə uyğunluğunu müəyyən etmək üçün əsas tədbirdən əvvəl və ya qərarın idmançının nəticələrinin etibarlılığına və ya tədbirdə iştirakının davam edib-etməyəcəyinə təsir etdiyi üçün tədbirdən qısa müddət əvvəl və ya tədbir gedişində sürətləndirilə bilər.]*

**8.3.3** 8.3.1-ci və ya 8.3.2-ci maddələrin tətbiq edildiyi hallarda *AMAİK* qarşısında dinləmə tələb olunmur. Əvəzində AMADA dərhal *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 9-cu maddəsinə əsasən qərar üzrə bütün əsasları, tətbiq edilmiş *diskvalifikasiya* müddətini, 10.10-cu maddəyə uyğun olaraq *nəticələrin ləğv edilməsini* və, tətbiq edildiyi halda, mümkün olan ən yüksək *sanksiyanın* tətbiq edilməməsi üzrə əsaslandırılmanı ehtiva edən yazılı qərar qəbul etməlidir.

**8.3.4** *AMADA*, həmin qərar barədə *idmançı* və ya digər *şəxsi* və 13.2.3-cü maddəyə əsasən apellyasiya hüququ olan digər *Antidopinq Təşkilatını* məlumatlandırmalı və həmin qərarı dərhal *ADAMS*-a daxil etməlidir. Qərar 14.3.2-ci maddəyə uyğun olaraq *AMADA* tərəfindən *ictimaiyyətə açıqlanmalıdır*.

### 8.4 İAM qarşısında tək dinləmə

*Beynəlxalq səviyyəli idmançılara*, *milli səviyyəli idmançılara* və digər *şəxslərə* qarşı irəli sürülmüş antidopinq qayda pozuntusu iddiası ilə əlaqədar mübahisələrə *idmançının* və ya digər *şəxsin*, *AMADA*-nın (7-ci maddəyə uyğun olaraq *nəticələrin emalı* üzrə səlahiyyəti olduğu halda) və *ÜADA*-nın razılığı əsasında birbaşa *İAM*-da tək dinləmə ilə baxıla bilər.[39]

## MADDƏ 9 FƏRDİ NƏTİCƏLƏRİN AVTOMATİK *LƏĞV EDİLMƏSİ*

*Fərdi idman növlərində yarış müddətində* testlə əlaqədar antidopinq qayda pozuntusu, avtomatik olaraq hər hansı medalların, xalların və mükafatların geri qaytarılması daxil olmaqla, bütün sonrakı *sanksiyaların* tətbiq edilməsi ilə nəticələnən həmin *yarışda* əldə edilmiş nəticələrin *ləğv edilməsinə* səbəb olur.[40]

## MADDƏ 10 FƏRDİ ŞƏXSLƏRƏ QARŞI SANKSİYALAR

### 10.1 Antidopinq qayda pozuntusu baş vermiş *tədbirdə* nəticələrin *ləğv edilməsi*

**10.1.1** *Tədbir* müddətində və ya onunla əlaqədar baş vermiş antidopinq qayda pozutusu, 10.1.2-ci maddədə qeyd olunan hallar istisna olmaqla, *tədbirin* hakim qurumunun qərarına əsasən bütün medallar, xallar və mükafatların geri qaytarılması daxil olmaqla *idmançının* bütün sonrakı *sanksiyaların* tətbiq edilməsi ilə nəticələnən həmin *yarışda* individual qaydada əldə edilmiş nəticələri *ləğv edilə* bilər.

*Tədbirdəki* digər nəticələrin *ləğv edilib-edilməməsi* qərarının qiymətləndirilməsi zamanı nəzərə alınmalı amillər arasında *idmançının*

---

[39] *[8.4-cü maddəyə şərh: Bəzi hallarda, beynəlxalq və ya milli səviyyədə birinci instansiya dinləməsinin keçirilməsindən sonra mübahisəyə yenidən (de novo) İAM qarşısında dinlənməsinin cəmləşdirilmiş xərci çox əhəmiyyətli ola bilər. Bu maddədə müəyyən edilmiş bütün tərəflər maraqlarının tək dinləmədə kifayət dərəcədə müdafiə olunacağına əmin olduqları halda, idmançı və ya Antidopinq Təşkilatı üçün iki (2) dinləmə keçirilməsi üçün əlavə xərclərə ehtiyac olmur. Antidopinq Təşkilatı İAM dinləməsində müşahidəçi kimi iştirak edə bilər. 8.4-cü maddənin heç bir müddəası idmançını və ya digər şəxsi və AMADA-nı (nəticələrin emalı üzrə səlahiyyətə malik olduğu halda) razılaşma ilə öz apellyasiya qaydasında şikayət vermək hüququndan imtina etməyi məhdudlaşdırmır. Lakin belə imtina yalnız həmin tərəfləri belə razılaşmaya riayət etməyə məcbur edir və Məcəlləyə uyğun olaraq apellyasiya hüququ olan digər quruma təsir etmir.]*

[40] *[9-cu maddəyə şərh: Komanda idman növlərində fərdi idmançılar tərəfindən əldə olunmuş hər hansı mükafatlar ləğv edilir. Buna baxmayaraq, komandanın nəticələrinin ləğv edilməsi 11-ci maddəyə uyğun həyata keçirilir. Komanda idman növü olmayan, lakin mükafatların komandalara verildiyi idman növlərində, birdən çox komanda üzvünün antidopinq qayda pozuntusu törətdiyi komandaya qarşı nəticələrinin ləğvi və ya digər intizam tədbiri Beynəlxalq Federasiyanın müvafiq qaydalarında müəyyən edildiyi kimi həyata keçirilir.]*

antidopinq qayda pozuntusunun ağırlığı və həmin *idmançının* digər *yarışlarda* test nəticələrinin mənfi nəticə göstərməsi ola bilər.[41]

**10.1.2** *İdmançı*, pozuntu üzrə *təqsirin və ya səhlənkarlığın olmamasını* sübut etdikdə, *idmançının* antidopinq qayda pozuntusunun pozuntunun baş verdiyi *yarışdan* fərqli *yarışlardakı* nəticələrinə təsir göstərməsi halı istisna olmaqla, həmin *idmançının* digər *yarışlardakı* fərdi nəticələri *ləğv edilməməlidir*.

**10.2 *Qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun* mövcudluğu, *istifadəsi* və ya *istifadə cəhdi* və ya ona *sahibliyə* görə *diskvalifikasiya***

2.1-ci, 2.2-ci və ya 2.6-cı maddələrin pozulmasına görə *diskvalifikasiya* müddəti, sonradan 10.5-ci, 10.6-cı və ya 10.7-ci maddələrlə nəzərdə tutulmuş müddətin müvafiq olaraq ləğv edilməsi, azaldılması və ya dayandırılmasının tətbiq edilməsi mümkünlüyü ilə, aşağıdakılara əsasən tətbiq edilməlidir:

**10.2.1** *Diskvalifikasiya* müddəti, 10.2.4-cü maddənin tətbiq edilməsi halları istisna olmaqla, aşağıdakı hallarda dörd (4) il olmalıdır:

**10.2.1.1** *İdmançı* və ya digər *şəxs* tərəfindən antidopinq qayda pozuntusunun qəsdən törədilməməsinin sübut edilməsi halları istisna olmaqla, antidopinq qayda pozuntusu *xüsusi maddə* və ya *xüsusi üsul* ilə əlaqədar olmadıqda.[42]

**10.2.1.2** Antidopinq qayda pozuntusu *xüsusi maddə* və ya *xüsusi üsul* ilə əlaqədar olduqda və *AMADA* tərəfindən antidopinq qayda pozuntusunun qəsdən törədilməsi sübut edildikdə.

**10.2.2** 10.2.4.1-ci maddənin tətbiq edilməsi halları istisna olmaqla, 10.2.1-ci maddə tətbiq edilmədikdə *diskvalifikasiya* müddəti iki (2) il olmalıdır.

**10.2.3** 10.2-ci maddədə istifadə edilən “qəsdən” anlayışının mənası antidopinq qayda pozuntusu təşkil etdiyi davranışa bilərəkdən yol verən və ya davranışın antidopinq qayda pozuntusu təşkil edə biləcəyinin və ya belə pozuntu ilə nəticələnəcəyinin əhəmiyyətli dərəcədə riskinin olmasını bilən və həmin riskə açıq-aşkar laqeyd yanaşan *idmançıları* və digər *şəxsləri* müəyyənləşdirmək üçün istifadə edilir. Yalnız *yarış müddətində* qadağan edilmiş maddənin mövcudluğuna görə *Qeyri-əlverişli Analiz Nəticəsi ilə* nəticələnən antidopinq qayda pozuntusu, maddənin *xüsusi maddə* olması və *idmançı qadağan edilmiş maddənin yarışdan kənar müddətdə* istifadə etdiyini sübut etdiyi təqdirdə, əks sübuta məruz qalması şərtilə “qəsdən” törədilməmiş hesab edilməlidir. Yalnız *yarış müddətində* qadağan edilmiş maddənin mövcudluğuna görə *Qeyri-əlverişli Analiz Nəticəsi ilə* nəticələnən antidopinq qayda pozuntusu, maddənin *xüsusi maddə* olmadığı və *idmançı qadağan edilmiş maddənin yarışdan kənar müddətdə* idman göstəricilərinə əhəmiyyəti olmayan kontekstdə istifadə etdiyini sübut etdiyi təqdirdə, “qəsdən” törədilməmiş hesab edilməlidir.[43]

---

[41] *[10.1.1-ci maddəyə şərh: O halda ki, 9-cu maddə idmançının müsbət test olan tək yarışda əldə etidyi nəticəni ləğv edir, bu maddə tədbir müddətində bütün yarışlarda bütün əldə edilən nəticələrin ləğv edilməsinə səbəb ola bilər (məs., üzgüçülük üzrə Dünya Çempionatları).]*

[42] *[10.2.1.1-ci maddəyə şərh: İdmançı və ya digər şəxs tərəfindən qadağan edilmiş maddənin onların bədəninə necə daxil olmasını müəyyən etmədən antidopinq qayda pozuntusunun qəsdən törədilmədiyini sübut etmək nəzəri olaraq mümkün olsa belə, 2.1-ci maddəsi üzrə dopinq mübahisəsində idmançı, qadağan edilmiş maddənin mənbəsini müəyyən etmədən qəsdən hərəkət etmədiyini sübut etməsində müvəffəqiyyətli olması ehtimalı əhəmiyyətli səviyyədə aşağıdır.]*

[43] *[10.2.3-cü maddəyə şərh: 10.2.3-cü maddə “qəsdən” anlayışının yalnız 10.2-ci maddənin məqsədləri üçün istifadə edilməsi üçün xüsusi anlayışı təmin edir.]*

**10.2.4** 10.2-ci maddənin hər hansı müddəalarına baxmayaraq, antidopinq qayda pozuntusu *asılılıq yaradan maddə* ilə əlaqədar olduqda:

**10.2.4.1** *İdmançı* hər hansı qəbul etmə və ya *istifadənin yarışdan kənar müddətdə* baş verməsini və idman göstəriciləri ilə əlaqədar olmadığını sübut etdikdə, *diskvalifikasiya* müddəti üç (3) ay olmalıdır.

Əlavə olaraq, 10.2.4.1-ci maddənin müddəalarına uyğun olaraq hesablanmış *diskvalifikasiya* müddəti bir (1) aya qədər azaldıla bilər, o halda ki, *idmançı* və ya digər *şəxs AMADA* tərəfindən təsdiqlənmiş *asılılıq yaradan maddələrə* aid bərpa proqramını müvəffəqiyyətlə tamamlamış olsun. Bu 10.2.4.1-ci maddədə müəyyən edilmiş *diskvalifikasiya* müddəti 10.6-cı maddənin hər hansı müddəası əsasında azaldıla bilməz.[44]

**10.2.4.2** Qəbul etmə, *istifadə* və ya *sahiblik yarış müddətində* baş verdikdə və *idmançı*, qəbul etmənin, *istifadənin* və ya *sahibliyin* idman göstəricilərinə aidiyyatı olmadığını sübut etdikdə, bu halda qəbul etmə, *istifadə* və ya *sahiblik* 10.2.1-ci maddənin məqsədləri üçün qəsdən törədilmiş hesab edilməməlidir və 10.4-cü maddəyə uyğun olaraq *ağırlaşdırıcı hallar* üçün əsas təşkil etməməlidir.

## 10.3 Digər antidopinq qayda pozuntularına görə *diskvalifikasiya*

10.6-cı və 10.7-cı maddələrin tətbiq olunduğu hallar istisna olmaqla, 10.2-ci maddədə müəyyən edilmiş antidopinq qayda pozuntularından fərqli pozuntular üçün *diskvalifikasiya* müddəti aşağıdakı qaydada tətbiq edilməlidir:

**10.3.1** 2.3-cü və 2.5-ci maddələrin pozuntularına görə *diskvalifikasiya* müddəti dörd (4) il olmalıdır, növbəti hallar istisna olmaqla: (1) *idmançının nümunəni* təqdim etməməsi halında, həmin *idmançı* antidopinq qayda pozuntusunun qəsdən olmamasını sübut etdikdə, *diskvalifikasiya* müddəti iki (2) il olmalıdır; (ii) bütün digər hallarda *idmançı* və ya digər *şəxs diskvalifikasiya* müddətinin azaldılmasını əsaslandıra bilən istisna halları müəyyən etdikdə, *diskvalifikasiya* müddəti, *idmançı* və ya digər *şəxsin təqsirin* dərəcəsindən asılı olaraq iki (2) ildən dörd (4) ilə qədər olmalıdır; və ya (iii) *qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxsə* münasibətdə *qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxsin təqsirin* dərəcəsindən asılı olaraq ən çoxu iki (2) illik *diskvalifikasiya* müddəti və ən azı isə *diskvalifikasiya* müddətinin tətbiq edilməməsi və töhmət olmalıdır.

**10.3.2** *İdmançının təqsirin* dərəcəsindən asılı olaraq minimum bir (1) ilədək azaltma imkanı ilə, 2.4-cü maddənin pozuntularına görə *diskvalifikasiya* müddəti iki (2) il olmalıdır. *İdmançının* son anda məkan məlumatını dəyişməsi və ya digər davranışı onun *test edilməsindən* yayınmağa cəhd etməsinə ciddi şübhələr yaratdığı hallarda həmin *idmançılara* münasibətdə bu maddədə nəzərdə tutulan iki (2) il və bir (1) il *diskvalifikasiya* müddətləri arasındakı mülahizə imkanı tətbiq edilməməlidir.

---

[44] *[10.2.4.1-ci maddəyə şərh: Bərpa proqramının təsdiq edilib-edilməməsi və idmançı və ya digər şəxsin proqramı müvəffəqiyyətlə bitirib-bitirməməsinin müəyyən edilməsinə dair qərar AMADA-nın tam mülahizəsi əsasında qəbul edilməlidir. Bu maddənin məqsədi AMADA-ya "aldadıcı" deyil, qanuni və etibarlı bərpa proqramlarını müəyyənləşdirmək və təsdiq etmək üçün imkan yaratmaqdır. Lakin, hesab edilir ki, qanuni bərpa proqramlarının təfərrüatları geniş qaydada fərqlənə və zaman gedişilə dəyişə bildiyindən ÜADA üçün məqbul olan bərpa proqramları üzrə məcburi meyarların hazırlanması məqsədəmüvafiq deyil.]*

**10.3.3** 2.7-ci və 2.8-ci maddələrin pozuntusu üçün *diskvalifikasiya* müddəti pozuntunun ağırlığından asılı olaraq ən azı dörd (4) ildən ömürlük *diskvalifikasiya* müddətinədək olmalıdır. *Qorunan şəxsin* cəlb edilməsilə törədilmiş 2.7-ci və 2.8-ci maddələrinin pozuntusu xüsusilə ağır pozuntu hesab edilməlidir və *idmançının köməkçi heyəti* tərəfindən törədildikdə, *xüsusi maddə* ilə əlaqəli olmayan pozuntular üçün həmin *idmançının köməkçi heyətinə* ömürlük *diskvalifikasiya* müddəti tətbiq edilməlidir. Əlavə olaraq, 2.7-ci və 2.8-ci maddələrinin əhatə etdiyi əhəmiyyətli pozuntular həmçinin qeyri-idman qanunlarını və qaydalarını pozduqda, bu barədə məlumat səlahiyyətli inzibati, peşəkar və ya ədliyyə orqanlarına bildirilməlidir.[45]

**10.3.4** 2.9-cu maddənin pozuntularına görə pozuntunun ağırlığından asılı olaraq *diskvalifikasiya* müddəti ən azı iki (2) ildən ən çoxu ömürlük *diskvalifikasiya* müddətinədək olmalıdır.

**10.3.5** *İdmançının* və ya digər *şəxsin təqsirin* dərəcəsindən və mübahisənin digər hallarından asılı olaraq minimum bir (1) ilədək azaltma imkanı ilə, 2.10-cu maddənin pozuntularına görə *diskvalifikasiya* müddəti iki (2) il olmalıdır.[46]

**10.3.6** 2.11-ci maddənin pozuntularına görə *idmançı* və ya digər *şəxs* tərəfindən törədilmiş pozuntunun ağırlığından asılı olaraq *diskvalifikasiya* müddəti ən azı iki (2) ildən ən çoxu ömürlük *diskvalifikasiya* müddətinədək olmalıdır.[47]

### 10.4 Diskvalifikasiya müddətini artıra bilən *ağırlaşdırıcı hallar*

*AMADA*, 2.7-ci (*dövriyyə* və ya *dövriyyə cəhdi*), 2.8-ci (*tətbiq etmə* və ya *tətbiq etmə cəhdi*, 2.9-cu (əlbirlik və ya əlbirlik *cəhdi*) və ya 2.11-ci (səlahiyyətli qurumların məlumatlandırılmasına *idmançı* və ya digər *şəxs* tərəfindən maneəçilik və ya buna görə qisas xarakterli əməllər) maddələrində nəzərdə tutulmuş pozuntulardan başqa antidopinq qayda pozuntusu ilə bağlı individual qaydada standart sanksiyadan artıq *diskvlaifikasiya* müddətinin tətbiqini əsaslandıran *ağırlaşdırıcı halların* mövcudluğunu müəyyən etdikdə, tətbiq ediləcək *diskvalifikasiya* müddətinə pozuntunun ağırlığından və *ağırlaşdırıcı halların* təbiətindən asılı olaraq iki (2) ilədək əlavə *diskvalifikasiya* müddəti artırılmalıdır, o şərtlə ki, *idmançı* və ya digər *şəxs* antidopinq qayda pozuntusunun bilərəkdən törədilmədiyini sübut etməsin.[48]

### 10.5 *Təqsirin və ya səhlənkarlığın olmaması* əsasında *diskvalifikasiya* müddətinin ləğv edilməsi

---

[45] *[10.3.3-cü maddəyə şərh: İdmançılara dopinq tətbiq edən və ya dopinq istifadəsini ört-basdır edən şəxslər testləri müsbət nəticə verən idmançılardan daha sərt cəzalandırılmalıdırlar. İdman təşkilatlarının səlahiyyəti adətən akkreditasiya, üzvlük və digər idman imtiyazları münasibətində diskvalifikasiya ilə məhdudlaşdığından, həmin idmançının köməkçi heyəti barəsində səlahiyyətli qurumların məlumatlandırılması dopinqin qarşısının alınmasında mühüm addımdır.]*

[46] *[10.3.5-ci maddəyə şərh: 2.10-cu maddədə istinad edilən "digər şəxs" fiziki şəxs deyil, hüquqi şəxs olduqda, həmin hüquq şəxsə qarşı 12-ci maddəyə uyğun olaraq intizam tədbirləri görülə bilər.]*

[47] *[10.3.6-cı maddəyə şərh: 2.5-ci (saxtalaşdırma) və 2.11-ci (səlahiyyətli qurumların məlumatlandırılmasına idmançı və ya digər şəxs tərəfindən maneəçilik və ya buna görə qisas xarakterli əməllər) maddələrin hər ikisini pozan davranış, daha sərt sanksiya ilə nəticələnən pozuntu əsasında cəzalandırılmalıdır.]*

[48] *[10.4-cü maddətə şərh: 2.7-ci (dövriyyə və ya dövriyyə cəhdi), 2.8-ci (tətbiq etmə və ya tətbiq etmə cəhdi), 2.9-cu (əlbirlik və ya əlbirlik cəhdi) və ya 2.11-ci (səlahiyyətli qurumların məlumatlandırılmasına idmançı və ya digər şəxs tərəfindən maneəçilik və ya buna görə qisas xarakterli əməllər) maddələri əsasında pozuntular 10.4-cü maddənin tətbiq dairəsinə daxil edilməmişdir, çünki həmin pozuntular üçün sanksiyalar hər hansı ağırlaşdırıcı halları nəzərə almağa imkan verərək ömürlük diskvalifikasiya müddətinədək seçim mülahizəsini təmin edir.]*

*İdmançı* və ya digər *şəxs* individual qaydada *təqsirin və ya səhlənkarlığın olmadığını* sübut etdikdə, tətbiq ediləcək *diskvalifikasiya* müddəti ləğv edilməldir.[49]

**10.6 *Qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlıq* əsasında *diskvalifikasiya* müddətinin azaldılması**

**10.6.1** 2.1-ci, 2.2-ci və ya 2.6-cı maddələrin pozulmasına görə xüsusi hallarda sanksiyaların azaldılması.

10.6.1-ci maddə əsasında bütün azaldılmalar qarşılıqlı olaraq müstəsna təşkil edir və məcmu şəklində tətbiq edilmir.

**10.6.1.1** *Xüsusi maddə* və ya *xüsusi üsüllar*

Antidopinq qayda pozuntusu *xüsusi maddələr* (*asılılıq yaradan maddələr* istisna olmaqla) və *xüsusi üsullarla* əlaqədar olduqda və *idmançı* və ya digər *şəxs təqsirin və ya səhlənkarlığın qeyri-əhəmiyyətli olmasını* sübut etidkdə, *diskvalifikasiya* müddəti *idmançı* və ya digər *şəxsin təqsirin* dərəcəsindən asılı olaraq ən azı *diskvalifikasiya* müddətinin tətbiq edilməməsi və töhmət, ən çoxu isə iki (2) illik *diskvalifikasiya* müddəti olmalıdır.

**10.6.1.2** *Kontaminasiyaya uğramış məhsullar*

*İdmançı* və ya digər *şəxs,* həm *təqsirin və ya səhlənkarlığın qeyri-əhəmiyyətli olmasını*, həm də aşkarlanmış *qadağan edilmiş maddənin (asılılıq yaradan maddə istisna olmaqla) kontaminasiyaya uğramış məhsuldan* irəli gəlməsini sübut etdikdə, *diskvalifikasiya* müddəti *idmançı* və ya digər *şəxsin təqsirin* dərəcəsindən asılı olaraq ən azı *diskvalifikasiya* müddətinin tətbiq edilməməsi və töhmət, ən çoxu isə iki (2) illik *diskvalifikasiya* müddəti olmalıdır.[50]

**10.6.1.3** *Qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs*

---

[49] *[10.5-ci maddəyə şərh: Bu maddə və 10.6.2-ci maddə yalnız sanksiyaların təyin edilməsində tətbiq edilir; onlar antidopinq qayda pozuntusunun baş verib-verməməsinin müəyyənləşdirilməsində tətbiq edilmir. Onlar yalnız istisna hallarda tətbiq edilir, məsələn, idmançı, onun bütün lazımi tədbirləri görməsinə baxmayaraq rəqibi tərəfindən sabotaj edildiyini sübut etdikdə. Bunun əksinə olaraq, təqsirin və ya səhlənkarlığın olmaması növbəti hallarda tətbiq edilmir: (a) tərkibinə uyğun olmayan etiketli və ya kontaminasiyaya uğramış vitamin və ya qida əlavələrinin qəbulu nəticəsində müsbət test (idmançılar qəbul etdiklərinə görə cavabdehdirlər (2.1-ci maddə) və əlavələrin kontaminasiyaya uğraması ehtimalı barədə məlumatlandırılmışlar); (b) idmançının şəxsi həkimi və ya məşqçisi tərəfindən idmançıya açıqlanmadan qadağan edilmiş maddənin tətbiq edilməsi (idmançılar özləri üçün tibbi heyətin seçilməsi və tibbi heyətin onlara hər hansı qadağan edilmiş maddələrin verilməməsi barədə məlumatlandırılmasına görə cavabdehdirlər); və (c) idmançının öz qida və içkisini etibar etdiyi həyat yoldaşı, məşqçisi və ya digər şəxs tərəfindən onun qida və içkisinin sabotaj edilməsi (idmançılar nə qəbul etdiklərinə və öz qida və içkilərini etibar etdikləri şəxslərin davranışına görə cavabdehdirlər). Buna baxmayaraq, hər bir halda özünəməxsus faktlardan asılı olaraq yuxarıda istinad edilmiş misalların hər hansı biri qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlığa əsaslanaraq 10.6-cı maddəyə uyğun olaraq azaldılmış sanksiyaya gətirib çıxara bilər.]*

[50] *[10.6.1.2-ci maddəyə şərh: Bu maddənin müddəalarından faydalanmaq üçün idmançı və ya digər şəxs, aşkarlanmış qadağan edilmiş maddənin kontaminasiyaya uğramış məhsuldan irəli gəldiyini sübut etməklə yanaşı qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlığı belə ayrıca olaraq sübut etməlidir. Əlavə olaraq qeyd olunmalıdır ki, idmançılar qida əlavələrini öz riskləri hesabına qəbul etdikləri barədə xəbərdar edilmişlər. İdmançının kontaminasiyaya uğramış məhsulu qəbul etməmişdən öncə böyük ehtiyat göstərdiyi hallar istisna olmaqla, qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlıq əsasında sanksiyanın azaldılması kontaminasiyaya uğramış məhsul mübahisələrinə nadir hallarda tətbiq edilir. İdmançının qadağan edilmiş maddənin mənbəsini sübut edə bilib-bilməməsinin qiymətləndirilməsində idmançının həqiqətən kontaminasiyaya uğramış məhsulu istifadə etdiyinin sübut edilməsi məqsədləri üçün idmançı tərəfindən sonradan kontaminasiyaya uğramış məhsulun dopinq nəzarəti formasında bəyan edib-etməməsi əhəmiyyətli fakt təşkil edir.*

*Bu maddə, hər hansı istehsal prosesindən keçmiş məhsullar çərçivəsindən kənarda tətbiq edilməməlidir. Qeyri-əlverişli analiz nəticəsinə, məsələn krandan gələn su və ya çeşmə suyu kimi "qeyri-məhsulun" ətraf mühit kontaminasiyasının səbəb olması təqdirdə, o halda ki, heç bir antidopinq qayda pozuntusu riskini gözləmək üçün ağlabatan əsas mövcud deyil, bir çox hallarda 10.5-ci maddəyə uyğun olaraq təqsirin və ya səhlənkarlığın olmaması tətbiq edilir.]*

*Asılılıq yaradan maddə* ilə əlaqədar olmayan antidopinq qayda pozuntusu *qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs* tərəfindən törədildikdə və *qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs təqsirin və ya səhlənkarlığın qeyri-əhəmiyyətli olmasını* sübut etdikdə, *diskvalifikasiya* müddəti *qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxsin təqsirin* dərəcəsindən asılı olaraq ən azı *diskvalifikasiya* müddətinin tətbiq edilməməsi və töhmət, ən çoxu isə iki (2) illik *diskvalifikasiya* müddəti olmalıdır.

**10.6.2** 10.6.1-ci maddənin tətbiq edilmədiyi hallarda *qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlığın* tətbiq edilməsi

*İdmançı* və ya digər *şəxs* 10.6.1-ci maddənin tətbiq olunmadığı halda individual qaydada *təqsirin və ya səhlənkarlığın qeyri-əhəmiyyətli olmasını* sübut etdikdə, bu zaman 10.7-ci maddəyə uyğun olaraq azaldılma və ya ləğv olunmanın tətbiq edilməsinin mümkünlüyü ilə, tətbiq ediləcək *diskvalifikasiya* müddəti *idmançının* və ya digər *şəxsin təqsirin* dərəcəsinə müvafiq azaldıla bilər, lakin azaldılmış *diskalifikasiya* müddəti tətbiq ediləcək *diskvalifikasiya* müddətinin yarısından az olmamalıdır. Tətbiq ediləcək *diskvalifikasiya* müddəti ömürlük müddət təşkil etdiyi halda, hazırki maddəyə uyğun olaraq azaldılmış müddət səkkiz (8) ildən az olmamalıdır.[51]

## 10.7 *Təqsirdən* savayı digər səbəblərə görə *diskvalifikasiya* və ya digər *sanksiyaların* ləğv edilməsi, azaldılması və ya dayandırılması

**10.7.1** *Məcəllə* pozuntularının aşkarlanmasına və ya müəyyən edilməsinə *əhəmiyyətli yardım* [52]

**10.7.1.1** *AMADA*, 13-cü maddəyə uyğun olaraq apellyasiya qərarından və ya apellyasiya müddətinin bitməsindən əvvəl, *idmançı* və ya digər *şəxsin Antidopinq Təşkilatına*, hüquq mühafizə orqanlarına və ya peşəkar intizam qurumuna aşağıdakılarla nəticələnən *əhəmiyyətli yardım* göstərdiyi halda individual qaydada tətbiq edilmiş *sanksiyaların* (*nəticələrin ləğv edilməsi* və məcburi *ictimaiyyətə açıqlama* istisna olmaqla) bir hissəsini dayandıra bilər:

(i) *Antidopinq Təşkilatı* digər *şəxs* tərəfindən törədilmiş antidopinq qayda pozuntusunu aşkarladıqda və ya iddia irəli sürdükdə; və ya

(ii) hüquq mühafizə orqanı və ya intizam qurumu digər *şəxs* tərəfindən törədilmiş cinayət və ya peşəkar qaydaların pozuntusunu aşkarladıqda və ya ittiham (iddia) irəli sürdükdə və *əhəmiyyətli yardımı* təmin edən *şəxs* tərəfindən təqdim edilmiş məlumat *AMADA*-ya və ya *nəticələrin emalı* səlahiyyəti olan digər *Antidopinq Təşkilatına* açıqlandıqda; və ya

(iii) *ÜADA*, *Məcəlləyə*, *beynəlxlaq standarta* və ya *texniki sənədə* uyğunsuzluğa görə *Məcəlləyə imzalayan təşkilata*, *ÜADA* tərəfindən akkreditə edilmiş

---

[51] *[10.6.2-ci maddəyə şərh: 10.6.2-ci maddə, qəsdin antidopinq qayda pozuntusunun bir elementi olduğu (məs., 2.5-ci, 2.7-ci, 2.8-ci, 2.9-cu və ya 2.11-ci maddələr) və ya sanksiyanın bir hissəsi olduğu (məs., 10.2.1-ci maddə) və ya idmançı və ya digər şəxsin təqsirinin dərəcəsi əsasında diskvalifikasiya müddəti üzrə mülahizə seçimi müvafiq maddədə artıq müəyyən edilmiş maddələr istisna olmaqla, hər hansı antidopinq qayda pozuntusuna tətbiq edilə bilər.]*

[52] *[10.7.1-ci maddəyə şərh: Öz səhvlərini etiraf edən və digər antidopinq qayda pozuntularını ifşa etmək niyyətində olan idmançının, idmançının köməkçi heyətinin və digər şəxslərin əməkdaşlığı təmiz idman üçün əhəmiyyətlidir.]*

laboratoriya və ya *idmançı* pasportunun idarəetmə bölməsinə qarşı (Laboratoriyalar üzrə *beynəlxalq standartda* müəyyən edildiyi qaydada) icraata başladıqda; və ya

(iv) (iv) *ÜADA*-nın təsdiqilə hüquq mühafizə orqanı və ya intizam qurumu dopinqdən fərqli idman dürüstlüyünə qarşı pozuntudan nəticələnən cinayət və ya peşəkar və ya idman qaydalarının pozuntusu ittihamını (iddiasını) irəli sürdükdə.

13-cü maddəya uyğun olaraq apellyasiya qərarından və ya apellyasiya müddətinin bitməsindən sonra *AMADA* yalnız tətbiq ediləcək *sanksiyaların* bir hissəsini *ÜADA*-nın və müvafiq Beynəlxlaq Federasiyanın təsdiqi ilə dayandıra bilər.

Tətbiq ediləcək *diskvalifikasiya* müddətinin dayandırılmasının dərəcəsi *idmançı* və ya digər *şəxs* tərəfindən törədilmiş antidopinq qayda pozuntusunun ağırlığından və *idmançı* və ya digər *şəxs* tərəfindən idmanda dopinqin, *Məcəlləyə* uyğunsuzluğun və (və ya) idman dürüstlüyünə qarşı pozuntuların qarşısının alınması səylərinə göstərdiyi *əhəmiyyətli yardımın* mühümlüyündən asılı olmalıdır. Tətbiq ediləcək *diskvalifikasiya* müddətinin ən çox dörddə üç hissəsi dayandırıla bilər. Tətbiq ediləcək *diskvalifikasiya* müddəti ömürlük olduqda, bu maddəyə uyğun olaraq dayandırılmayan müddət səkkiz (8) ildən az ola bilməz. Bu bəndin məqsədləri üçün, tətbiq ediləcək *diskvalifikasiya* müddəti, bu Antidopinq Qaydalarının 10.9.3.2-ci maddəsinə uyğun olaraq əlavə edilə bilən hər hansı *diskvalifikasiya* müddətini daxil etməməlidir.

*Əhəmiyyətli yardım* göstərmək niyyətində olan *idmançı* və ya digər *şəxsin* tələbi ilə *AMADA*, *idmançı* və ya digər *şəxsə hüquqi mövqeyə xələl gətirmədən bağlanmış razılaşma* əsasında ona məlumatı təqdim etməyə icazə verməlidir.

*İdmançı* və ya digər *şəxs sanksiyaların* dayandırılmasının əsaslandığı əməkdaşlığı və tam şəkildə və etibarlı *əhəmiyyətli yardım* göstərməyi davam etmədikdə, *AMADA* tətbiq edilmiş *sanksiyaları* bərpa etməlidir. AMADA-nın *sanksiyaların* dayandırılmış hissəsini bərpa etmək və ya bərpa etməmək qərarından 13-cü maddəyə uyğun olaraq apellyasiya hüququna malik hər hansı *şəxs* tərəfindən apellyasiya qaydasında şikayət verilə bilər.

**10.7.1.2** *İdmançıları* və digər *şəxsləri Antidopinq Təşkilatına əhəmiyyətli yardım* göstərilməsi üçün həvəsləndirmək məqsədilə *AMADA*-nın və ya antidopinq qayda pozuntusu və ya digər *Məcəllə* pozuntusu törətmiş və ya törətməkdə iddia edilən *idmançı* və ya digər *şəxsin* tələbi ilə *ÜADA, nəticələrin emalı* prosesinin hər hansı mərhələsində, həmçinin 13-cü maddəyə uyğun olaraq apellyasiya qərarından sonra, tətbiq ediləcək *diskvalifikasiya* müddətinin və ya digər *sanksiyaların* müvafiq hesab etdiyi dərəcədə dayandırılmasına razılıq verə bilər. Müstəsna hallarda, *ÜADA əhəmiyyətli yardım* göstərilməsinə görə tətbiq ediləcək *diskvafilikasiya* müddətinin və ya digər *sanksiyaların* bu maddədə qeyd edilmiş qaydadan fərqli olaraq daha artıq hissəsinin və ya *diskvalifikasiya* müddətinin tamamilə dayandırılmasına, habelə məcburi *ictimaiyyətə açıqlamanın* olmamasına və (və ya) pul mükafatının qaytarılmamasına və ya

cərimə və ya xərclərin ödənilməməsinə razılıq verə bilər. *ÜADA*-nın bu təsdiqi, bu maddədə göstərilmiş digər hallarda nəzərdə tutulmuş qaydada, *sanksiyaların* bərpasına məruz qala bilər. 13-cü maddənin müddəalarına baxmayaraq, 10.7.1.2-ci maddəyə münasibətdə *ÜADA*-nın qərarlarından apellyasiya qaydasında şikayəti verilə bilməz.

**10.7.1.3** *AMADA*, *əhəmiyyətli yardım* göstərilməsi nəticəsində sanksiyanın hər hansı bir hissəsini dayandırdıqda, bu halda 14-cü maddədə nəzərdə tutulmuş qaydada 13.2.3-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququna malik olan digər *Antidopinq Təşkilatlarına* əsas izah edilməklə qərar barədə bildiriş verməlidir. Xüsusi hallarda, *ÜADA* idmanda dopinqlə mübarizənin maraqlarının tələb etdiyini hesab etdikdə, *ÜADA* tərəfindən *AMADA*-ya, *əhəmiyyətli yardım* razılaşmasının və ya göstərilən *əhəmiyyətli yardımın* mahiyyətinin açıqlanmasının məhdudlaşdırılması və ya təxirə salınmasına dair müvafiq məxfilik üzrə razılaşmalarını imzalamağa səlahiyyət verilə bilər.

**10.7.2** Digər dəlillərin olmaması halında antidopinq qayda pozuntusunun etirafı

*İdmançı* və ya digər *şəxs,* antidopinq qayda pozuntusunu müəyyən edə biləcək *nümunə* toplanması bildirişindən əvvəl (və ya 2.1-ci maddədən savayı digər antidopinq qayda pozuntularına münasibətdə 7-ci maddəyə uyğun olaraq etiraf edilmiş qayda pozuntusu barədə ilk bildirişi aldıqdan əvvəl) antidopinq qayda pozuntusunu törətdiyini könüllü etiraf etdikdə və həmin etirafın həmin zaman pozuntunun sübut edilməsində yeganə etibarlı dəlil olması halında *diskvalifikasiya* müddəti azaldıla bilər, o şərtlə ki, azaldılmış müddət tətbiq ediləcək *diskvalifikasiya* müddətinin yarısından çox olmasın.[53]

**10.7.3** Sanksiyanın azaldılması üçün bir neçə əsasların tətbiq edilməsi

*İdmançı* və ya digər *şəxs* 10.5-ci, 10.6-cı və ya 10.7-ci maddələrin birdən artıq müddəalarına uyğun olaraq *sanksiyanın* azaldılması hüququnu sübut etdikdə, 10.7-ci maddə üzrə *sanksiyanın* hər hansı azaldılması və ya dayandırılmasının tətbiq edilməsindən əvvəl 10.2-ci, 10.3-cü, 10.5-ci və 10.6-cı maddələrə uyğun olaraq tətbiq ediləcək *diskvalifikasiya* müddəti müvafiq olaraq müəyyən edilməlidir. *İdmançı* və ya digər *şəxs* 10.7-ci maddəyə uyğun olaraq *diskvalifikasiya* müddətinin azaldılması və ya dayandırılması hüququnu sübut etdikdə, bu zaman *diskvalifikasiya* müddəti azaldıla və ya dayandırıla bilər, o şərtlə ki, azaldılmış və ya dayandırılmış müddət tətbiq ediləcək *diskvalifikasiya* müddətin dörddə birindən aşağı olmasın.

**10.8** ***Nəticələrin emalı* üzrə razılaşmalar**

**10.8.1** Erkən etiraf və sanksiyanın qəbul edilməsi əsasında müəyyən antidopinq qayda pozuntuları üzrə *diskvalifikasiya* müddətinin bir il azaldılması

*İdmançı* və ya digər *şəxs*, iddia edilən antidopinq qayda pozuntusu barədə *AMADA* tərəfindən (10.4-cü maddəyə uyğun olaraq iddia edilmiş *diskvalifikasiya* müddəti daxil olmaqla) dörd (4) və ya daha çox illik *diskvalifikasiya* müddəti təklifi üzrə bildiriş aldıqdan sonra, həmin bildirişin alınması tarixindən etibarən iyirmi (20) gündən gec olmayaraq pozuntunu etiraf etdikdə və iddia edilmiş *diskvalifikasiya* müddətini qəbul etdikdə, həmin *idmançının* və ya digər *şəxsin AMADA* tərəfindən iddia edilmiş

---

[53] *[10.7.2-ci maddəyə şərh: Bu maddənin, heç bir Antidopinq Təşkilatının antidopinq qayda pozuntusunun törədilməsi barədə məlumatlı olmadığı zaman idmançı və ya digər şəxsin antidopinq qayda pozuntusunun etirafı ilə çıxış etdiyi hallarda tətbiq edilməsi nəzərdə tutulur. Bu maddənin, idmançı və ya digər şəxs aşkarlanmaq ərəfəsində olduqlarına inandıqlarından sonra etirafın edilməsi hallarında tətbiq edilməsi nəzərdə tutulmur. Diskvalifikasiya müddətinin azaldılma dərəcəsi idmançı və ya digər şəxsin könüllü etirafının olmaması halında onun aşkarlanması ehtimalı əsasında təyin edilməldiir.]*

*diskvalifikasiya* müddəti bir il azaldıla bilər. *İdmançının* və ya digər *şəxsin* 10.8.1-ci maddəyə uyğun olaraq iddia edilmiş *diskvalifikasiya* müddəti bir il azaldıldıqda, iddia edilmiş *diskvalifikasiya* müddətinin hər hansı bir digər maddəyə əsasən əlavə azaldılmasına icazə verilmir.[54]

**10.8.2** Mübahisənin həlli üzrə razılaşma

*İdmançı* və ya digər *şəxs*, *AMADA* tərəfindən antidopinq qayda pozuntusunun törədilməsində iddia edildikdən sonra antidopinq qayda pozuntusunu etiraf etdikdə və *AMADA* və *ÜADA*-nın tam mülahizələri ilə məqbul hesab etdikləri *sanksiyalarla* razılaşdıqda:

(a) *idmançı* və ya digər *şəxsin*, iddia edilən antidopinq qayda pozuntusu üzrə 10.1-10.7-ci maddələrin tətbiq edilməsi, pozuntunun ağırlığı, *idmançı* və ya digər *şəxsin təqsirinin* dərəcəsi və həmçinin *idmançı* və ya digər *şəxsin* etirafının tezliyi üzrə *AMADA* və *ÜADA*-nın qiymətləndirməsindən asılı olaraq *diskvalifikasiya* müddəti müvafiq olaraq azaldıla bilər; və

(b) *diskvalifikasiya* müddəti *nümunənin* toplanması tarixindən və ya digər antidopinq qayda pozuntusunun törədilməsi tarixindən başlaya bilər.

Lakin bu maddənin tətbiq edildiyi hər bir halda, *idmançı* və ya digər *şəxsin* hansının daha tez baş verdiyindən asılı olaraq sanksiyanın tətbiq edilməsi ilə razılaşdığı və ya *şərti kənarlaşdırılmanın* tətbiq edildiyi tarixdən etibarən razılaşdırılmış *diskvalifikasiya* müddətinin ən azı yarısını bitirməlidir. *ÜADA* və *AMADA*-nın mübahisənin həll üzrə razılaşmanı bağlamaq və ya ondan imtina etmək, habelə *diskvalifikasiya* müddətinin azaldılması dərəcəsi və onun başlama tarixi barədə qərarı üzrə qeyd edilən məsələlər dinləmə qurumu tərəfindən müəyyən edilə və ya yoxlana bilməz və 13-cü maddəyə əsasən həmin qərardan apellyasiya qaydasında şikayət verilə bilməz.

Bu maddəyə uyğun olaraq mübahisənin həlli üzrə razılaşma bağlamaq niyyətində olan *idmançı* və ya digər *şəxsin* tələbi ilə, *AMADA idmançı* və ya digər *şəxsə* antidopinq qayda pozuntusu üzrə etirafı onunla *hüquqi mövqeyə xələl gətirmədən bağlanmış razılaşma* əsasında müzakirə etməyə icazə verməldir.[55]

**10.9 Çoxsaylı pozuntular**

**10.9.1** İkinci və ya üçüncü antidopinq qayda pozuntusu

**10.9.1.1** *İdmançı* və ya digər *şəxsin* ikinci antidopinq qayda pozuntusuna görə *diskvalifikasiya* müddəti hansının çox olmasından asılı olaraq aşağıdakılara əsasən müəyyən edilməlidir:

(a) Altı aylıq *diskvalifikasiya* müddəti; və ya

(b) Aşağıdakıların arasında olan civarda *diskvalifikasiya* müddəti:

(i) birinci antidopinq qayda pozuntusu üçün tətbiq edilmiş *diskvalifikasiya* müddəti və birinci antidopinq qayda

---

[54] *[10.8.1-ci maddəyə şərh: Məsələn, AMADA idmançının anabolik steroidlərin istifadəsi üzrə 2.1-ci maddənin pozulmasını iddia etdikdə və iddia etdiyi tətbiq ediləcək diskvlaifikasiya müddəti dörd (4) il olduqda, bu zaman idmançı, pozuntunu etiraf etməklə və bu maddədə müəyyən edilmiş müddət ərzində üç illik diskvalifikasiya müddətini qəbul etməklə diskvalifikasiya müddətini birtərəfli qaydada üç (3) ilədək azalda bilər. Bu halda, əlavə azaldılmalara icazə verilmir. Bu, dinləməyə heç bir zərurət olmadan mübahisəni həll edir.]*

[55] *[10.8-ci maddəyə şərh: 10-cu mddədə müəyyən edilmiş hər hansı yumşaldıcı və ya ağırlaşdırıcı amillər nəticələrin emalı üzrə razılaşmada qeyd edilmiş sanksiyaların müəyyən edilməsi prosesində qiymətləndirilməli və həmin razılaşmanın çərçivəsi xaricində tətbiq edilməməlidir.]*

pozuntusu kimi qiymətləndirilən ikinci antidopinq qayda pozuntusu üçün tətbiq ediləcək *diskvalifikasiya* müddətinin cəmi, və

(ii) birinci antidopinq qayda pozuntusu kimi qiymətləndirilən ikinci antidopinq qayda pozuntusu üçün tətbiq ediləcək *diskvalifikasiya* müddətinin iki misli.

Bu civarda olan *diskvalifikasiya* müddəti, işin bütün təfsilatlarının nəzərdən keçirilməsilə və *idmançı* və ya digər *şəxsin* ikinci pozuntu üçün təqsirin dərəcəsindən asılı olaraq müəyyən edilməlidir.

**10.9.1.2** Üçüncü pozuntunun 10.5-ci və ya 10.6-cı maddələri üzrə *diskvalifikasiya* müddətinin ləğv edilməsi və ya azaldılması üçün şərtləri ehtiva etdiyi və ya 2.4-cü maddənin pozuntusu ilə əlaqədar olduğu hallar istisna olmaqla, üçüncü antidopinq qayda pozuntusu hər zaman ömürlük *diskvalifikasiya* müddəti ilə nəticələnməlidir. Bu istisna hallarda, *diskvalifikasiya* müddəti səkkiz (8) ildən ömürlük *diskvalifikasiya* müddətinədək olmalıdır.

**10.9.1.3** 10.9.1.1-ci və 10.9.1.2-ci maddələrlə müəyyən edilmiş *diskvalifikasiya* müddəti əlavə olaraq 10.7-ci maddənin tətbiq edilməsi ilə azaldıla bilər.

**10.9.2** *İdmançı* və ya digər *şəxsin təqsirinin və ya səhlənkarlığının olmadığı* sübut edildikdə antidopinq qayda pozuntusu, hazırki 10.9-cu maddənin məqsədləri üçün pozuntu hesab edilməməlidir. Əlavə olaraq, 10.2.4.1-ci maddəyə uyğun olaraq sanksiya edilmiş antidopinq qayda pozuntusu 10.9-cu maddənin məqsədləri üçün pozuntu hesab edilməməlidir.

**10.9.3** Müəyyən iddia edilən çoxsaylı pozuntular üçün əlavə qaydalar

**10.9.3.1** 10.9-ci maddə üzrə sanksiyaların tətbiq edilməsi məqsədləri üçün, 10.9.3.2-ci və 10.9.3.3-cü maddələrin müddəalarında müəyyən edildiyi hallar istisna olmaqla, antidopinq qayda pozuntusu, *idmançı* və ya digər *şəxsin* 7-ci maddəyə müvafiq olaraq *AMADA*-dan bildiriş aldıqdan və ya *AMADA* tərəfindən ilk antidopinq qayda pozuntusu barədə bildiriş vermək üçün ağlabatan səylər edildikdən sonra əlavə antidopinq qayda pozuntusunu törətdiyi *AMADA* tərəfindən sübut edildiyi hallarda ikinci pozuntu hesab edilməlidir. *AMADA* bunu sübut edə bilmədikdə, pozuntular birlikdə vahid ilk pozuntu hesab edilməlidir və tətbiq edilən sanksiya, *ağırlaşdırıcı halların* tətbiq edilməsi daxil olmaqla, daha ağır sanksiya tələb edən pozuntu əsasında tətbiq edilməlidir. Əvvəlki antidopinq qayda pozuntusu tarixində olan bütün *yarışlarda* əldə edilən *nəticələr* 10.10-cu maddəyə uyğun olaraq *ləğv edilməlidir*.[56]

**10.9.3.2** *İdmançı* və ya digər *şəxs* tərəfindən bildirişdən əvvəl əlavə antidopinq qayda pozuntusunun törədilməsi *AMADA* tərəfindən müəyyən edildikdə və həmin əlavə pozuntu barəsində ilkin bildiriş verilmiş pozuntudan on iki (12) ay və ya çox əvvəl və ya

---

[56] *[10.9.3.1-ci maddəyə şərh: Sanksiyanın tətbiqindən sonra AMADA tərəfindən ilk antidopinq qayda pozuntusu üçün birldirişdən əvvəl baş vermiş antidopinq qayda pozuntusuna dair faktları aşkarlaması zamanı eyni qayda tətbiq edilir – yəni, AMADA, ağırlaşdırıcı halların tətbiq edilməsi daxil olmaqla, iki (2) pozuntunun eyni zamanda baxılması qaydasında tətbiq edilməli olan sanksiya əsasında sanksiya tətbiq etməlidir.]*

sonra baş verdikdə, bu zaman əlavə pozuntunun *diskvalifikasiya* müddəti ilk pozuntu kimi hesablanmalıdır və bu *diskvalifikasiya* müddəti əvvəl bildiriş verilmiş pozuntu üçün tətbiq edilmiş *diskvalifikasiya* müddəti ilə parallel deyil, ardıcıl olaraq davam etməlidir. Bu 10.9.3.2-ci maddənin tətbiq edildiyi hallarda birlikdə qiymətləndirilən pozuntular 10.9.1-ci maddənin məqsədləri üçün vahid pozuntu təşkil etməlidir.

**10.9.3.3** *İdmançı* və ya digər *şəxs* tərəfindən iddia edilən antidopinq qayda pozuntusuna münasibətdə *dopinq nəzarəti* prosesi ilə əlaqədar 2.5-ci maddənin pozuntusunun törədilməsi *AMADA* tərəfindən müəyyən edildikdə, 2.5-ci maddənin pozuntusu ayrı olaraq pozuntu kimi qiymətləndirilməli və belə pozuntu üçün *diskvalifikasiya* müddəti, iddia edilmiş antidopinq qayda pozuntusu üçün tətbiq ediləcək *diskvalifikasiya* müddətilə, tətbiq edildiyi halda, parallel deyil, ardıcıl davam etməlidir. Bu 10.9.3.3-cü maddənin tətbiq edildiyi hallarda birlikdə qiymətləndirilən pozuntular 10.9.1-ci maddənin məqsədləri üçün vahid pozuntu təşkil etməlidir.

**10.9.3.4** *İdmançı* və ya digər *şəxs* tərəfindən *diskvalifikasiya* müddəti zamanı ikinci və ya üçüncü antidopinq qayda pozuntusunun törədilməsi *AMADA* tərəfindən müəyyən edildikdə, çoxsaylı pozuntular üçün *diskvalifikasiya* müddətləri parallel deyil, ardıcıl davam etməlidir.

**10.9.4** On illik müddət ərzində çoxsaylı antidopinq qayda pozuntuları

10.9-ci maddənin məqsədləri üçün, çoxsaylı pozuntular kimi hesab edilməsi üçün hər bir antidopinq qayda pozuntusu eyni on illik dövr ərzində baş verməlidir.

### 10.10 *Nümunə* toplanması və ya antidopinq qayda pozuntusunun törədilməsindən sonra olan *yarışların* nəticələrinin *ləğv edilməsi*

9-cu maddəyə əsasən müsbət *numunə* aşkarlanmış *yarışın* nəticələrinin avtomatik *ləğv edilməsinə* əlavə olaraq, müsbət *nümunə* toplandığı (*yarış müddətində* və ya *yarışdan kənar müddətdə*) və ya digər antidopinq qayda pozuntusu törədildiyi tarixdən *şərti kənarlanşırılma* və ya *diskvalifikasiya* müddətinin başlanmasınadək *idmançının* əldə etdiyi bütün digər yarış nəticələri, ədalət prinsipi əksinə tələb etmədikdə, hər hansı medalları, xalları və mükafatları geri qaytarılmaqla, *sanksiyaların* tətbiq edilməsilə bərabər *ləğv edilməlidir*.[57]

### 10.11 Geri qaytarılan pul mükafatları

AMADA antidopinq qayda pozuntusu nəticəsində geri qaytarılan pul mükafatlarının bərpasını etdikdə, o, mükafatı geri qaytarılmış *idmançının* yarışmadığı halda həmin pul mükafatına hüququ olan *idmançılara* onu bölüşdürmək və paylaşdırmaq üçün ağlabatan tədbirlər görməlidir.[58]

### 10.12 *Maliyyə sanksiyaları*

[çıxarılmışdır]

[57] *[10.10-cu maddəyə şərh: Bu Antidopinq Qaydalarının heç bir müddəası antidopinq qayda pozuntusu törətmiş şəxsin əməllərindən zərər çəkmiş təmiz idmançılara və ya digər şəxslərə həmin şəxsdən vurulmuş zərər üçün təzminat tələb etməyə mane olmur.]*

[58] *[10.11-ci maddəyə şərh: Bu maddənin məqsədi AMADA üzərinə geri qaytarılmalı mükafat pulunun toplanması üçün hər hansı tədbir görmək öhdəliyinin qoyulması nəzərdə tutulmur. AMADA geri qaytarılmalı mükafat pulunun toplanması üçün heç bir tədbir görməməyi seçdikdə, o, özünün həmin pulu qaytarmaq hüququnu pulu almalı olan idmançıya(-lara) həvalə edə bilər. "Bölüşdürmək və paylaşdırmaq üçün ağlabatan tədbirlər görmək" özünə toplanmış pulun AMADA və onun idmançıları tərəfindən razılaşdığı kimi istifadəsini ehtiva edə bilər.]*

### 10.13 *Diskvalifikasiya* müddətinin başlanması

*İdmançı* artıq antidopinq qayda pozuntusu üçün *diskvalifikasiya* müddətində olduqda, hər hansı yeni *diskvalifikasiya* müddəti cari *diskvalifikasiya* müddətinin başa çatmasından sonra növbəti birinci günü başlamalıdır. Digər hallarda, aşağıdakı hallar istisna olmaqla, *diskvalifikasiya* müddəti *diskvalifikasiyanı* tətbiq etmiş yekun dinləmə qərarının tarixindən və ya dinləmə hüququndan imtina edildikdə və ya heç bir dinləmə baş tutmadıqda, *diskvalifikasiyanın* qəbul edildiyi və ya digər qaydada tətbiq edildiyi tarixdən başlanmalıdır.

**10.13.1** *İdmançı* və digər *şəxsdən* asılı olmayan səbəblərdən baş verən gecikmələr

Dinləmə prosesində və ya *dopinq nəzarətinin* digər hissələrində əhəmiyyətli gecikmələr baş verdikdə və *idmançı* və ya digər *şəxs* özünün həmin gecikmələrin səbəbi olmadığını sübut etdikdə, *AMADA*, Azərbaycan Milli Antidopinq İntizam Komitəsi və ya Azərbaycan Milli Antidopinq Apellyasiya Komitəsi, tətbiq edildiyi təqdirdə, *nümunə* toplanması və ya digər antidopinq qayda pozuntusunun son baş verdiyi tarixdən başlayaraq *diskvalifikasiya* müddətini daha öncəki tarixdən başlanmasını tətbiq edə bilər. Retroaktiv *diskvalifikasiya* daxil olmaqla, *diskvalifikasiya* müddətində əldə edilmiş bütün yarış nəticələri *ləğv edilməlidir*.[59]

**10.13.2** Tətbiq edilmiş *şərti kənarlaşdırılma* və ya *diskvalifikasiya* müddətinin nəzərə alınması

**10.13.2.1** *Şərti kənarlaşdırılmaya idmançı* və ya digər *şəxs* tərəfindən riayət edildikdə, bu halda həmin *şərti kənarlaşdırılmanın* müddəti *idmançı* və ya digər *şəxsə* yekunda tətbiq ediləcək *diskvalifikasiya* müddətindən çıxılmalıdır. *Şərti kənarlaşdırılmaya idmançı* və ya digər *şəxs* tərəfindən riayət edilmədikdə, bu halda həmin *şərti kənarlaşdırılmanın* müddəti *idmançı* və ya digər *şəxsə* yekunda tətbiq ediləcək *diskvalifikasiya* müddətindən çıxılmamalıdır. Sonradan apellyasiya qaydasında verilmiş şikayət üzrə qərardan əvvəl *diskvalifikasiya* müddəti tətbiq edildikdə, bu halda həmin müddət *idmançı* və ya digər *şəxsə* yekunda apellyasiya nəticəsində tətbiq ediləcək hər hansı *diskvalifikasiya* müddətindən çıxılmalıdır.

**10.13.2.2** *İdmançı* və ya digər *şəxs AMADA*-nın *şərti kənarlaşdırılmasını* könüllü olaraq yazılı şəkildə qəbul etdikdə və sonradan ona riayət etdikdə, bu halda həmin könüllü şəkildə qəbul edilmiş *şərti kənarlaşdırılmanın* müddəti *idmançı* və ya digər *şəxsə* yekunda tətbiq ediləcək *diskvalifikasiya* müddətindən çıxılmalıdır. *İdmançı* və ya digər *şəxsin şərti kənarlaşdırılmanı* könüllü qəbul etməsi barədə sənədin surəti, 14.1-ci maddə üzrə antidopinq qayda pozuntusu iddiası barədə bildirişi almaq hüququna malik olan hər bir tərəfə dərhal təqdim edilməlidir.[60]

**10.13.2.3** *İdmançının* yarışmamaq qərarından və ya komandası tərəfindən kənarlaşdırılmasından asılı olmayaraq, *şərti kənarlaşdırılma* və ya könüllü *şərti kənarlaşdırılmanın* qüvvəyə

---

[59] *[10.13.1-ci maddəyə şərh: 2.1-ci maddədə müəyyən edilmiş antidopinq qayda pozuntusundan fərqli olan antidopinq qayda pozuntuları hallarında Antidopinq Təşkilatına antidopinq qayda pozuntusunu sübut etmək üçün kifayət edəcək faktları aşkarlamaq və işləmək üçün uzun müddət tələb ola bilər, xüsusilə idmançı və ya digər şəxs pozuntu faktını gizlətmək üçün müvafiq tədbirlər gördüyü halda. Belə hallarda, bu maddə tərəfindən təmin edilən sanksiyanı daha əvvəlki tarixdən başlamaq imkanı istifadə edilməməlidir.]*

[60] *[10.13.2.2-ci maddə üçün şərh: İdmançı tərəfindən şərti kənarlaşdırılmanın könüllü qəbulu idmançının etirafı hesab edilməməli və heç bir halda ona qarşı qeyri-əlverişli nəticələr çıxarmaq üçün istifadə edilməməlidir.]*

minmə tarixindən əvvəl heç bir müddət *diskvalifikasiya* müddətindən çıxılmamalıdır.

**10.13.2.4** *Komanda idman növlərində* komandaya *diskvalifikasiya* müddəti tətbiq edildikdə, ədalət prinsipi digər hal tələb etmirsə, həmin müddət *diskvalifikasiya* müddətini tətbiq edən yekun dinləmə qərarının tarixindən və ya dinləmə hüququndan imtina edildikdə, *diskvalifikasiyanın* qəbul edildiyi və ya digər hallarda tətbiq edildiyi tarixdən başlamalıdır. Komandanın (tətbiq edilmiş və ya könüllü qəbul edilmiş) hər hansı *şərti kənarlaşdırılma* müddəti yekun *diskvalifikasiya* müddətindən çıxılmalıdır.

## 10.14 *Diskvalifikasiya* və ya *şərti kənarlaşdırılma* zamanı status

**10.14.1** *Diskvalifikasiya* və ya *şərti kənarlaşdırılma* zamanı iştirakın qadağan edilməsi

*Diskvalifikasiya* edilmiş və ya *şərti kənarlaşdırılmış* heç bir *idmançı* və ya digər *şəxs diskvalifikasiya* və ya *şərti kənarlaşdırılma* müddətində heç bir qismdə hər hansı *Məcəlləni imzalayan təşkilat*, *Məcəlləni imzalayan təşkilatın* üzv təşkilatı və ya *Məcəlləni imzalayan təşkilatın* üzv təşkilatının klubu və ya digər təşkilatı tərəfindən icazə verilmiş və ya təşkil edilmiş *yarış* və ya (antidopinq təhsili və ya reabilitasiya proqramları istisna olmaqla) fəaliyyətdə və ya hər hansı peşəkar liqa və ya hər hansı beynəlxalq və ya milli səviyyəli *tədbir* təşkilatının icazə verdiyi və ya təşkil etdiyi *yarışlarda* və ya dövlət qurumu tərəfindən maliyyələşdirilən hər hansı elitar və ya milli səviyyəli idman fəaliyyətində iştirak edə bilməz.

Dörd (4) ildən artıq *diskvalifikasiya* müddətinə məruz qalmış *idmançı* və ya digər *şəxs*, dörd (4) illik *diskvalifikasiya* müddəti bitdikdən sonra *Məcəlləni imzalayan təşkilat* və ya *Məcəlləni imzalayan təşkilatın* üzvü tərəfindən icazə verilməmiş və ya digər halda yurisdiksiyası altında olmayan yerli idman tədbirlərində iştirak edə bilər, lakin yalnız o şərtlə ki, həmin yerli idman tədbiri sözügedən *idmançı* və ya digər *şəxsə* birbaşa və ya dolayısı yol ilə milli çempionatda və ya *beynəlxalq tədbirdə* iştirak etməyə imkan yaratmasın (və ya ona doğru xalları toplamasın) və sözügedən *idmançı* və ya digər *şəxsin qorunan şəxslərlə* hər hansı bir qismdə işləməsini nəzərdə tutmasın.

*Diskvalifikasiya* müddəti tətbiq edilmiş *idmançı* və ya digər *şəxs, test edilməsi* və məkan məlumatının təqdim edilməsi üzrə *AMADA*-nın hər hansı tələbini yerinə yetirməlidir.[61]

**10.14.2** Məşqlərə qayıdış

10.14.1-ci maddəyə istisna olaraq, *idmançı* aşağıda qeyd edilənlərin hansının az olmasından asılı olaraq komanda ilə məşq üçün və ya klubun və ya digər *AMADA*-nın və ya *Məcəlləni imzalayan təşkilatın* üzv təşkilatının obyektlərindən istifadə

---

[61] *[10.14.1-ci maddəyə şərh: Məsələn, 10.14.2-ci maddə nəzərə alınmaqla, diskvalifikasiya edilmiş idmançılar, öz Milli Federasiyaları və ya həmin Milli Federasiyanın üzvü olan klub tərəfindən təşkil edilən və ya dövlət qurumu tərəfindən maliyyələşdirilən təlim-məşq toplantılarında, nümayiş çıxışlarında və ya məşqlərdə iştirak edə bilməzlər. Bundan başqa, diskvalifikasiya edilmiş idmançılar, 10.14.3-cü maddədə müəyyən edilmiş sanksiyalara məruz qalmaq üçün Məcəlləni imzalayan təşkilat olmayan peşəkar liqalar (məs., Milli Xokkey Liqası, Milli Basketbol Assosiasiyası və s.), Məcəlləni imzalayan təşkilat olmayan beynəlxalq və ya milli tədbir təşkilatçıları tərəfindən təşkil edilmiş tədbirlərdə yarışa bilməzlər. "Fəaliyyət" anlayışı özünə həmçinin, məsələn, bu maddədə təsvir edilmiş təşkilatda rəsmi şəxs, direktor, inspektor, işçi və ya könüllü kimi inzibati fəaliyyəti daxil edir. Bir idman növündə tətbiq edilmiş diskvalifikasiya həmçinin digər idman növündə tanınmalıdır (bax 15.1-ci maddə, Qərarların avtomatik məcburi qüvvəsi). Diskvalifikasiya müddətində olan idmançı və ya digər şəxsin, diskvalifikasiya müddətində istənilən zaman məşqçi və ya hər hansı digər qismdə idmançının köməkçi heyəti kimi xidmət göstərməsi qadağandır və bu müddəanın pozulması həmçinin digər idmançı tərəfindən 2.10-cu maddəsinin pozulmasına gətirib çıxara bilər. Diskvalifikasiya müddətində nail olunmuş istənilən nəticələr heç bir məqsəd üçün Azərbaycanda AMADA və ya Milli Federasiyalar tərəfndən tanınmamalıdır.]*

etmək üçün qayıda bilər: (1) *idmançının diskvalifikasiya* müddətinin son iki ayında və ya (2) tətbiq edilmiş *diskvalifikasiya* müddətinin son dörddə birində.[62]

**10.14.3** *Diskvalifikasiya və ya şərti kənarlaşdırılma* zamanı iştiraka qarşı qadağanın pozulması

*Diskvalifikasiya* edilmiş *idmançı* və ya digər *şəxs,* 10.14.1-ci maddədə təsvir edilən *diskvalifikasiya* müddətində iştiraka qarşı qadağanı pozduqda, həmin iştirakın nəticələri *ləğv edilməlidir* və tətbiq edilmiş *diskvalifikasiya* müddətinin sonuna ona bərabər müddətdə yeni *diskvalifikasiya* müddəti əlavə edilməlidir. Yeni *diskvalifikasiya* müddəti, töhmət və *diskvalifikasiya* müddətinin olmaması daxil olmaqla*, idmançı* və ya digər *şəxsin təqsirin* dərəcəsi və işin digər təfərrüatları əsasında uyğunlaşdırıla bilər. *İdmançı* və ya digər *şəxsin* iştiraka qarşı qadağanın pozub-pozmamasının və uyğunlaşdırmanın müvafiq olub-olmamasının müəyyən edilməsi, *nəticələrin emalını* həyata keçirmiş və tətbiq edilmiş *diskvalifikasiya* müddətini tətbiq etmiş *Antidopinq Təşkilatı* tərəfindən həyata keçirilməlidir. Bu qərardan 13-cü maddəyə əsasən apellyasiya qaydasında şikayət verilə bilər.

10.14.1-ci maddədə təsvir edilmiş *şərti kənarlaşdırılma* müddətində iştiraka qarşı qadağanı pozan *idmançı* və ya digər *şəxsin* çəkdiyi *şərti kənarlaşdırılma* müddəti yekun qərardan çıxılmamalı və belə iştirakın nəticələri *ləğv edilməlidir.*

*İdmançının köməkçi heyətinin üzvü* və ya digər *şəxs, şəxsə diskvalifikasiya* zamanı iştiraka qarşı qadağanı pozmaqda yardım etdikdə, *AMADA* həmin yardım üzrə 2.9-cu maddənin pozuntusuna görə sanksiyalar tətbiq etməlidir.

**10.14.4** *Diskvalifikasiya* müddətində maliyyə dəstəyinin dayandırılması

Əlavə olaraq, 10.5-ci və ya 10.6-cı maddələrə uyğun olaraq sanksiyanın azaldılması tətbiq edilməyən hər hansı antidopinq qayda pozuntusu üçün, həmin pozuntunu törətmiş *şəxs* tərəfindən alınan idmanla bağlı maliyyə dəstəyinin müəyyən və ya bütün hissəsi və ya digər idmanla əlaqəli müavinətlər *AMADA*, Azərbaycan Respublikasının dövlət qurumları, Azərbaycan Respublikasının *Milli Olimpiya Komitəsi*, Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsi və *Milli Federasiyalar* tərəfindən dayandırılır.

### 10.15 Sanksiyanın avtomatik dərc edilməsi

Hər bir sanksiyanın məcburi hissəsi, 14.3-cü maddəyə uyğun olaraq avtomatik dərc edilməni daxil etməlidir.

## MADDƏ 11 KOMANDALAR ÜÇÜN *SANKSİYALAR*

### 11.1 *Komanda idman növlərində test etmə*

*Komanda idman növündə* komandanın birdən (1) artıq üzvü *tədbir* ilə əlaqədar olaraq 7-ci maddəyə uyğun olaraq antidopinq qayda pozuntusu barədə bildiriş aldıqda, *tədbir* üzrə hakim qurum komanda üçün *tədbir müddətində* müvafiq *hədəfli test* həyata keçirməlidir.

### 11.2 *Komanda idman növləri* üçün sanksiyalar

*Komanda idman növündə* komandanın ikidən (2) artıq üzvünün *tədbir müddətində* antidopinq qayda pozuntusu törətdikləri aşkarlandıqda, *tədbir* üzrə hakim qurum, antidopinq qayda pozuntusunu törətmiş fərdi *idmançılara* tətbiq edilən *sanksiyalara* əlavə olaraq, komandaya müvafiq *sanksiya* (məs., xalların itirilməsi, *yarış* və ya *tədbirdən diskvalifikasiya* və ya digər sanksiya) tətbiq etməlidir.

---

[62] *[10.14.2-ci maddəyə şərh: Bir çox komanda idman növlərində və bəzi fərdi idman növlərində (məs., tramplindən tullanma və gimnastika) idmançılar öz diskvalifikasiya müddətləri başa çatdıqdan sonra yarışlara hazır olmaq üçün təklikdə effektiv məşq edə bilmirlər. Bu maddədə nəzərdə tutulan məşq dövründə, diskvalifikasiya edilmiş idmançı, yarışlarda iştirak edə bilməz və məşqlərdən başqa 10.14.1-ci maddədə təsvir edilmiş heç bir fəaliyyətdə iştirak edə bilməz.]*

### 11.3 *Tədbirin* hakim qurumu *komanda idman növləri* üçün daha sərt *sanksiyalar* tətbiq edə bilər

*Tədbir* üzrə hakim qurum, *komanda idman növlərinə* münasibətdə 11.2-ci maddədə nəzərdə tutulmuş qaydadan daha sərt *sanksiyalar* tətbiq edən *tədbir* qaydaları qəbul edə bilər.[63]

## MADDƏ 12 *AMADA* TƏRƏFİNDƏN *MİLLİ FEDERASİYALARA* QARŞI SANKSİYALAR

*AMADA*-nın, Azərbaycanda üzərində səlahiyyətə malik olduğu *Milli Federasiyanın* bu Antidopinq Qaydalarına həmin *Milli Federasiyanın* səlahiyyəti çərçivəsində riayət etməməsi, onları icra etməməsi, tətbiq etməməsi və icrasını təmin etməməsi barədə məlumatı olduqda, o, Azərbaycan Respublikasının *Milli Olimpiya Komitəsinə*, Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarına və ya Beynəlxalq Federasiyaya aşağıdakı bir və ya bir neçə əlavə intizam tədbirlərinin görülməsi üçün müraciət edə və ya buna səlahiyyəti olduğu halda özü aşağıdakı bir və ya bir neçə əlavə intizam tədbirlərini görə bilər:

**12.1** Həmin *Milli Federasiyanın* bütün üzvlərini və ya üzvlərinin müəyyən bir qrupunu müvafiq *tədbirlərdən* və ya müəyyən edilmiş müddət ərzində bütün *tədbirlərdən* xaric etmək.

**12.2** Aşağıdakılara əsasən həmin *Milli Federasiyanın* bu Antidopinq Qaydalarına uyğun olmamasını bəyan etmək:

**12.2.1** Həmin *Milli Federasiya* ilə bağlı *idmançılar* və ya digər *şəxslər* tərəfindən on iki (12) aylıq müddət ərzində altıdan (6) çox antidopinq qayda pozuntusunun törədilməsi (2.4-cü maddə ilə əlaqədar olan pozuntular istisna olmaqla). Bu halda həmin *Milli Federasiya* on iki (12) ayadək diskvalifikasiya edilə bilər.

**12.2.2** Həmin *Milli Federasiya* ilə bağlı üçdən (3) çox *idmançı* və digər *şəxs* tərəfindən *beynəlxalq tədbir* zamanı antidopinq qayda pozuntusunun törədilməsi. Bu halda həmin *Milli Federasiya* on iki (12) ayadək diskvalifikasiya edilə bilər.

**12.2.3** Həmin *Milli Federasiya* tərəfindən ciddi şəkildə və (və ya) təkrar *AMADA*-ya məlumat təqdim etmək üçün lazımi səylərin göstərilməməsi və (və ya) 18-ci maddədə qeyd edilmiş öhdəliklərə riayət edilməməsi. Bu halda həmin *Milli Federasiya* üç (3) ayadək diskvalifikasiya edilə bilər.

**12.3** Həmin *Milli Federasiyaya* dövlət büdcəsindən ayrılan maliyyə dəstəyinin müəyyən və ya bütün hissəsini və ya digər maliyyə və qeyri-maliyyə dəstəyini dayandırmaq.

## MADDƏ 13 *NƏTİCƏLƏRİN EMALI*: APELLYASİYALAR [64]

### 13.1 Apellaysiya qadasında şikayə verilə bilən qərarlar

*Məcəllə* və bu Antidopinq Qaydalarına əsasən qəbul edilmiş qərarlardan aşağıdakı 13.2-13.7-ci maddələrdə məyyən edilmiş qaydada və ya bu Antidopinq Qaydalarında, *Məcəllədə* və ya *beynəlxalq standartlarda* müəyyən edildiyi kimi apellyasiya qaydasında şikayət verilə

---

[63] *[11.3-cü maddəyə şərh: Məsələn, Beynəlxlaq Olimpiya Komitəsi, Olimpiya Oyunları müddətində daha az sayda antidopinq qayda pozuntuları əsasında komandanın Oyunlardan diskvalifikasiya edilməsini tələb edən qaydalar qəbul edə bilər.]*

[64] *[13-cü maddə üçün şərh: Məcəllənin məqsədi, antidopinq məsələlərinin yekun apellyasiya imkanını nəzərdə tutan ədalətli və şəffaf daxili proseslər vasitəsilə həll edilməsidir. Antidopinq Təşkilatları tərəfindən antidopinq qərarlarının qəbulu prosesi 14-cü maddəyə əsasən şəffaf qaydada həyata keçirilir. Müvafiq şəxslərə və təşkilatlara, ÜADA daxil olmaqla, bundan sonra həmin qərarlar barədə apellyasiya qaydasında şikayət vermək imkanı verilir. Qeyd olunmalıdır ki, 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüquna malik maraqlı şəxslər və təşkilatlar anlayışının tərifi, digər yarış iştirakçısının diskvalifikasiya edilməsindən faydalana bilən idmançıları və ya onların Milli Federasiyalarını daxil etmir.]*

bilər. Həmin qərarlar, apellyasiya qurumu tərəfindən digər göstəriş verilmədiyi hallarda, apellyasiya icraatı zamanı qüvvədə qalır.

**13.1.1** Məhdudiyyətsiz qaydada yenidən baxışın əhatəsi

Apellyasiya üzrə yenidən baxışın əhatəsi, işin mahiyyəti ilə bağlı bütün məsələləri daxil edir və ilkin qərarı qəbul edən qurum qarşısında baxılmış məsələlər və ya baxış əhatəsi ilə bilavasitə məhdudlaşdırılmır. Apellyasiyanın istənilən tərəfi, dəlilləri təqdim edə, birinci instansiya dinləmələri gedişində irəli sürülməmiş hüquqi arqumentləri və iddiaları qaldıra bilərlər, o şərtlə ki, onlar eyni səbəbdən və birinci instansiya dinləməsi gedişində müzakirə edilən və ya baxılan eyni ümumi fakt və ya hallara münasibətdə qaldırılsın.[65]

**13.1.2** *İAM*, apellyasiyanın predmeti olan nəticələrə əsaslanmamalıdır

Qərarın qəbul edilməsi zamanı *İAM*, qərarından apellyasiya qaydasında şikayət verilən qurumun mülahizəsinə əsaslanmamalıdır.[66]

**13.1.3** *ÜADA*-dan daxili müdafiə vasitələrindən tam istifadə edilməsi tələb olunmur

13-cü maddəyə əsasən *ÜADA*-nın apellyasiya qaydasında şikayət vermək hüququ olduğu halda və heç bir digər tərəfin *AMADA*-nın daxili prosesi çərçivəsində yekun qərardan apellyasiya qaydasında şikayət vermədiyi halda, *ÜADA* həmin qərardan *AMADA*-nın prosesindəki vasitələrdən tam istifadə etmədən birbaşa *İAM-a* apellyasiya qaydasında şikayət verə bilər.[67]

**13.2 Antidopinq qayda pozuntuları, *sanksiyalar*, *şərti kənarlaşdırılmalar,* qərarların tanınması və yurisdiksiya ilə əlaqədar qərarlardan apellyasiyalar**

Antidopinq qayda pozuntusunun törədilməsi barədə qərardan, antidopinq qayda pozuntusu üçün *sanksiyaların* tətbiq edilməsi və ya edilməməsi qərarından və ya heç bir antidopinq qayda pozuntusunun törədilməməsi barədə qərardan; antidopinq qayda pozuntusuna dair icraatının prosedur səbəblərdən davam edə bilinməməsi barədə qərardan (məs., iddia müddətinin bitməsi daxil olmaqla); *ÜADA*-nın, 5.6.1-ci maddəyə uyğun olaraq idmanı tərk etmiş *idmançının* yarışlara qayıtması üçün altı ay öncədən bildiriş verilməsi tələbinə istisna olaraq icazə verilməməsi barədə qərarından; *ÜADA*-nın, *Məcəllənin* 7.1-ci maddəsinə uyğun olaraq *nəticə emalının* həvalə edilməsi qərarından; *AMADA*-nın *Qeyri-əlverişli Analiz Nəticəsi* və ya *Atipik Nəticə* əsasında antidopinq qayda pozuntusu iddiasının irəli sürülməməsi qərarından və ya *Nəticələrin emalı* üzrə *beynəlxalq standarta* uyğun olaraq təhqiqatdan sonra antidopinq qayda pozuntusu iddiasının irəli sürülməməsi qərarından; *şərti dinləmə* nəticəsində *şərti kənarlaşdırılmanın* tətbiq edilməsi və ya onun ləğv edilməsi qərarından; *AMADA*-nın 7.4-cü maddəyə riayət etməməsindən; *AMADA*-nın ehtimal edilən antidopinq qayda pozuntusu və ya onun *sanksiyaları* barədə qərar qəbul etməyə yurisdiksiyasının olmaması barədə qərardan; 10.7.1-ci maddəyə uyğun olaraq *sanksiyaların* dayandırılması və ya dayandırılmaması və ya *sanksiyaların* bərpası və ya bərpa edilməməsi barədə qərardan; *Məcəllənin* 7.1.4-cü və 7.1.5-ci maddələrinə riayət edilməməsindən; 10.8.1-ci maddəyə riayət edilməməsindən; 10.14.3-cü maddəyə uyğun olaraq qəbul edilmiş

---

[65] *[13.1.1-ci maddəyə şərh: Müddəaya edilmiş dəyişikliyin məqsədi 2015-ci ilin Məcəlləsinə əhəmiyyətli dəyişiklik etmək deyil, daha çox aydınlıq gətirməkdir. Məsələn, idmançı birinci instansiya dinləmələri gedişində yalnız saxtalaşdırmada iddia edildikdə, lakin eyni hərəkət əlbirlik də təşkil etdikdə, apellyasiya edən tərəf apellyasiya gedişində idmançıya həm saxtalaşdırma, həm də əlbirlik üzrə iddia irəli sürə bilər.]*

[66] *[13.1.2-ci maddəyə şərh: İAM icraatları de novo qaydasında baxılır. Əvvəlki icraatlar dəlillərin təqdim edilməsini məhdudlaşdırmır və İAM qarşısında dinləmələrdə təsirə malik deyillər.]*

[67] *[13.1.3-cü maddəyə şərh: Qərar AMADA-nın prosesinin yekun mərhələsindən əvvəl qəbul edildikdə (məsələn, birinci dinləmədə) və heç bir tərəf həmin qərardan AMADA-nın prosesinin növbəti mərhələsinə apellyasiya qaydasında şikayət etmədikdə, bu zaman ÜADA, AMADA-nın daxili prosesindəki qalan addımlardan istifadə etməyərək, birbaşa İAM-a apellyasiya şikayəti verə bilər.]*

qərardan; *AMADA*-nın 15-ci maddəyə uyğun olaraq digər *Antidopinq Təşkilatının* qərarının icra edilməməsi qərarından; və *Məcəllənin* 27.3-cü maddəsinə uyğun olaraq qəbul edilmiş qərardan bu 13.2-ci maddədə müəyyən edilmiş qaydada müstəsna olaraq apellyasiya qaydasında şikayət verilə bilər.

**13.2.1** *Beynəlxalq səviyyəli idmançılar* və ya *beynəlxalq tədbirlərlə* bağlı apellyasiyalar

*Beynəlxalq tədbirlərdə* iştirak və ya *beynəlxalq səviyyəli idmançılar* ilə bağlı hallarda qəbul edilmiş qərarlardan müstəsna olaraq *İAM-a* apellyasiya şikayəti verilə bilər.[68]

**13.2.2** Digər *idmançılar* və ya digər *şəxslər* ilə bağlı apellyasiyalar

13.2.1-ci maddənin tətbiq edilmədiyi hallarda, qərardan "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsis edilmiş Azərbaycan Milli Antidopinq Apellyasiya Komitəsinə (*AMAAK*) apellyasiya qaydasında şikayət verilə bilər. Apellyasiya prosesi, *Nəticələrin emalı* üzrə *beynəlxalq standarta* uyğun həyata keçirilməlidir.

**13.2.2.1** *AMAAK* qarşısında dinləmələr

**13.2.2.1.1** *AMAAK,* müstəqil sədr, sədr müavini və ən azı beş (5) digər müstəqil üzvlərdən ibarət olmalıdır.

**13.2.2.1.2** Hər bir üzv, hüquq, idman, tibb və (və ya) elmi təcrübə daxil olmaqla antidopinq sahəsində olan təcrübə nəzərə alınmaqla təyin edilməlidir. Hər bir üzv yenilənən dörd (4) illik müddətə təyin edilir.

**13.2.2.1.3** Təyin edilmiş üzvlər *əməliyyat* və *institusional müstəqilliyə* malik olmalıdırlar. *AMADA*-nın və ya onunla əlaqəli qurumların şura üzvləri, işçiləri, komissiya üzvləri, müşavirləri və rəsmiləri, həmçinin, mübahisə üzrə təhqiqat və ya iş üzrə mühakimədən əvvəl həyata keçirilən proseslərdə iştirak edən hər hansı *şəxs AMAAK*-ın üzvü və (və ya) katibi təyin edilə bilməz. Xüsusilə, *TİI* müraciəti, *nəticələrin emalı* üzrə qərar və ya apellyasiya qaydasında baxılmış şikayət üzrə işdə iştirak edən üzv eyni işdə iştirak etməməlidir.

**13.2.2.1.4** *AMAAK*, *AMADA* və digər üçüncü şəxslər tərəfindən müdaxilə olmadan dinləmə keçirmək və qərar qəbul etmək səlahiyyətinə malik olmalıdır.

**13.2.2.1.5** Sədr tərəfindən mübahisəni dinləmək üçün təyin edilmiş üzv hər hansı səbəbdən mübahisəni dinləməkdən imtina etdikdə və ya buna qadir olmadıqda, sədr onu əvəz edə və ya yeni dinləmə qrupunu təyin edə bilər.

**13.2.2.1.6** *AMAAK*, dinləmə qrupuna dəstək göstərmək və ya məsləhət vermək üçün öz müstəsna mülahizəsi əsasında ekspert təyin etmək səlahiyyətinə malikdir.

---

[68] *[13.2.1-ci maddəyə şərh: Arbitraj qərarlarının ləğv olunması və ya icra olunması üçün tətbiq edilən qanunvericilikdə nəzərdə tutulmuş qaydada tələb edilən hər hansı yenidən baxış istisna olmaqla, İAM-ın qərarları yekundur və məcburidir.]*

**13.2.2.1.7** Beynəlxalq Federasiyanın, müvafiq *Milli Federasiyanın*, *Milli Olimpiya Komitəsinin*, icraatın tərəf(lər)i olmadıqları təqdirdə, və həmçinin *ÜADA*-nın müşahidəçi qismində *AMAAK*-ın dinləmələrində iştirak etmək hüquqları vardır.

**13.2.2.1.8** Bu maddəyə əsasən keçirilən dinləmələr mümkün qədər sürətlə başa çatdırılmalıdır. *Tədbirlərlə* bağlı keçirilən dinləmələr sürətləndirilmiş qaydada keçirilə bilər.

**13.2.2.2** *AMAAK*-ın icraatı

**13.2.2.2.1** *AMAAK*-ın icraatı, *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 8-ci, 9-cu və 10-cu maddələrində təsvir edilmiş prinsiplərə əsasən həyata keçirilməlidir.

**13.2.2.2.2** Sədr, apellyasiyanı dinləmək üçün ən azı üç (3) üzv təyin etməlidir (sədrin daxil olması mümkünlüyü ilə). Apellyasiyanı dinləyən zaman, dinləmə qrupunun biri (1) ən azı üç (3) il müvafiq hüquqi təcrübəyə malik ixtisaslı hüquqşünas və biri (1) ən azı üç (3) il müvafiq tibbi təcrübəyə malik ixtisaslı həkim olmalıdır.

**13.2.2.2.3** Sədr tərəfindən *AMAAK*-ın üzvü kimi mübahisənin dinlənilməsi üçün təyin edildikdən sonra hər bir üzv, onun tərəfindən açıqlanmış hallardan başqa, mübahisə üzrə tərəflərin onun bitərəfliyini mübahisələndirə biləcəyi və ona məlum olan heç bir faktlar və ya halların mövcud olmaması üzrə bəyanat imzalamalıdır.

**13.2.2.2.4** Apellyator öz dəlillərini təqdim etməli və cavabdeh tərəf(lər) isə cavab olaraq öz dəlillərini təqdim etməlidir(lər).

**13.2.2.2.5** Bildirişdən sonra hər hansı bir tərəf və ya onun təmsilçisi dinləmədə iştirak etmədikdə, dinləmə istənilən halda davam edə bilər.

**13.2.2.2.6** Hər bir tərəfin öz hesabına dinləmədə hüquqi təmsilçi ilə təmsil olunmaq hüququ var.

**13.2.2.2.7** Hər bir tərəf öz hesabına dinləmədə tərcüməçi ilə təmin olunmaq hüququna malikdir.

**13.2.2.2.8** İcraatın hər bir tərəfi, müvafiq dəlillərdən istifadə etmək və təqdim etmək, yazılı və şifahi ifadələr vermək və şahid çağırmaq və dindirmək hüququna malikdir.

**13.2.2.3** *AMAAK*-ın qərarları

**13.2.2.3.1** Dinləmənin sonunda və ya bitməsindən sonra dərhal *AMAAK Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 9-cu maddəsinin prinsiplərinə əsasən yazılı, tarixi göstərilmiş və imzalanmış qərar qəbul etməlidir.

**13.2.2.3.2** Qərar özündə qərar üzrə bütün əsasları, tətbiq edilmiş *diskvalifikasiya* müddətini, tətbiq edildiyi

halda, mümkün olan ən yüksək *sanksiyanın* tətbiq edilməməsi üzrə əsaslandırılmanı ehtiva etməlidir.

**13.2.2.3.3** *AMADA*, həmin qərar barədə *idmançı* və ya digər *şəxsi* və 13.2.3-cü maddəyə əsasən apellyasiya hüququ olan digər *Antidopinq Təşkilatını* məlumatlandırmalı və həmin qərarı dərhal *ADAMS*-a daxil etməlidir.

**13.2.2.3.4** Qərardan 13.2.3-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər və qərar 14.3-cü maddəyə uyğun olaraq *ictimaiyyətə açıqlana* bilər.

**13.2.3** Appellyasiya hüququ olan *şəxslər*

**13.2.3.1** *Beynəlxalq səviyyəli idmançılar* və ya *beynəlxalq tədbirlərlə* bağlı apellyasiyalar

13.2.1-ci maddəyə əsasən dinlənən mübahisələrdə aşağıdakı tərəflərin *İAM-a* apellyasiya şikayəti vermək hüququ var: (a) apellyasiya şikayəti verilən qərarın aid olduğu *idmançı* və ya digər *şəxs*; (b) qərar verilmiş mübahisənin digər tərəfi; (c) müvafiq Beynəlxalq Federasiya; (d) *AMADA* və (fərqli olduqda) *şəxsin* rezident ölkəsinin, vətəndaşı və ya lisenziya sahibi olduğu ölkələrinin *Milli Antidopinq Təşkilatı*; (e) Olimpiya və ya Paralimpiya Oyunlarında iştirak hüququna təsir edən qərarlar daxil olmaqla, Olimpya və ya Paralimpiya Oyunlarına münasibətdə təsiri ola bilən qərarla bağlı, müvafiq olaraq Beynəlxalq Olimpiya Komitəsi və ya Beynəlxalq Paralimpiya Komitəsi; və (f) *ÜADA*.

**13.2.3.2** Digər *idmançılar* və ya digər *şəxslər* ilə bağlı apellyasiyalar

13.2.2-ci maddəyə əsasən dinlənən mübahisələrdə aşağıdakı tərəflərin apellyasiya şikayəti vermək hüququ var: (a) apellyasiya şikayəti verilən qərarın aid olduğu *idmançı* və ya digər *şəxs*; (b) qərar verilmiş mübahisənin digər tərəfi; (c) müvafiq Beynəlxalq Federasiya; (d) *AMADA* və (fərqli olduqda) *şəxsin* rezident ölkəsinin, vətəndaşı və ya lisenziya sahibi olduğu ölkələrinin *Milli Antidopinq Təşkilatı*; (e) Olimpiya və ya Paralimpiya Oyunlarında iştirak hüququna təsir edən qərarlar daxil olmaqla, Olimpya və ya Paralimpiya Oyunlarına münasibətdə təsiri ola bilən qərarla bağlı, müvafiq olaraq Beynəlxalq Olimpiya Komitəsi və ya Beynəlxalq Paralimpiya Komitəsi; və (f) *ÜADA*.

13.2.2-ci maddəyə əsasən dinlənən mübahisələrdə, *ÜADA*, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi və müvafiq Beynəlxalq Federasiya həmçinin *AMAAK*-ın qərarları ilə bağlı *İAM-a* apellyasiya qaydasında şikayət vermək hüququna malikdirlər.

Apellyasiya şikayəti verən hər bir tərəf, qərarı barədə apellyasiya şikayəti verilən *Antidopinq Təşkilatından* bütün müvafiq məlumatın alınmasında *İAM*-ın dəstəyinə hüququ vardır və *İAM*-ın belə göstərişi əsasında məlumat təmin edilməldir.

**13.2.3.3** Məlumatlandırma öhdəliyi

*İAM*-a verilən hər hansı apellyasiya şikayətinin bütün tərəfləri, *ÜADA* və apellyasiya şikayəti vermək hüququna malik olan bütün digər tərəflərə apellyasiya şikayəti barədə vaxtlı-vaxtında bildiriş verilməsini təmin etməlidirlər.

**13.2.3.4** *Şərti kənarlaşdırılmanın* tətbiqi ilə əlaqədar apellyasiya

Yuxarıda qeyd edilmiş müddəalara baxmayaraq, *şərti kənarlaşdırılmanın* tətbiqi ilə əlaqədar apellyasiya şikayətini yalnız üzərinə *şərti kənarlaşdırılma* tətbiq edilmiş *idmançı* və ya digər *şəxs* verə bilər.

**13.2.3.5** 12-ci maddə ilə bağlı qərarlara dair apellyasiya

12-ci maddəyə uyğun olaraq *AMADA* tərəfindən qəbul edilmiş qərarlardan *Milli Federasiya* və ya digər qurum tərəfindən müstəsna olaraq *İAM*-a apellyasiya qaydasında şikayət verilə bilər.

**13.2.4** Qarşılıqlı apellyasiyalara və əlavə apellyasiyalara icazə

*Məcəlləyə* uyğun olaraq *İAM*-a təqdim edilmiş mübahisələrdə adlandırılan istənilən cavabdeh tərəfindən qarşılıqlı apellyasiyalara və digər əlavə apellyasiyalara bilavasitə icazə verilir. Bu 13-cü maddəyə uyğun olaraq apellyasiya hüququna malik istənilən tərəf qarşılıqlı apellyasiya və ya əlavə apellyasiyanı tərəflərin cavab təqdim etməsi üçün müddətin bitməsindən əvvəl verməlidir.[69]

## 13.3 *AMADA* tərəfindən vaxtlı-vaxtında qərarın verilməməsi pozuntusu

*AMADA*-nın hər hansı halda antidopinq qayda pozuntusu üzrə qərarı *ÜADA* tərəfindən müəyyən edilmiş ağlabatan son müddətədək verilmədiyi təqdirdə, *ÜADA*, bunu *AMADA*-nın antidopinq qayda pozuntusunun olmaması barədə qərar verməsi kimi hesab edərək bundan bilavasitə *İAM*-a apellyasiya qaydasında şikayət verə bilər. *İAM* dinləmə qrupu antidopinq qayda pozuntusunun törədildiyini və *ÜADA*-nın bilavasitə *İAM*-a apellyasiya verməkdə əsaslı hərəkət etdiyini müəyyən etdikdə, *ÜADA*-nın xərcləri və apellyasiyanın baxılması üçün vəkil xərcləri *AMADA* tərəfindən *ÜADA*-ya ödənilməlidir.[70]

## 13.4 *TİI* qərarlarına dair apellyasiyalar

*TİI* qərarlarından müstəsna olaraq 4.4-cü maddəyə əsasən apellyasiya qaydasında şikayət verilə bilər.

## 13.5 Apellyasiya qərarları barədə bildiriş

*AMADA*, 14-cü maddədə müəyyən edildiyi kimi, apellyasiya qərarını *idmançı* və ya digər *şəxsə* və 13.2.3-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququna malik olan digər *Antidopinq Təşkilatına* dərhal bildirməlidir.

## 13.6 Apellyasiya verilməsi üçün üçün müddətlər [71]

**13.6.1** *İAM*-a apellyasiyalar

Apellyasiya şikayəti verən tərəf qərarın alınması tarixindən etibarən iyirmi bir (21) gün ərzində *İAM-a* apellyasiya qaydasında şikayət verə bilər. Buna baxmayaraq,

---

69 *[13.2.4-cü maddəyə şərh: Bu müddəa ona görə zəruridir ki, çünki 2011-ci ildən etibarən İAM-ın qaydaları, idmançının apellyasiya üçün müddəti bitdikdən sonra Antidopinq Təşkilatı qərardan apellyasiya şikayəti verdikdə artıq idmançıya qarşılıqlı apellyasiya şikayəti verməyə icazə vermir. Bu müddəa bütün tərəflər üçün tam dinləmələr keçirməyə imkan yaradır.]*

70 *[13.3-cü maddəyə şərh: Hər bir antidopinq qayda pozuntusu təhqiqatının və nəticələrin emalı prosesinin müxtəlif olduğunu nəzərə alaraq, ÜADA tərəfindən bilavasitə İAM-a apellyasiya şikayəti verməklə müdaxilə edilməsinədək AMADA-nın qərar qəbul etməsi üçün xüsusi müddət müəyyən etmək mümkün deyil. Lakin, belə bir addımın atılmasından əvvəl ÜADA AMADA ilə məsləhətləşir və ona həmin tarixədək qərarın hələ də qəbul edilməməsi səbələrini izah etmək imkanı verir.]*

71 *[13.6-cı maddəyə şərh: İAM-ın qaydaları və ya bu Antidopinq Qaydaları ilə əhatə olunmasından asılı olmayaraq, tərəfin apellyasiya şikayəti etmək üçün müddəti qərarın alınması tarixindən sonra başlayır. Bu səbəbdən, tərəf qərarı almadıqda, onun apellyasiya şikayəti vermək hüququnun müddəti bitə bilməz.]*

apellyasiya hüququ olan, lakin apellyasiya şikayətinin verilməsinə səbəb olmuş qərarla bağlı dinləmədə tərəf olmayan tərəfin apellyasiyası ilə əlaqədar aşağıdakılar tətbiq olunmalıdır:

(a) Sözügedən tərəf(lər), qərar barədə bildiriş tarixindən on beş (15) gün ərzində *nəticələrin emalı* səlahiyyətinə malik *Antidopinq Təşkilatından* qərara aid tam mübahisə materiallarının surətini tələb etmək hüququna malikdir;

(b) Həmin tələb on beş (15) günlük müddət ərzində edildiyi təqdirdə, həmin tələbi etmiş tərəf mübahisə materiallarının alınması tarixindən sonra iyirmi bir (21) gün ərzində *İAM-a* apellyasiya qaydasında şikayət verə bilər.

Yuxarıda qeyd olunanlara baxmayaraq, hansının daha gec olmasından asılı olaraq *ÜADA* tərəfindən apellyasiya şikayəti vermək üçün son tarix aşağıdakılar kimi olmalıdır:

(a) Apellyasiya şikayəti vermək hüququ olan istənilən digər tərəfin apellyasiya şikayəti verə bilməsi üçün son gündən iyirmi bir (21) gün ərzində; və ya

(b) *ÜADA* tərəfindən qərara dair tam mübahisə materiallarının alınmasından iyirmi bir (21) gün ərzində.

**13.6.2** 13.2.2-ci maddəyə uyğun apellyasiyalar

Apellyasiya şikayəti verən tərəf qərarın alınması tarixindən etibarən iyirmi bir (21) gün ərzində *AMAAK-a* apellyasiya qaydasında şikayət verə bilər. Buna baxmayaraq, apellyasiya hüququ olan, lakin apellyasiya şikayətinin verilməsinə səbəb olmuş qərarla bağlı dinləmədə tərəf olmayan tərəfin apellyasiyası ilə əlaqədar aşağıdakılar tətbiq olunmalıdır:

(a) Sözügedən tərəf(lər), qərar barədə bildiriş tarixindən on beş (15) gün ərzində *nəticələrin emalı* səlahiyyətinə malik *Antidopinq Təşkilatından* qərara aid tam mübahisə materiallarının surətini tələb etmək hüququna malikdir;

(b) Həmin tələb on beş (15) günlük müddət ərzində edildiyi təqdirdə, həmin tələbi etmiş tərəf mübahisə materiallarının alınması tarixindən sonra iyirmi bir (21) gün ərzində *AMAAK-a* apellyasiya qaydasında şikayət verə bilər.

Yuxarıda qeyd olunanlara baxmayaraq, hansının daha gec olmasından asılı olaraq *ÜADA* tərəfindən apellyasiya şikayəti vermək üçün son tarix aşağıdakılar kimi olmalıdır:

(a) Apellyasiya şikayəti vermək hüququ olan istənilən digər tərəfin apellyasiya şikayəti verə bilməsi üçün son gündən iyirmi bir (21) gün ərzində; və ya

(b) *ÜADA* tərəfindən qərara dair tam iş materiallarının alınmasından iyirmi bir (21) gün ərzində.

## MADDƏ 14 MƏXFİLİK VƏ HESABATLILIQ

### 14.1 *Qeyri-əlverişli Analiz Nəticələri*, *Atipik Nəticələr* və iddia olunan digər antidopinq qayda pozuntuları haqqında məlumat

**14.1.1** *İdmançılara* və digər *şəxslərə* antidopinq qayda pozuntuları haqqında bildiriş

*İdmançılara* və ya digər *şəxslərə* onlara qarşı antidopinq qayda pozuntusu iddiasının irəli sürülməsi haqqında bildiriş hazırki Antidopinq Qaydalarının 7-ci və 14-cü maddələrinə uyğun olaraq həyata keçirilməlidir.

*Nəticələrin emalı* zamanı antidopinq qayda pozuntusu üzrə sanksiya bildirişinədək olan müddətdə istənilən zaman *AMADA* işə xitam vermək qərarına gəldikdə, o, bu haqda *idmançını* və ya digər *şəxsi* məlumatlandırmalıdır (o şərtlə ki, *idmançı* və ya digər *şəxs* davam edən *nəticələrin emalı* haqqında öncədən xəbərdar olsun).

**14.1.2** *Milli Antidopinq Təşkilatları*, Beynəlxalq Federasiya və *ÜADA*-ya antidopinq qayda pozuntuları haqqında bildiriş

*AMADA* olmadığı təqdirdə, *idmançının* və ya digər *şəxsin Milli Antidopinq Təşkilatına*, Beynəlxalq Federasiyaya və *ÜADA*-ya antidopinq qayda pozuntusu iddiasının irəli sürülməsi haqqında bildiriş hazırki Antidopinq Qaydalarının 7-ci və 14-cü maddələrinə uyğun olaraq *idmançıya* və ya digər *şəxsə* bildiriş ilə eyni zamanda edilməlidir.

*Nəticələrin emalı* zamanı antidopinq qayda pozuntusu üzrə sanksiya bildirişinədək olan müddətdə istənilən zaman *AMADA* işə xitam vermək qərarına gəldikdə, o, bu haqda 13.2.3-cü maddəyə əsasən apellyasiya qaydasında şikayət vermək hüququna malik olan *Antidopinq Təşkilatlarına* bildiriş (əsaslandırma hissəsi ilə birlikdə) etməlidir.

**14.1.3** Antidopinq qayda pozuntusu haqqında bildirişin məzmunu

Antidopinq qayda pozuntusu haqqında bildirişə növbətilər daxildir: *idmançı* və ya digər *şəxsin* adı, ölkəsi, idman növü və yarımnövü, *idmançının* yarış səviyyəsi, testin *yarış müddətində* və ya *yarışdan kənar müddətdə* edilməsi, *nümunə* toplanması tarixi, laboratoriyanın hesabat verdiyi analitik nəticə və *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartın* və *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* tələb etdiyi digər məlumatlar.

2.1-ci maddədən fərqli olan maddə ilə digər antidopinq qayda pozuntuları haqqında bildiriş, həmçinin pozulmuş qaydanı və iddia edilən pozuntunun əsasını ehtiva etməlidir.

**14.1.4** Status hesabatları

14.1.1-ci maddəyə uyğun olaraq antidopinq qayda pozuntusu barədə bildirişlə nəticələnməmiş təhqiqatlar istisna olmaqla, *AMADA* olmadığı təqdirdə, *idmançının* və ya digər *şəxsin Milli Antidopinq Təşkilatı,* Beynəlxalq Federasiya və *ÜADA* 7-ci, 8-ci və ya 13-cü maddələrə əsasən həyata keçirilən hər hansı yoxlama və ya icraatların statusu və nəticələri barədə mütəmadi olaraq məlumatlandırılmalıdırlar və dərhal yazılı əsaslandırılmış izahat və ya işin həll edilməsini izah edən qərar ilə təmin olunmalıdırlar.

**14.1.5** Məxfilik

Məlumat əldə edən təşkilatlar sözügedən məlumatı, *AMADA* tərəfindən 14.3-cü maddəyə uyğun olaraq *ictimaiyyətə açıqlama* edilənədək bunu bilməli olan *şəxslərdən* (müvafiq *Milli Olimpiya Komitəsində*, *Milli Federasiyada* və *komanda idman növündə* komandadakı müvafiq heyət daxil olmaqla) fərqli olan digər *şəxslərə* açıqlamamalıdırlar.

**14.1.6** *AMADA*-nın əməkdaşı və ya digər əlaqəli şəxsi tərəfindən məxfi məlumatın qorunması

*AMADA Qeyri-əlverişli Analiz Nəticələri, Atipik Nəticələr* və iddia olunan digər antidopinq qayda pozuntuları haqqında məlumatı 14.3-cü maddəyə uyğun olaraq *ictimaiyyətə açıqlayanadək* onun məxfiliyinə təminat verməlidir. *AMADA,* əməkdaşlarının (daimi və ya digər formada fəaliyyət göstərən), podratçıların, müşavirlərinin və *Səlahiyyətləndirilmiş Üçüncü Şəxslərin* tamamilə yerinə yetirilə

bilən məxfilik üzrə müqavilə öhdəliyinə tabe olmalarını və onların, belə məxfi məlumatın düzgün olmayan və (və ya) icazəsiz açıqlanmasının təhqiqatı və cəzalandırılması üçün tam icra edilə bilən prosedurlara tabe olmalarını təmin etməlidirlər.

**14.2 Antidopinq qayda pozuntusu və ya *diskvalifikasiya* və ya *şərti kənarlaşdırılma* qərarlarının pozulması haqqında bildiriş və mübahisə üzrə materialların verilməsinə dair sorğu**

**14.2.1** 7.6-cı, 8.2-ci, 10.5-ci, 10.6-cı, 10.7-ci, 10.14.3-cü və ya 13.5-ci maddələrə uyğun olaraq qəbul edilmiş antidopinq qayda pozuntuları üzrə qərarlar və ya *diskvalifikasiya* və ya *şərti kənarlaşdırılmanın* pozulmasına dair qərarlar, tətbiq edildiyi halda, mümkün olan ən yüksək *sanksiyanın* tətbiq edilməməsi üzrə əsaslandırılma daxil olmaqla, qərar üzrə bütün əsasları ehtiva etməlidir. Qərar ingilis və ya fransız dillərində tərtib edilmədikdə, *AMADA* qərarın və əlaqəli əsasların ingilis və ya fransız dillərində xülasəsini təmin etməlidir.

**14.2.2** 14.2.1-ci maddəyə uyğun olaraq əldə edilmiş qərardan apellyasiya qaydasında şikayət vermək hüququ olan *Antidopinq Təşkilatı* qərarı aldığı tarixdən on beş (15) gün ərzində qərara aid olan bütün mübahisə materiallarını tələb edə bilər.

**14.3 *İctimaiyyətə açıqlama***

**14.3.1** *Nəticələrin emalı* üzrə *beynəlxalq standarta* uyğun olaraq *idmançı* və ya digər *şəxsə* və 14.1.2-ci maddəyə əsasən müvafiq *Antidopinq Təşkilatına* bildiriş verildikdən sonra, ehtimal edilən antidopinq qayda pozuntusu barədə məlumatlandırılmış hər hansı *idmançının* və ya digər *şəxsin* şəxsiyyəti, *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* və əlaqəli pozuntunun mahiyyəti və *idmançı* və ya digər *şəxsin şərti kənarlaşdırılmaya* məruz qalıb-qalmaması barədə məlumat *AMADA* tərəfindən *ictimaiyyətə açıqlana* bilər.

**14.3.2** 13.2.1-ci və ya 13.2.2-ci maddələrə uyğun olaraq apellyasiya qaydasında qəbul edilmiş qərarda müəyyən edildikdən və ya apellyasiya qaydasında şikayət vermək üzrə imtinadan, 8-ci maddəyə uyğun olaraq dinləmədən imtinadan, antidopinq qayda pozuntusu iddiasının vaxtında mübahisələndirilmədiyindən, mübahisənin 10.8-ci maddəyə əsasən həll olunduğundan, 10.14.3-cü maddəyə uyğun olaraq yeni *diskvalifikasiya* müddətinin və ya töhmətin tətbiq edildiyindən sonra iyirmi (20) gündən gec olmayaraq, *AMADA,* idman növü, pozulmuş antidopinq qaydası, pozuntunu törətmiş *idmançının* və ya digər *şəxsin* adı, əlaqəli *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* (mövcud olduğu halda) və tətbiq edilmiş *sanksiyalar* daxil olmaqla, antidopinq işi üzrə dispozisiyanı *ictimaiyyətə açıqlamalıdır. AMADA* yuxarıda qeyd edilən məlumatlar daxil olmaqla antidopinq qayda pozuntuları ilə bağlı apellyasiya qərarlarını həmçinin iyirmi (20) gün ərzində *ictimaiyyətə açıqlamalıdır*.[72]

**14.3.3** 13.2.1-ci və ya 13.2.2-ci maddələrə uyğun olaraq antidopinq qayda pozuntusunun baş verməsi apellyasiya qaydasında qəbul edilmiş qərar ilə müəyyən edildikdən və ya apellyasiya qaydasında şikayət verməkdən imtinadan, və ya 8-ci maddəyə uyğun olaraq dinləmədə müəyyən edildikdən və ya dinləmədən imtinadan, antidopinq qayda pozuntusu iddiasının vaxtında mübahisələndirilmədiyindən və ya mübahisənin 10.8-

[72] *[14.3.2-ic maddəyə şərh: 14.3.2-ci maddə ilə tələb edilən ictimaiyyətə açıqlama digər tətbiq edilən qanunların pozuntusu ilə nəticələnəcəyi təqdirdə, AMADA-nın ictimaiyyətə açıqlama verməməsi Şəxsi həyat və fərdi məlumatların mühafizəsi üzrə beynəlxalq standartın 4.2-ci maddəsi ilə nəzərdə tutulduğu kimi Məcəlləyə uyğunsuzluğun müəyyən edilməsilə nəticələnmir.]*

ci maddəyə əsasən həll olunduğundan sonra *AMADA* qərar və ya antidopinq qayda pozuntusunun müəyyən edilməsi barədə ictimaiyyətə məlumat verə və məsələni şərh edə bilər.

**14.3.4** Dinləmə və ya apellyasiyadan sonra *idmançı* və ya digər *şəxsin* antidopinq qayda pozuntusunu törətmədiyi müəyyən edildiyi hər bir halda qərardan apellyasiya qaydasında şikayət verildiyi fakt barədə məlumat *ictimaiyyətə açıqlana* bilər. Lakin, qərarın və onun əsasını təşkil edən faktlar barədə məlumatlar qərarın aid olduğu *idmançı* və ya digər *şəxsin* razılığı əsasında açıqlanması halı istisna olmaqla, *ictimaiyyətə açıqlana* bilməz. *AMADA* razılığı əldə etmək üçün ağlabatan səylər göstərməlidir və razılıq əldə olunduqda, tam qərarı, və ya *idmançı* və ya digər *şəxsin* təsdiq etdiyi qərarın redaktə edilmiş formasını *ictimaiyyətə açıqlamalıdır*.

**14.3.5** Açıqlama tələb edilən məlumatların ən azı *AMADA*-nın veb-saytında yerləşdirilməsi ilə həyata keçirilməlidir və hansının daha uzunmüddətli olmasından asılı olaraq bir (1) ay və ya hər hansı *diskvalifikasiya* müddəti ərzində saxlanılmalıdır.

**14.3.6** 14.3.1-ci və 14.3.3-cü maddələrdə göstərilən hallar istisna olmaqla, heç bir *Antidopinq Təşkilatı*, *Milli Federasiya* və ya *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriya və ya həmin təşkilatların hər hansı rəsmiləri icraatı davam edən işlərin xüsusi faktları barədə (ümumi proses və elmi təsvir istisna olmaqla) *idmançıya*, digər *şəxsə* və ya onların köməkçi heyətinə və ya nümayəndələrinə aid, və ya onlar tərəfindən verilmiş məlumata əsaslanan ictimai şərhlərə cavab istisna olmaqla, ictimaiyyətə şərh etməməlidir.

**14.3.7** 14.3.2-ci maddəyə uyğun olaraq tələb olunan məcburi *ictimaiyyətə açıqlama* antidopinq qayda pozuntusunu törətmiş *idmançının* və ya digər *şəxsin azyaşlı, qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs* olduğu təqdirdə tələb edilmir. *Azyaşlı, qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs* ilə bağlı iş üzrə verilmiş hər hansı qeyri-məcburi *ictimaiyyətə açıqlama*, işin faktlarına və təfərrüatlarına mütənasib olmalıdır.

### 14.4 Statistik hesabatlılıq

*AMADA doping nəzarəti* fəaliyyəti barədə ən azı ildə bir dəfə ümumi statistik hesabatını dərc etməlidir və bir nüsxəsini *ÜADA*-ya təqdim etməlidir. *AMADA* həmçinin test edilmiş hər bir *idmançının* adını və *test etmənin* tarixini ehtiva edən hesabatlar dərc edə bilər.

### 14.5 *Dopinq nəzarəti* üzrə məlumat bazası və uyğunluq üzrə monitorinq

*ÜADA*-nın uyğunluq üzrə monitorinq vəzifəsinin yerinə yetirilməsi, resurslardan səmərəli istifadə və müvafiq *dopinq nəzarəti* məlumatlarının *Antidopinq Təşkilatları* arasında paylaşılmasının təmin edilməsi üçün *AMADA* aşağıdakılar (müvafiq *beynəlxalq standart(lar)da* tələb edildiyi kimi) daxil olmaqla *dopinq nəzarəti* ilə əlaqəli məlumatlar üzrə *ADAMS* vasitəsilə *ÜADA*-ya hesabat verməlidir:

(a) *Beynəlxalq səviyyəli idmançılar* və *milli səviyyəli idmançıların İdmançının Bioloji Pasport* üzrə məlumatı,

(b) *Qeydiyyata Alınmış Test Qrupunda* olan *idmançılar* daxil olmaqla, *idmançıların* məkan məlumatları,

(c) *TİI* üzrə qərarlar, və

(d) *Nəticələrin emalı* üzrə qərarlar.

**14.5.1** Əlaqələndirilmiş test bölüşdürülməsinin planlaşdırılmasını asanlaşdırmaq, müxtəlif *Antidopinq Təşkilatları* tərəfindən *test etmənin* təkrarlanmasının qarşısını almaq və *İdmançıların Bioloji Pasport*

profillərinin yenilənməsini təmin etmək məqsədilə *AMADA, Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartda* nəzərdə tutulmuş müddətlərə və tələblərə uyğun olaraq *dopinq nəzarəti* formalarını *ADAMS*-a daxil etməklə *yarış müddəti* və *yarışdan kənar müddət* testlər barədə *ÜADA*-ya hesabat verməlidir.

**14.5.2** *ÜADA*-nın *Tİİ*-lər üzərində nəzarəti və onlarla bağlı apellyasiya hüququnu asanlaşdırmaq məqsədilə *AMADA,* bütün *Tİİ* müraciətləri, qərarları və müvafiq əlaqəli sənədləri *ADAMS* sistemi vasitəsilə *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *beynəlxalq standartda* nəzərdə tutulmuş müddətlərə və tələblərə uyğun olaraq hesabat verməlidir.

**14.5.3** *ÜADA*-nın *nəticələrin emalı* üzərində nəzarəti və onlarla bağlı apellyasiya hüququnu asanlaşdırmaq məqsədilə *AMADA* aşağıda qeyd olunan məlumatları *Nəticələrin emalı* üzrə *beynəlxalq standartda* nəzərdə tutulmuş müddətlərə və tələblərə uyğun olaraq *ADAMS* sisteminə daxil etməlidir: (a) antidopinq qayda pozuntuları üzrə bildirişlər və *Qeyri-əlverişli Analiz Nəticələri* ilə əlaqəli qərarlar; (b) *Qeyri-əlverişli Analiz Nəticələri* ilə bağlı olmayan digər antidopinq qayda pozuntuları üzrə bildirişlər və qərarlar; (c) məkan məlumatı pozuntuları; və (d) *şərti kənarlaşdırılmanın* tətbiqini, ləğv edilməsini və ya bərpasını nəzərdə tutan hər hansı qərar.

**14.5.4** Bu maddə ilə nəzərdə tutulan məlumat məqsədəmüvafiq olduqda və tətbiq edilən qaydalara uyğun olaraq *idmançıya*, *idmançının Milli Antidopinq Təşkilatına* və Beynəlxalq Federasiyasına və *idmançı* üzərində *test etmə* səlahiyyətinə malik olan hər hansı digər *Antidopinq Təşkilatına* açıqlanır.

### 14.6 Məlumatın məxfiliyi

**14.6.1** *AMADA Məcəlləyə*, *beynəlxalq standartlara* (xüsusilə Şəxsi həyat və fərdi məlumatların mühafizəsi üzrə *beynəlxalq standart* daxil olmaqla), hazırki Antidopinq Qaydalarına və müvafiq qanunlara uyğun olaraq öz *antidopinq fəaliyyətini* həyata keçirmək məqsədilə zəruri və məqsədəmüvafiq hesab edilən hallarda *idmançılara* və digər *şəxslərə* dair fərdi məlumatları toplaya, saxlaya, emal edə və açıqlaya bilər.

**14.6.2** Yuxarıda qeyd olunanları məhdudlaşdırmadan *AMADA*:

(a) Yalnız qüvvədə olan hüquqi əsaslara uyğun şəkildə fərdi məlumatı emal etməlidir;

(b) Hazırki Antidopinq Qaydalarına tabe olan hər hansı *şəxsə* və ya *iştirakçıya* Antidopinq Qaydalarının həyata keçirilməsi məqsədilə onların fərdi məlumatlarının *AMADA* və digər *şəxslər* tərəfindən emal ediləcəyi barədə müvafiq qanunlar və Şəxsi həyat və fərdi məlumatların mühafizəsi üzrə *beynəlxalq standartla* müəyyən edilmiş forma və qaydada məlumat verməlidir;

(c) Hər hansı *iştirakçının* və ya *şəxsin* fərdi məlumatları ilə bölüşdüyü üçüncü şəxslərin (*Səlahiyyətləndirilmiş Üçüncü Şəxslər* daxil olmaqla) belə məlumatın məxfiliyinə təminat verən texniki və müqavilə nəzarətinə tabe olduqlarını təmin etməlidir.

## MADDƏ 15 QƏRARLARIN TƏTBİQİ

### 15.1 *Məcəlləni imzalayan Antidopinq Təşkilatlarının* avtomatik məcburi qüvvəyə malik qərarları

**15.1.1** Antidopinq qayda pozuntusu barədə *Məcəlləni imzalayan Antidopinq Təşkilatı*, apellyasiya qurumu (*Məcəllənin* 13.2.2-ci maddəsi) və ya *İAM* tərəfindən qəbul edilmiş qərar, icraat üzrə tərəflər müvafiq formada qərar barədə məlumatlandırıldıqdan sonra icraat üzrə tərəflərdən kənar *AMADA* və Azərbaycanın istənilən *Milli Federasiyası*, həmçinin hər bir idman növü üzrə *Məcəlləni imzalayan təşkilat* üçün aşağıda təsvir edilmiş nəticələrə gətirib çıxaran avtomatik məcburi qüvvəyə malik olmalıdır:

**15.1.1.1** Yuxarıda qeyd olunan qurumların hər hansı biri tərəfindən qəbul edilmiş *şərti kənarlaşdırılmanın* tətbiqi üzrə qərar (*şərti dinləmə* keçirildikdən sonra və ya *idmançı* və ya digər *şəxs şərti kənarlaşdırılmanı* qəbul etdikdə, və ya 7.4.3-cü maddə ilə nəzərdə tutulmuş *şərti dinləmədən,* sürətləndirilmiş dinləmədən və ya sürətləndirilmiş apellyasiyadan imtina etdikdən sonra) avtomatik olaraq *idmançının* və ya digər *şəxsin şərti kənarlaşdrılma* müddətində *Məcəlləni imzalayan təşkilatların* yurisdiksiyası çərçivəsində keçirilən bütün idman növləri üzrə iştirakını (10.14.1-ci maddədə nəzərdə tutulmuş qaydada) qadağan edir.

**15.1.1.2** Yuxarıda qeyd olunan qurumların hər hansı biri tərəfindən qəbul edilmiş *diskvalifikasiya* müddətinin tətbiqi üzrə qərar (dinləmə keçirildikdən sonra və ya dinləmədən imtina etdikdən sonra) avtomatik olaraq *idmançının* və ya digər *şəxsin diskvalifikasiya* müddətində *Məcəlləni imzalayan təşkilatların* yurisdiksiyası çərçivəsində keçirilən bütün idman növləri üzrə iştirakını (10.14.1-ci maddədə nəzərdə tutulmuş qaydada) qadağan edir.

**15.1.1.3** Yuxarıda qeyd olunan qurumların hər hansı biri tərəfindən antidopinq qayda pozuntusunun qəbul edilməsi qərarı *Məcəlləni imzalayan* bütün *təşkilatlar* üçün məcburi qüvvəyə malikdir.

**15.1.1.4** Yuxarıda qeyd olunan qurumların hər hansı biri tərəfindən 10.10-cu maddəyə əsasən göstərilən müddət çərçivəsində nəticələrin *ləğv edilməsi* üzrə qərarı həmin müddət ərzində hər hansı *Məcəlləni imzalayan təşkilatların* səlahiyyəti çərçivəsində əldə olunan bütün nəticələri *ləğv edir*.

**15.1.2** *AMADA* və hər hansı Azərbaycanın *Milli Federasiyası* 15.1.1-ci maddə ilə tələb edilən qaydada qərarı və onun nəticələrini, əlavə tədbir görmədən, hansının tez baş verməsindən asılı olaraq, *AMADA*-nın qərar barədə bildiriş alması və ya qərarın *ADAMS*-a daxil edilməsi tarixində tanımalı və icra etməlidir.

**15.1.3** *Antidopinq Təşkilatının*, apellyasiya qurumunun və ya *İAM*-ın *sanksiyanın* dayandırılması və ya ləğv edilməsi barədə qərarları *AMADA* və hər hansı Azərbaycanın *Milli Federasiyası* üçün əlavə tədbir tələb olmadan hansının tez baş verməsindən asılı olaraq, *AMADA*-nın qərar barədə bildiriş alması və ya qərarın *ADAMS*-a daxil edilməsi tarixində məcburi qüvvəyə malik olmalıdır.

**15.1.4** 15.1.1-ci maddənin müddəalarına baxmayaraq *tədbir* zamanı *Əsas Tədbir Təşkilatçısı* tərəfindən həyata keçirilmiş sürətləndirilmiş proses əsasında antidopinq qayda pozuntusu ilə bağlı qəbul edilmiş qərar, *Əsas Tədbir Təşkilatçısının* qaydaları *idmançıya* və ya digər *şəxsə* sürətləndirilməmiş qaydada qərardan apellyasiya qaydasında şikayət

vermək hüququnu ehtiva edən hallar istisna olmaqla, *AMADA* və Azərbaycanın *Milli Federasiyaları* üçün məcburi qüvvəyə malik deyildir.[73]

**15.2** ***Antidopinq Təşkilatlarının*** **digər qərarlarının tətbiqi**

*AMADA* Azərbaycanda *Antidopinq Təşkilatlarının* 15.1.1-ci maddə ilə nəzərdə tutulmayan, *şərti dinləmədən* öncə *şərti kənarlaşdırılma* və ya *idmançı* və ya digər *şəxs* tərəfindən qəbul etmə kimi digər antidopinq qərarlarını tətbiq edə bilər.[74]

**15.3** ***Məcəlləni imzalayan təşkilat*** **olmayan qurumların qərarların tətbiqi**

*Məcəlləni imzalayan təşkilat* olmayan qurumun antidopinq qərarı, yalnız *AMADA* bu qərarın həmin qurumun səlahiyyətləri çərçivəsində qəbul olunduğu və onun antidopinq qaydalarının *Məcəlləyə* uyğun olduğu qənaətinə gəldiyi təqdirdə, *AMADA* və Azərbaycanın hər hansı *Milli Federasiyası* tərəfindən tətbiq olunmalıdır.[75]

## MADDƏ 16 İDDİA MÜDDƏTİ

İddia edilən antidopinq qayda pozuntusunun baş verdiyi tarixdən on (10) il ərzində 7-ci maddəyə uyğun olaraq bildiriş verildikdə və ya bildirişin verilməsinə ağlabatan qaydada cəhd edildikdə, *idmançı* və ya digər *şəxsə* qarşı antidopinq qayda pozuntusu üzrə icraat başlanıla bilər.

## MADDƏ 17 TƏHSİL

*AMADA, Məcəllənin* 18.2-ci maddəsinin və *Təhsil* üzrə *beynəlxaq standartın* tələblərinə uyğun olaraq *təhsili* planlaşdırmalı, icra etməli, qiymətləndirməli və təşviq etməlidir.

## MADDƏ 18 *MİLLİ FEDERASİYALARIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ

**18.1** Azərbaycanın bütün *Milli Federasiyaları* və onların üzvləri *Məcəlləyə*, *beynəlxalq standartlara* və bu Antidopinq Qaydalarına riayət etməlidirlər. Azərbaycanın bütün *Milli Federasiyaları* və onların üzvləri, Azərbaycanın Milli Antidopinq Proqramının həyata keçirilməsi və bu Antidopinq Qaydalarının Giriş hissəsində ("Antidopinq Qaydalarının əhatə dairəsi" bölməsində) müəyyən edildiyi kimi antidopinq səlahiyyətləri altında olan *idmançılar* və digər *şəxslərə* bilavasitə münasibətdə (*test etmə* daxil olmaqla) bu Antidopinq Qaydalarının icrasının təmin edilməsi üçün *AMADA*-nın səlahiyyəti və öhdəliyinin tanınması üçün zəruri olan müddəaları öz siyasətlərinə, qaydalarına və proqramlarına daxil etməlidirlər.

---

[73] *[15.1.4-cü maddəyə şərh: Məsələn, Əsas Tədbir Təşkilatçısının qaydaları idmançıya və ya digər şəxsə İAM-a sürətləndirimiş apellyasiya prosedurunu və ya normal İAM apellyasiya proseduru əsasında apellyasiya dinləməsi seçimini verdikdə, idmançı və ya digər şəxsin sürətləndirilmiş apellyasiya dinləməsini seçib-seçməməsindən asılı olmayaraq Əsas Tədbir Təşkilatçısının qərarı Məcəlləni imzalayan təşkilatlar üçün məcburi qüvvəyə malikdir.]*

[74] *[15.1-ci və 15.2-ci maddələrə şərh: 15.1-ci maddə çərçivəsində qəbul edilmiş Antidopinq Təşkilatlarının qərarları Məcəlləni imzalayan təşkilatlar tərəfindən həmin təşkilatların əlavə tədbir görmədən və qərar qəbul etmədən avtomatik qaydada tətbiq edilir. Məsələn, Milli Antidopinq Təşkilatı idmançıya şərti kənarlaşdırılma tətbiq etmək qərarına gəldikdə, Beynəlxalq Federasiya səviyyəsində həmin qərar qüvvəyə malikdir. "Qərar" Milli Antidopinq Təşilatı tərəfindən verilən qərardır, Beynəlxalq Federasiya tərəfindən əlavə ayrı qərarın qəbul edilməsini ehtiva etmir. Beləliklə, şərti kənarlaşdırılmanın yanlış tətbiqi ilə bağlı idmançı tərəfindən iddia yalnız Milli Antidopinq Təşkilatına qarşı qaldırıla bilər. 15.2-ci maddə çərçivəsində qəbul edilən Antidopinq Təşkilatlarının qərarlarının tətbiqi Məcəlləni imzalayan təşkilatın mülahizəsi əsasında həyata keçirilir. 15.1-ci və ya 15.2-ci maddələr əsasında qərarın Məcəlləni imzalayan təşkilat tərəfindən tətbiqi edilməsi üzrə qərardan əsas qərardan ayrı olaraq apellyasiya qaydasında şikayəti verilə bilməz. Digər Antidopinq Təşkilatlarının Tİİ qərarlarının tanınma prosesi 4.4-cü maddənin və Terapevtik İstifadə üçün İstisnalar üzrə beynəlxalq standartın tələblərinə uyğun şəkildə müəyyən olunmalıdır.]*

[75] *[15.3-cü maddəyə şərh: Məcəlləni qəbul etməyən qurumun qərarı bəzi cəhətlərdən Məcəlləyə uyğun və digər cəhətdən isə uyğun olmadıqda, Məcəlləni imzalayan təşkilatlar Məcəllənin prinsiplərinə uyğun bir şəkildə qərarı tətbiq etməyə cəhd etməlidirlər. Məsələn, Məcəlləyə uyğun prosedur nəticəsində Məcəlləni imzalamayan qurum qadağan edilmiş maddənin idmançının bədənində aşkar olunması ilə bağlı idmançının antidopinq qayda pozuntusuna yol verməsini müəyyən etdikdə, lakin tətbiq edilən diskvalifikasiya müddəti Məcəllə ilə müəyyən edilən müddətdən qısa olduqda, Məcəlləni imzalayan bütün təşkilatlar pozuntunu qəbul etməlidir və idmançının Milli Antidopinq Təşkilatı Məcəllədə göstərilən daha uzun diskvalifikasiya müddətinin tətbiq edilib-edilməməsinin müəyyən olunması üçün 8-ci maddəyə uyğun olan dinləmə keçirməlidir. Məcəlləni imzalayan təşkilatın qərarı 15.3-cü maddə ilə nəzərdə tutulmuş qaydada tətbiq etmək və ya onu tətbiq etməmək ilə bağlı qərardan 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayəti verilə bilər.]*

**18.2** Azərbaycanın hər bir *Milli Federasiyası*, Azərbaycan Respublikasının dövlət büdcəsindən və (və ya) Azərbaycan Respublikası *Milli Olimpiya Komitəsindən* maliyyə və (və ya) digər dəstəyin alınmasının şərti kimi Azərbaycanın Milli Antidopinq Proqramını və bu Antidopinq Qaydalarını qəbul etməli və onların məqsədi və şərtlərinə riayət etməlidirlər.[76]

**18.3** Azərbaycanın hər bir *Milli Federasiyası,* öz antidopinq səlahiyyəti altında olan *idmançılar* və digər *şəxslərə* bilavasitə münasibətdə bu Antidopinq Qaydalarının icrasını təmin etməyə malik olmaq üçün bu Antidopinq Qaydalarını öz üzvləri üçün məcburi olan idman qaydalarının bir hissəsi kimi ali sənədlərinə, nizamnamələrinə və (və ya) qaydalarına bilavasitə və ya istinad etməklə daxil etməlidir.

**18.4** Bu Antidopinq Qaydalarını qəbul etməklə və onları öz ali sənədlərinə və idman qaydalarına daxil etməklə, *Milli Federasiyalar* bu vəzifədə *AMADA* ilə əməkdaşlıq etməli və onu dəstəkləməlidirlər. Onlar həmçinin, öz səlahiyyətləri altında olan *şəxslərə* cəzaları tətbiq edən qərarlar daxil olmaqla, bu Antidopinq Qaydalarına əsasən qəbul edilmiş qərarları tanımalı, onlara riayət etməli və icra etməlidirlər.

**18.5** Azərbaycanın bütün *Milli Federasiyaları, Məcəlləyə*, *beynəlxalq standartlara* və bu Antidopinq Qaydalarına riayəti təmin etmək məqsədilə müvafiq tədbirlər görməlidirlər.

**18.6** Bütün *Milli Federasiyalar*, *Milli Federasiya* və ya onun üzv təşkilatı tərəfindən səlahiyyətləndirilmiş və ya təşkil edilmiş *yarış* və ya fəaliyyətdə iştirak etməyə hazırlaşan və ya iştirak edən bütün *idmançılardan* və bu cür *idmançılar* ilə əlaqəli bütün *idmançının köməkçi heyətindən* bu Antidopinq Qaydalarına riayət edəcəkləri barədə razılaşmanı və bu cür iştirakın şərti kimi *Məcəlləyə* uyğun olaraq *Antidopinq Təşkilatının nəticələrin emalı* səlahiyyətinə tabe olmalarını tələb edən qaydalar qəbul etməlidir.

**18.7** Bütün *Milli Federasiyalar*, antidopinq qayda pozuntusu şübhəsi və ya onunla əlaqədar hər hansı məlumatı *AMADA*-ya və öz Beynəlxalq Federasiyalarına bildirməlidirlər və təhqiqat aparmaq səlahiyyətinə malik olan hər hansı *Antidopinq Təşkilatı* tərəfindən aparılan təhqiqatlarla əməkdaşlıq etməlidirlər.

**18.8** Bütün *Milli Federasiyaların*, *qadağan edilmiş maddələrı* və ya *qadağan edilmiş üsulları istifadə* edən *idmançının köməkçi heyəti* tərəfindən *AMADA* və ya *Milli Federasiyanın* səlahiyyətinə tabe olan *idmançılara* dəstək göstərməsinin qarşısının alınması üçün intizam qaydaları olmalıdır.

**18.9** Bütün *Milli Federasiyalar*, AMADA ilə əməkdaşlıqda antidopinq *təhsilini* həyata keçirməlidirlər.

**18.10** Bütün *Milli Federasiyalar*, öz səlahiyyətləri çərçivəsində *idmançıların* öncədən bildirişsiz test edilməsi üçün *idmançıların* yerləşdiyi məkanlara *dopinq nəzarəti* rəsmilərinin dərhal və maneəsiz girişi və çıxışını təmin etməlidirlər və, tələb olunduqda, *dopinq nəzarəti* rəsmilərinin maneəsiz test etmələri üçün bütün zəruri şəraitin yaradılması üçün lazımi səylər göstərməlidirlər.

**18.11** Bütün *Milli Federasiyalar*, bu Antidopinq Qaydalarının yurisdiksiyası ilə əhatə edilən *yarışlarda* əldə olunmuş pul mükafatının, maddi və ya digər nemətlərin, o cümlədən medalların *AMADA*-nın və ya bu Antidopinq Qaydalarının 8-ci və 13-cü maddələrində müəyyən edilmiş qurumların qərarına uyğun olaraq antidopinq qayda

---

[76] *[18.2-ci maddəyə şərh: AMADA, AMADA-nın tanınmasının və bu Antidopinq Qaydalarının qəbulu və tətbiqinin Milli Federasiyaların dövlət büdcəsindən və (və ya) Milli Olimpiya Komitəsindən hər hansı maliyyə və (və ya) digər dəstəyin alması üçün ilkin şərt olmasının təmin edilməsində müvafiq dövlət qurumları və Milli Olimpiya Komitəsilə birlikdə çalışmalıdır.]*

pozuntu törətdiyi aşkarlanmış *idmançı* və ya digər *şəxs* tərəfindən geri qaytarılmasını təmin etməlidirlər.

**18.12** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları,* hər il rəsmi təsdiq edildikdən sonra yeddi (7) gün ərzində təqvim ili üçün milli yığmanın siyahısını redaktə edilə bilən formada (*AMADA* tərəfindən tələb edilən formadan asılı olaraq yazılı formada və ya rəqəmsal platforma vasitəsilə) *AMADA*-ya təqdim etməlidirlər. Təqvim ili ərzində milli yığma siyahısında baş verən hər hansı dəyişiklik barədə məlumatı (məs., *idmançının* qəbulu və ya xaric edilməsi), onun baş verməsi tarixindən yeddi (7) gün ərzində *AMADA*-ya təqdim etməlidirlər.

**18.13** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları,* hər ilin fevral ayının 1-nədək özlərinin təqvim ili üçün təsdiqlənmiş və (və ya) gözlənilən *milli əhəmiyyətli yarışlarının* siyahısını redaktə edilə bilən formada (*AMADA* tərəfindən tələb edilən formadan asılı olaraq yazılı formada və ya rəqəmsal platforma vasitəsilə) *AMADA*-ya təqdim etməlidirlər. Təqvim ili ərzində hər hansı dəyişiklik baş verdikdə, həmin *Milli Federasiyalar*, həmin dəyişikliyin baş verməsi tarixindən yeddi (7) gün ərzində *AMADA*-ya bu barədə məlumatı təqdim etməlidirlər, o şərtlə ki, ilk növbəti *milli əhəmiyyətli yarışın* tarixinə ən azı yeddi (7) gün qalmış olsun. Yanvar ayı və ya təqvim ili ərzində keçirilməsi nəzərdə tutulan və əvvəlcədən təsdiq edilməmiş, gözlənilməyən və ya barəsində *AMADA*-ya məlumat verilməyən hər hansı *milli əhəmiyyətli yarış* barədə məlumat, həmin *milli əhəmiyyətli yarışın* tarixinə ən azı yeddi (7) gün qalmış *AMADA*-ya təqdim edilməlidir.

**18.14** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları,* hər ilin fevral ayının 1-nədək özlərinin təqvim ili üçün təsdiqlənmiş və (və ya) gözlənilən təlim-məşq toplantılarının siyahısını (ünvan və tarixlər daxil olamaqla) redaktə edilə bilən formada (*AMADA* tərəfindən tələb edilən formadan asılı olaraq yazılı formada və ya rəqəmsal platforma vasitəsilə) *AMADA*-ya təqdim etməlidirlər. Təqvim ili ərzində hər hansı dəyişiklik baş verdikdə, həmin *Milli Federasiyalar*, həmin dəyişikliyin baş verməsi tarixindən yeddi (7) gün ərzində *AMADA*-ya bu barədə məlumatı təqdim etməlidirlər, o şərtlə ki, ilk növbəti təlim-məşq toplantısının tarixinə ən azı yeddi (7) gün qalmış olsun. Yanvar ayı və ya təqvim ili ərzində keçirilməsi nəzərdə tutulan və əvvəlcədən təsdiq edilməmiş, gözlənilməyən və ya barəsində *AMADA*-ya məlumat verilməyən hər hansı təlim-məşq toplantısı barədə məlumat belə, həmin təlim-məşq toplantısının tarixinə ən azı yeddi (7) gün qalmış *AMADA*-ya təqdim edilməlidir.

**18.15** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları, milli əhəmiyyətli yarışın* təşkilatçıları və ya məsul qurum olduqları təqdirdə, onlar yarışanların ilkin siyahısını (*start list*) və tədbir məkanı barədə məlumatı redaktə edilə bilən formada (*AMADA* tərəfindən tələb edilən formadan asılı olaraq yazılı formada və ya rəqəmsal platforma vasitəsilə) *milli əhəmiyyətli yarışın* tarixinə ən azı üç (3) gün qalmış *AMADA*-ya təqdim etməlidirlər. Əlavə olaraq, həmin *Milli Federasiyalar* həmin məkanda müvafiq *ÜADA*-nın *beynəlxalq standartına* uyğun olaraq müvafiq *dopinq nəzarəti* məntəqəsini hazırlamalıdırlar.

**Qeyd:** *idmançının* çəkisinin onun *milli əhəmiyyətli yarışda* iştirakı üçün həlledici meyar hesab edildiyi *prioritetləşdirilmiş idman növlərində,* 3 günlük qaydaya riayət emtək mümkün olmadığı təqdirdə yarışanların ilkin siyahısı (*start list*) barədə məlumatı müəyyənləşdirildikdən dərhal sonra *AMADA*-ya təqdim etməlidirlər.

**18.16** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları,* hər ilin fevral ayının 1-nədək həmin *Milli Federasiyanın* milli yığmasının hər hansı *idmançısının* təqvim ilində iştirak etməyi planlaşdırıldığı və ya gözlənildiyi *beynəlxalq tədbir* və ya *yarışların* siyahısını redaktə edilə bilən formada (*AMADA* tərəfindən tələb edilən formadan asılı olaraq yazılı formada və ya rəqəmsal platforma vasitəsilə) *AMADA*-ya təqdim etməlidirlər. Həmin *Milli Federasiyalar*, hər hansı *beynəlxalq tədbir* və ya *yarışda* iştirak üçün qeydiyyata alınmış və ya digər qaydada iştirakı təsdiqlənmiş *idmançıların* siyahısını həmin *beynəlxalq tədbir* və ya *yarışın* tarixinə ən azı yeddi (7) gün qalmış *AMADA*-ya təqdim etməlidirlər.

**18.17** *Prioritetləşdirilmiş idman növlərinin Milli Federasiyaları,* hərbi xidmətdə olan *idmançıların* siyahısını həmin hərbi xidmətinin başlanması tarixinə ən azı üç (3) gün qalmış *AMADA*-ya təqdim etməlidirlər.

**18.18** Bütün *Milli Federasiyalar*, *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupuna* və ya *Test Qrupuna* daxil olan *idmançıların* məkan məlumatını təqdim etmək üzrə *idmançıların* öhdəliyinə riayət etmələrini təmin etmək məqsədilə onlara müvafiq məlumatın çatdırılmasını təmin etməli və dəstək göstərməlidirlər.

**18.19** Bütün *Milli Federasiyalar*, *dopinq nəzarəti* zamanı təlim-məşq toplantısı ərazisindəki *nümunə toplama heyətinin* və ya *AMADA*-nın hər hansı səlahiyyətli şəxsinin tələbi ilə təlim-məşq toplantısı məkanında olan *idmançıların* siyahısını *AMADA*-ya təqdim etməlidirlər.

**18.20** Bütün *Milli Federasiyalar*, bütün *Milli Federasiyaların Məcəlləyə*, *beynəlxalq standartlara* və bu Antidopinq Qaydalarına riayət etmələrinin təmin edilməsi məqsədləri üçün *AMADA* tərəfindən başlanmış uyğunluq üzrə monitorinq fəaliyyətinə dair *AMADA*-nın bütün tələblərinə riayət etməli və onunla əməkdaşlıq etməlidirlər.

**18.21** *Milli Federasiyalar*, *Məcəllə* və bu Antidopinq Qaydalarına uyğun olaraq *şərti kənarlaşdırılmış* və ya *diskvalifikasiya* müddətində olan, habelə *Məcəllənin* yurisdiksiyasına daxil olmayan, lakin son altı il ərzində antidopinq qayda pozuntusu təşkil edən birbaşa və qəsd xarakterli əməl törətmiş *şəxslə* (antidopinq təhsil və reabilitasiya proqramları istisna olmaqla) dopinq nəzarəti, idman hazırlığı və ya ona dair tibbi xidmət sahəsi, nəzarət və ya idarəetmə funksiyasını yerinə yetirmək məqsədilə əmək və ya mülki xarakterli müqavilə bağlamamalıdırlar, və ya belə hal sonradan aşkarlandıqda, qanunvericiliklə nəzərdə tutulmuş qaydada bağlanmış müqaviləni ləğv etməlidirlər.

## MADDƏ 19 *AMADA-NIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ

**19.1** *Məcəllənin* 20.5-ci maddəsində təsvir edilən *Milli Antidopinq Təşkilatları* üçün rol və öhdəliklərə əlavə olaraq *AMADA Məcəllənin* 24.1.2-ci maddəsinə uyğun olaraq *AMADA*-nın *Məcəllə* və *beynəlxalq standartlara* uyğunluğu barədə *ÜADA*-ya hesabat verməlidir.

**19.2** Müvafiq qanunvericiliyə və *Məcəllənin* 20.5.10-cu maddəsinə uyğun olaraq *AMADA*-nın şura üzvləri, direktorları, inspektorları və *dopinq nəzarətinin* hər hansı aspektində iştirak edən əməkdaşları (və *Səlahiyyətləndirilmiş Üçüncü Şəxslərin* əməkdaşları) *AMADA*-nın təqdim etdiyi formanı imzalayaraq birbaşa və qəsdən edilmiş yanlış davranışa münasibətdə *Məcəllədə* müəyyən edilmiş *şəxslər* qismində Antidopinq Qaydalarına riayət etməyə razılaşmalıdırlar.

**19.3** Müvafiq qanunvericiliyə və *Məcəllənin* 20.5.11-ci maddəsinə uyğun olaraq *dopinq nəzarətində* iştirak edən *AMADA*-nın hər bir əməkdaşı (səlahiyyətləndirilmiş *Təhsil* və ya reabilitasiya proqramları istisna olmaqla) *şərti kənarlaşdırılmada* və ya *diskvalifikasiya* müddətində olmadıqlarını və son altı (6) il ərzində, onlara *Məcəllənin* yurisdiksiyası tətbiq olunacağı halda, antidopinq qayda pozuntusunu təşkil edən birbaşa və qəsd xarakterli əməl törətmədiklərini təsdiq edərək *AMADA* tərəfindən təqdim edilən bəyanatı imzalamalıdırlar.

## MADDƏ 20 *İDMANÇILARIN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ

**20.1** Antidopinq Qaydaları ilə tanış olmaq və onlara riayət etmək.

**20.2** Hər an *nümunələrin* toplanması üçün hazır olmaq.[77]

**20.3** Antidopinq kontekstində, qəbul və *istifadə* etdiklərinə görə məsuliyyət daşımaq.

**20.4** Tibbi heyəti *qadağan edilmiş maddələrin* və *qadağan edilmiş üsulların* istifadə edilməməsinə dair öhdəlikləri barədə məlumatlandırmaq və aldığı hər hansı tibbi müalicənin hazırki Antidopinq Qaydalarını pozmadığının təminatına görə məsuliyyət daşımaq.

**20.5** Son on (10) il ərzində *Məcəlləyə imza olmayan təşkilat* tərəfindən *idmançının* antidopinq qayda pozuntusunun aşkar edilməsi barədə hər hansı qərarı barədə məlumatı özünün Beynəlxalq Federasiyasına və *AMADA*-ya açıqlamaq.

**20.6** Antidopinq qayda pozuntularının təhqiqatını aparan *Antidopinq Təşkilatları* ilə əməkdaşlıq etmək.

**20.7** *AMADA* və ya *Milli Federasiya* və ya *idmançı* üzərində yurisdiksiyası olan hər hansı digər *Antidopinq Təşkilatı* tərəfindən tələb edilən müvafiq *idmançının köməkçi heyəti üzvlərinin* şəxsiyyətini açıqlamaq.

**20.8** Antidopinq qayda pozuntusu ilə əlaqədar *AMADA* və ya digər *Antidopinq Təşkilatının* qərarına əsasən geri qaytarılması tələb edilmiş pul mükafatlarını, maddi və ya digər nemətləri, habelə beynəlxalq və milli yarışlarda əldə edilmiş medalları geri qaytarmaq.

**20.9** *Dopinq nəzarəti* rəsmisinə və ya *dopinq nəzarətini* həyata keçirən digər *şəxsə* qarşı *idmançı* tərəfindən təhqiredici davranış *saxlataşdırma* kimi qiymətləndirilmədiyi hallarda müvafiq qanunvericiliyə əsasən intizam tədbirləri ilə nəticələnə bilər.

## MADDƏ 21 *İDMANÇININ KÖMƏKÇİ HEYƏTİNİN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ

**21.1** Antidopinq Qaydaları ilə tanış olmaq və onlara riayət etmək.

**21.2** *İdmançıların test edilməsi* proqramı ilə əməkdaşlıq etmək.

**21.3** Antidopinq münasibətlərini inkişaf etdirmək üçün *idmançının* dəyər və davranışlarına təsir etmək.

**21.4** Son on (10) il ərzində *Məcəlləyə imza olmayan təşkilat* tərəfindən onların antidopinq qayda pozuntusunun aşkar edilməsi barədə hər hansı qərarı barədə məlumatı özlərinin Beynəlxalq Federasiyasına və *AMADA*-ya açıqlamaq.

**21.5** Antidopinq qayda pozuntularının təhqiqatını aparan *Antidopinq Təşkilatları* ilə əməkdaşlıq etmək.

**21.6** *İdmançının köməkçi heyəti* etibarlı əsaslandırma olmadan *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan istifadə edə* və ya onlara *sahib* ola bilməz.

**21.7** *Dopinq nəzarəti* rəsmisinə və ya *dopinq nəzarətini* həyata keçirən digər *şəxsə* qarşı *idmançının köməkçi heyəti* tərəfindən təhqiredici davranış *saxlataşdırma* kimi qiymətləndirilmədiyi hallarda müvafiq qanunvericiliyə əsasən intizam tədbirləri ilə nəticələnə bilər.

## MADDƏ 22 HAZIRKİ ANTİDOPİNQ QAYDALARINA TABE OLAN DİGƏR *ŞƏXSLƏRİN*

[77] *[20.2-ci maddəyə şərh: İdmançının insan hüquqları və şəxsi həyatı nəzərə alınaraq, qanuni antidopinq məqsədləri bəzi hallarda gecə və ya səhər tez saatlarında nümunə toplanmasını tələb edir. Məsələn, məlumdur ki, bəzi idmançılar səhər aşkar edilməməsi üçün gecə saatlarında aşağı dozalarda eritropoitein (EPO) istifadə edirlər.]*

**ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ**

**22.1** Bu Antidopinq Qaydaları ilə tanış olmaq və onlara riayət etmək.

**22.2** Son on (10) il ərzində *Məcəlləyə imza olmayan təşkilat* tərəfindən onların antidopinq qayda pozuntusunun aşkar edilməsi barədə hər hansı qərarı barədə məlumatı özlərinin Beynəlxalq Federasiyasına və *AMADA*-ya açıqlamaq.

**22.3** Antidopinq qayda pozuntularının təhqiqatını aparan *Antidopinq Təşkilatları* ilə əməkdaşlıq etmək.

**22.4** Etibarlı əsaslandırma olmadan *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan istifadə* etməmək və ya ona *sahib* olmamaq.

**22.5** *Dopinq nəzarəti* rəsmisinə və ya *dopinq nəzarətini* həyata keçirən digər *şəxsə* qarşı *şəxs* tərəfindən təhqiredici davranış *saxlataşdırma* kimi qiymətləndirilmədiyi hallarda müvafiq qanunvericiliyə əsasən intizam tədbirləri ilə nəticələnə bilər.

## MADDƏ 23 *MƏCƏLLƏNİN* ŞƏRHİ

**23.1** *Məcəllənin* rəsmi mətni *ÜADA* tərəfindən saxlanmalı və ingilis və fransız dillərində çap olunmalıdır. İngilis və fransız dillərində olan redaksiyalar arasında ziddiyyət yarandıqda, ingilis dilində olan redaksiyaya üstünlük verilməlidir.

**23.2** *Məcəllənin* müxtəlif müddəalarına şərhlər *Məcəllənin* təfsiri üçün istifadə edilməlidir.

**23.3** *Məcəllə* dövlətlərin və ya *Məcəlləni imzalayan təşkilatların* mövcud qanunlarına və ya əsasnamələrinə istinad edilmədən müstəqil qaydada və avtonom mətn kimi təfsir olunmalıdır.

**23.4** *Məcəllənin* müxtəlif hissələri və maddələri üçün istifadə olunan başlıqlar yalnız asanlıq məqsədini daşıyır və *Məcəllənin* mahiyyətinin bir hissəsi hesab edilməməli və ya istinad etdikləri müddəaların məğzinə heç bir halda təsir göstərməməlidir.

**23.5** *Məcəllə* və ya *beynəlxalq standartda* istifadə edilən "gün" anlayışı başqa hal nəzərdə tutulmadığı halda, təqvim günləri hesab edilməlidir.

**23.6** *Məcəllə Məcəlləni imzalayan təşkilat* tərəfindən qəbul edildiyi və həmin təşkilatın qaydalarında tətbiq olunduğu tarixdən əvvəl mövcud olan məsələlərə retroaktiv qaydada tətbiq edilməməlidir. Lakin, *Məcəllənin* qəbul edilməsindən əvvəl baş vermiş antidopinq qayda pozuntuları *Məcəllənin* qəbul edilməsindən sonra baş vermiş pozuntular üçün 10-cu maddədə nəzərdə tutulan sanksiyaların müəyyən edilməsi məqsədləri üçün "ilk pozuntu" və ya "ikinci pozuntu" kimi hesab edilməlidir.

**23.7** Ümumdünya Antidopinq Proqramının və *Məcəllənin* məqsədi, əhatə dairəsi və təşkil edilməsi və Əlavə 1 (Anlayışlar) *Məcəllənin* ayrılmaz hissəsi hesab edilməlidir.

## MADDƏ 24 YEKUN MÜDDƏALAR

**24.1** Antidopinq Qaydalarında istifadə edilən "gün" anlayışı başqa hal nəzərdə tutulmadığı halda, təqvim günləri hesab edilməlidir.

**24.2** Hazırki Antidopinq Qaydaları mövcud qanunvericiliyə və ya əsasnamələrə istinad edilmədən müstəqil qaydada və avtonom mətn kimi təfsir olunmalıdır.

**24.3** Hazırki Antidopinq Qaydaları *Məcəllənin* və *beynəlxalq standartların* tətbiq ediləcək müddəalarına uyğun olaraq qəbul edilmişdir və *Məcəllənin* və *beynəlxalq standartların* tətbiq ediləcək müddəaları ilə uyğun qaydada şərh edilməlidir. *Məcəllə* və *beynəlxalq standartlar* hazırki Antidopinq Qaydalarının ayrılmaz hissələri hesab edilməlidirlər və ziddiyyət yarandıqda üstünlük təşkil etməlidirlər.

**24.4** Giriş və Əlavə 1 hazırki Antidopinq Qaydalarının ayrılmaz hissəsi hesab edilməlidir.

**24.5** Hazırki Antidopinq Qaydalarının müxtəlif müddəalarına şərhlər Antidopinq Qaydalarının təfsiri üçün istifadə edilməlidir.

**24.6** Hazırki Antidopinq Qaydaları 1 yanvar 2021-ci il tarixindən etibarən qüvvəyə minir ("qüvvəyə minmə tarixi"). Onlar *AMADA*-nın Antidopinq Qaydalarının əvvəlki redaksiyasını ləğv edirlər.

**24.7** Hazırki Antidopinq Qaydaları qüvvəyə minmə tarixindən əvvəl mövcud olan məsələlərə, aşağıdakılar nəzərə alınmaqla, retroaktiv qaydada tətbiq edilməməlidir:

**24.7.1** Qüvvəyə minmə tarixindən əvvəl baş vermiş antidopinq qayda pozuntuları qüvvəyə minmə tarixindən sonra baş vermis pozuntular üçün 10-cu maddədə nəzərdə tutulan sanksiyaların müəyyən edilməsi məqsədləri üçün "ilk pozuntu" və ya "ikinci pozuntu" kimi hesab edilir.

**24.7.2** Qüvvəyə minmə tarixinədək yekunlaşmayan antidopinq qayda pozuntusu üzrə mübahisələrə və qüvvəyə minmə tarixindən əvvəl baş vermiş lakin qüvvəyə minmə tarixindən sonra başlanmış mübahisələrə, dinləmə qrupu tərəfindən həmin mübahisənin hallarına "lex mitior" prinsipinin tətbiq edilməsi müəyyən edilən hallar istisna olmaqla, hazırki Antidopinq Qaydalarının substantiv müddəaları deyil, iddia edilən antidopinq qayda pozuntusunun baş verdiyi zaman qüvvədə olan Antidopinq Qaydalarının substantiv müddəları tətbiq edilməlidir. Bu məqsədlə, 10.9.4-cü maddəyə əsasən əvvəlki pozuntuların çoxsaylı pozuntular kimi hesab edilməsi nəzərdə tutulan retroaktiv müddətlər və 16-cı maddədə göstərilən iddia müddətləri substantiv müddəalar deyil, prosedur müddəalardır və hazırki Antidopinq Qaydalarında nəzərdə tutulan digər prosedur müddəaları ilə birlikdə retroaktiv qaydada tətbiq edilməlidirlər (o şərtlə ki, 16-cı maddənin retroaktiv qaydada tətbiq edilməsi üçün iddia müddəti qüvvəyə minmə tarixinədək bitməmiş olsun).

**24.7.3** Qüvvəyə minmə tarixindən əvvəl 2.4-cü maddəyə uyğun olaraq baş vermiş hər hansı məkan məlumatı pozuntusu (*Nəticələrin emalı* üzrə *beynəlxalq standartda* müəyyən edilən anlayışlar - məkan məlumatının təqdim edilməməsi və ya buraxılmış test) təqib edilməlidir və o, *Nəticələrin emalı* üzrə *beynəlxalq standarta* uyğun olaraq müddətinin bitməsinədək hesablana bilər, lakin hər bir halda baş verdiyi andan etibarən on iki (12) ay sonra bitmiş hesab edilməlidir.

**24.7.4** Antidopinq qayda pozuntusunun baş verməsini təsdiq edən yekun qərar qüvvəyə minmə tarixindən öncə qəbul olunduğu, lakin *idmançı* və ya *digər şəxs* qüvvəyə minmə tarixində və ondan sonra *diskvalifikasiya* müddətində olduğu təqdirdə, *idmançı* və ya *digər şəxs* hazırki Antidopinq Qaydalarının çərçivəsində *diskvalifikasiya* müddətinin azaldılması üçün *AMADA*-ya, və ya onun üzərində *Nəticələrin emalı* səlahiyyəti olan digər *Antidopinq Təşkilatına* müraciət edə bilər. Həmin müraciət *diskvalifikasiya* müddətinin bitməsindən öncə olunmalıdır. Bununla bağlı verilən qərardan 13.2-ci maddəyə əsasən apellyasiya qaydasında şikayət verilə bilər. Hazırki Antidopinq Qaydaları antidopinq qayda pozuntusunun baş verməsi barədə yekun qərarı verilmiş və *diskvalifikasiya* müddəti bitmiş mübahisələrə tətbiq edilə bilməz.

**24.7.5** Birinci pozuntu üzrə *diskvalifikasiya* müddəti qüvvəyə minmə tarixindən əvvəl qüvvədə olan qaydalara əsasən müəyyən edildikdə, hazırki Antidopinq Qaydalarının 10.9.1-ci maddəsinə uyğun olaraq ikinci pozuntu üzrə *diskvalifikasiya* müddətinin qiymətləndirilməsi məqsədləri üçün, qüvvəyə minmə tarixindən əvvəl baş vermiş birinci antidopinq qayda

pozuntusunun *diskvalifikasiya* müddətinin qiymətləndirilməsi hazırki Antidopinq Qaydalarının müddəalarına əsasən həyata keçirilməlidir.[78]

**24.7.6** *Qadağan edilmiş siyahıdakı* maddə və üsullara münasibətdə *qadağan edilmiş siyahı* və *texniki sənədlərə* edilən dəyişikliklər, digər hal nəzərdə tutulmadıqda, retroaktiv qaydada tətbiq edilə bilməz. İstisna olaraq, *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul Qadağan edilmiş siyahıdan* çıxarıldığı halda, həmin *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsula* görə *diskvalifikasiyaya* məruz qalmış *idmançı* və ya digər *şəxs* maddə və ya üsulun *Qadağan edilmiş siyahıdan* çıxarılması nəticəsində *diskvalifikasiya* müddətinin azaldılması üçün *AMADA*-ya və ya onun üzərində *Nəticələrin emalı* üzrə səlahiyyətə malik digər *Antidopinq Təşkilatına* müraciət edə bilər.

[78] *[24.7.5-ci maddəyə şərh: 24.7.5-ci maddədə göstərilən hal, yəni antidopinq qayda pozuntusu ilə bağlı yekun qərar qüvvəyə minmə tarixindən öncə qəbul edildiyi və tətbiq edilən diskvalifikasiya müddəti başa çatdığı hal istisna olmaqla, hazırki Antidopinq Qaydaları əvvəlki pozuntulara yenidən hüquqi qiymət vermək üçün istifadə edilə bilməz.]*

## ƏLAVƏ 1 ANLAYIŞLAR[79]

*ADAMS (ADAMS)*: Antidopinq İnzibatçılıq və İdarəetmə Sistemi maraqlı tərəflər və *ÜADA* üçün məlumatların qorunması üzrə qanunvericiliyi və antidopinq əməliyyatlarının aparılmasını təmin etmək məqsədilə yaradılmış məlumatların daxil edilməsi, saxlanılması, mübadiləsi və hesabat verilməsi üçün veb əsaslı idarəetmə vasitəsidir.

*Tətbiq etmək (Administration)*: *Qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun* digər *şəxs* tərəfindən *istifadəsində* və ya *istifadə cəhdində* iştirak etmək, bunun üçün onu təmin etmək, təchiz etmək, ona nəzarət etmək və ya dəstək göstərmək. Lakin, bu anlayış tibb heyətin həqiqi və qanuni terapevtik və ya digər əsaslandırılmış məqbul hesab edilən məqsədlər üçün atılmış vicdanlı əməllərini (actions of *bona fide*) və *yarışdan kənar müddət testində* qadağan edilməyən *qadağan edilmiş maddələrlə* bağlı əməlləri ehtiva etməməlidir, o halda ki məsələ ümumilikdə *qadağan edilmiş maddənin* idman göstəricilərinin artırılması məqsədini daşımaması və ya həqiqi və qanuni terapevtik məqsədlər üçün nəzərdə tutulmasını göstərmiş olsun.

*Qeyri-əlverişli Analiz Nəticəsi (Adverse Analytical Finding)*: *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriya və ya *ÜADA* tərəfindən təsdiq edilmiş laboratoriya tərəfindən Laboratoriyalar üzrə *beynəlxalq standarta* uyğun olaraq *Qadağan edilmiş maddənin* və ya onun *metabolitlərinin* və ya *markerlərinin nümunədə* mövcudluğunu və ya *qadağan edilmiş üsulun istifadəsi* sübutunu təsbit edən hesabat.

*Qeyri-əlverişli Pasport Nəticəsi (Adverse Passport Finding)*: Müvafiq *beynəlxalq standartlara* uyğun olaraq *Qeyri-əlverişli Pasport Nəticəsi* kimi müəyyən edilmiş hesabat.

*Ağırlaşdırıcı hallar (Aggravating Circumstances)*: Standard sanksiyadan artıq *diskvalifikasiya* müddətinin tətbiq edilməsinə əsas verən *idmançı* və ya digər *şəxs* ilə əlaqəli hallar və ya əməllər. Bu hallara və əməllərə (lakin bunlarla məhdudlaşmayan) daxildir: *idmançı* və ya digər *şəxs* bir neçə *qadağan edilmiş maddələri* və ya *qadağan edilmiş üsulları istifadə etmiş* və ya onlara *sahib olmuş, qadağan edilmiş maddəni* və ya *qadağan edilmiş üsulu* bir neçə hallarda *istifadə etmiş* və ya ona *sahib olmuş* və ya bir neçə digər antidopinq qayda pozuntularını törətmişdir; adi fərdin antidopinq qayda pozuntusu və ya pozuntuları nəticəsində göstəricilərin artırılması təsirindən tətbiq ediləcək *diskvalifikasiya* müddətindən sonra yararlanmaq ehtimalına malik olması; *idmançı* və ya digər *şəxs* antidopinq qayda pozuntusunun aşkarlanmasının və ya mühakimə edilməsinin qarşısının alınması üçün aldadıcı və ya maneəvi davranışa əl atmışdır; və ya *idmançı* və ya digər *şəxs nəticələrin emalı* zamanı *saxtalaşdırmaya* əl atmışdır. Şübhələrin olmaması üçün, burada təsvir edilən halların və əməllərin nümunələri müstəsna deyildir və digər belə oxşar hallar və ya əməllər *diskvalifikasiyanın* daha uzun müddətə tətbiq edilməsinə əsas verə bilər.

*AMAAK (AMAAK)*: Azərbaycan Milli Antidopinq Apellyasiya Komitəsi.

*AMADA (AMADA)*: Azərbaycan Milli Antidopinq Agentliyi.

*AMAİK (AMAIK)*: Azərbaycan Milli Antidopinq İntizam Komitəsi.

*AMATİİK (AMATIIK)*: Azərbaycan Milli Antidopinq Terapevtik İstifadəyə İcazə Komitəsi.

*Antidopinq fəaliyyəti (Anti-Doping Activities)*: Antidopinq *təhsil* və məlumatlandırma, test bölüşüdürülmə planı, *Qeydiyyata alınmış Test Qrupunun* həyata keçirilməsi, *İdmançının Bioloji Pasportlarının* idarə edilməsi, *test etmənin* həyata keçirilməsi, *nümunələrin* analizinin təşkili, məlumat toplanması və təhqiqatların aparılması, *TİI* müraciətlərinin idarə edilməsi, *nəticələrin emalı*, tətbiq edilmiş *sanksiyalara* uyğunluğun təmin olunması üzrə tədbirlərin görülməsi və monitorinqi və *Məcəllə* və (və ya) *beynəlxalq standartlarda* nəzərdə tutulmuş qaydada *Antidopinq Təşkilatı* və ya onun adından çıxış edən təşkilatın antidopinqlə bağlı digər fəaliyyəti.

*Antidopinq Təşkilatı (Anti-Doping Organization)*: *ÜADA* və ya *dopinq nəzarəti* prosesinin hər hansı hissəsinin başlanması, yerinə yetirilməsi və ya təmin edilməsi üçün qaydaların qəbul edilməsi üzrə

---

[79] *[Anlayışlara şərh: Anlayışları verilən terminlərə onların tək və cəm formaları, eləcə də digər nitq hissələri kimi istifadə olunan terminlər aiddir.]*

cavabdehlik daşıyan *Məcəlləyə imza təşkilatı*. Bura, məsələn, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi, *tədbirlərində test etməni* həyata keçirən digər *Əsas Tədbir Təşkilatçısı*, Beynəlxalq Federasiyalar və *Milli Antidopinq Təşkilatları* daxildir.

*İdmançı (Athlete)*: Beynəlxalq səvviyədə (hər bir Beynəlxalq Federasiya tərəfindən nəzərdə tutulmuş qaydada) və ya milli səviyyədə (hər bir *Milli Antidopinq Təşkilatı* tərəfindən nəzərdə tutulmuş qaydada) idmanda yarışan hər hansı *şəxs*. *Anitdopinq Təşkilatının* nə *beynəlxalq səviyyəli idmançı*, nə də *milli səviyyəli idmançı* hesab edilməyən *idmançıya* Antidopinq Qaydalarını tətbiq etmək və onu "*idmançı*" kateqoriyasına aid etmək mülahizəsi vardır. Nə *beynəlxalq səviyyəli idmançı*, nə də *milli səviyyəli idmançı* hesab edilməyən *idmançılarla* bağlı *Anitdopinq Təşkilatı* növbəti qərarları qəbul edə bilər: məhdud *testin edilməsi* və ya heç bir *testin edilməməsi*, *nümunələrin qadağan edilmiş maddələrin* natamam siyahısı üçün analiz edilməsi, məkan məlumatının məhdud qaydada tələb edilməsi və ya tamamilə tələb edilməməsi, və ya *TİI*-lərin əvvəlcədən tələb edilməməsi. Lakin, *Antidopinq Təşkilatı* tərəfindən *test edilən* və beynəlxalq və ya milli səviyyədən aşağı səviyyədə yarışan hər hansı *idmançı* tərəfindən 2.1-ci, 2.3-cü və 2.5-ci maddələri ilə müəyyən edilmiş anitdopinq qayda pozuntusu törədildikdə, *Məcəllədə* müəyyən edilmiş *sanksiyalar* tətbiq edilməlidir. 2.8-ci və 2.9-cu maddələrinin və antidopinq məlumatlandırılma və *təhsil* məqsədləri üçün *Məcəlləni* qəbul edən hər hansı *Məcəlləyə imza təşkilatının*, dövlətin və ya digər idman təşkilatının səlahiyyətinə aid edilən idmanda istirak edən hər hansı *şəxs idmançı* hesab edilir.[80]

*İdmançının Bioloji Pasportu (Athlete Biological Passport)*: *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* və Laboratoriyalar üzrə *beynəlxalq standarta* uyğun olaraq məlumatların toplanması və cəmləşdirilməsi üçün proqram və üsullar.

*İdmançının köməkçi heyəti (Athlete Support Personnel)*: idman *yarışında* iştirak edən və ya ona hazırlaşan *idmançı* ilə işləyən, onu müalicə edən və ya ona kömək edən hər hansı məşqçi, təlimçi, menecer, agent, komanda üzvü, vəzifəli şəxs, tibb işçisi, valideyn və ya hər hansı digər *şəxs*.

*Cəhd (Attempt)*: Antidopinq qayda pozuntusunun törədilməsi ilə başa çatması planlaşdırılan davranışda əhəmiyyətli addım təşkil edən məqsədli davranış. Lakin, həmin *cəhdlə* əlaqəsi olamayan üçün şəxs tərəfindən həmin *cəhdin* aşkarlanmasından əvvəl həmin *şəxs cəhddən* imtina etdikdə, bu zaman yalnız pozuntunun törədilməsinə *cəhd* antidopinq qayda pozuntusu hesab edilməməlidir.

*Atipik Nəticə (Atypical Finding)*: *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriya və ya *ÜADA* tərəfindən təsdiq edilmiş laboratoriya tərəfindən Laboratoriyalar üzrə *beynəlxalq standarta* və ya əlaqəli *texniki sənədə* uyğun olaraq *Qeyri-əlverişli Analiz Nəticəsinin* müəyyən edilməsindən əvvəl təhqiqatın aparılmasını tələb edən hesabat.

*Atipik Pasport Nəticəsi (Atypical Passport Finding)*: Müvafiq *beynəlxalq standartlara* uyğun olaraq *Atipik Pasport Nəticəsi* kimi müəyyən edilmiş hesabat.

*İAM (CAS)*: İdman Arbitraj Məhkəməsi.

*Məcəllə (Code)*: Ümumdünya Antidopinq Məcəlləsi.

*Yarış (Competition)*: Tək yarış, qarşılaşma, oyun və ya tək idman müsabiqəsi. Məsələn, basketbol oyunu və ya Olimpiya oyunlarında atletika üzrə 100 metr məsafədə yarışın finalı. Mükafatların gündəlik və ya digər müvəqqəti əsasında təltif edildiyi çoxmərhələli yarışlar digər idman müsabiqələrində *yarış* və *tədbir* arasında fərq müvafiq Beynəlxalq Federasiyanın qaydaları ilə müəyyən edilir.

*Anitdopinq Qayda Pozuntularına görə sanksiyalar ("sanksiyalar") (Consequences of Anti-Doping Rule Violations* ("*Consequences*")): *İdmançı* və ya digər *şəxs* tərəfindən antidopinq qaydasının

---

80 *[İdmançıya şərh: İdmanla məşğul olan şəxslər aşağıdakı beş (5) kateroqriyadan birinə aid ola bilər: 1) beynəlxalq səviyyəli idmançı, 2) milli səviyyəli idmançı, 3) beynəlxalq və ya milli səviyyəli idmançı olmayan, lakin Beynəlxalq Federasiya və ya Milli Antidopinq Təşkilatı üzərində öz səlahiyyətini həyata keçirməyi seçdiyi şəxs, 4) Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs, və 5) Beynəlxalq Federasiya və ya Milli Antidopinq Təşkilatı üzərində öz səlahiyyətini həyata keçirən və ya keçirməyi seçdiyi şəxs. Bütün beynəlxalq və milli səviyyəli idmançılar milli və beynəlxalq səviyyəli idmanın dəqiq anlayışının Milli Antidopinq Təşkilatlarının və Beynəlxalq Federasiyaların antidopinq qaydalarında göstərilməklə Məcəllənin antidopinq qaydalarına tabedir.]*

pozulması növbəti bir və ya bir neçəsi ilə nəticələnə bilər: (a) Nəticələrin ləğvi – medalların, xalların və mükafatların geri qaytarılması daxil olmaqla, *sanksiyalarla* nəticələnəcək *idmançının* müvafiq *yarışda* və ya *tədbirdə* əldə etdiyi nəticələri etibarsız hesab edilir; (b) Diskvalifikasiya – 10.14-cü maddədə nəzərdə tutulmuş qaydada *idmançı* və ya digər *şəxs* tərəfindən törədilən antidopinq qayda pozuntusuna görə müəyyən müddətə hər hansı *yarışda* iştirak etmək və ya digər fəaliyyətlə məşğul olmaq və ya maliyyələşdirilmək qadağan edilir; (c) Şərti kənarlaşdırılma – 8-ci maddədə nəzərdə tutulmuş qaydada keçirilən dinləmə zamanı yekun qərarın verilməsinədək *idmançı* və ya digər *şəxsin* müvəqqəti hər hansı *yarışda* iştirak etməsi və ya fəaliyyətlə məşğul olmaq qadağan edilir; (d) Maliyyə sanksiyası – antidopinq qayda pozuntusuna görə maliyyə sanksiyasının tətbiq edilməsi və ya antidopinq qayda pozuntusu ilə əlaqədar çəkilmiş xərclərin ödənilməsi; və (e) İctimaiyyətə açıqlama – geniş ictimaiyyətə və ya 14-cü maddəyə əsasən əvvəlcədən bildiriş almaq hüququ olan *şəxslərdən* başqa digər *şəxslərə* məlumatın paylaşılması və ya yayılması. *Komanda idman növlərində* komandalar həmçinin 11-ci maddəyə əsasən *sanksiyaya* məruz qala bilərlər.

*Kontaminasiyaya uğramış məhsul (Contaminated Product)*: Üzərində qeyd edilməyən və ya ağlabatan internet axtarış vasitəsilə aşkarlanmayan tərkibində *qadağan edilmiş maddə* olan məhsul.

*Qərar limiti (Decision Limit)*: *Nümunədə* aşağı həddi olan maddələr üçün nəticə dəyəri. Bu dəyərdən yuxarı Laboratoriyalar üzrə *beynəlxalq standartda* müəyyən edilmiş qaydada *Qeyr-əlverişli Analiz Nəticəsi* hesabatı verilir.

*Səlahiyyətləndirilmiş Üçüncü Şəxs (Delegated Third Party)*: *AMADA* üçün *nümunə* toplanmasını və ya digər *dopinq nəzarəti* xidmətlərini və ya anitdopinq *təhsil* proqramlarını həyata keçirən üçüncü şəxslər və ya *Antidopinq Təşkilatları*, və ya *AMADA* üçün *dopinq nəzarəti* xidmətlərini həyata keçirən müstəqil subpodratçılar kimi çıxış edən fərdlər (məsələn *AMADA*-nın işçisi olmayan *dopinq nəzarəti* insektorları və ya şaperonları) daxi olmaqla, *AMADA* tərəfindən *dopinq nəzarəti* və ya antidopinq *təhsil* proqramlarının hər hansı hissəsi həvalə edilmiş hər hansı *şəxs*.

*Nəticələrin ləğvi (Disqualification)*: Yuxarıda qeyd edilmiş *Antiopdinq Qayda Pozuntularına görə sanksiyalarla* tənizmlənir.

*Dopinq nəzarəti (Doping Control)*: *testin edilməsi,* təhqiqatlar, məkan məlumtları, *TİƏ*-lər, *nümunələrin* toplanması və onlarla davranışı, laboratoriya tədqiqatları, *nəticələrin emalı*, və 10.14-cü maddə ilə nəzərdə tutulmuş pozuntularla bağlı (*şərti kənarlaşdırılma* və ya *diskvalifikasiya* zamanı status) aparılan təhqiqatlar və ya dinləmələr daxil olmaqla, lakin bunlarla məhdudlaşdırılmayan testin bölüşdürülməsinin planlaşdırılmasından apellyasiya şikayətləri və *sanksiyaların* icrasınadək daxil olan bütün addım və proseslər.

*Təhsil (Education)*: İdman ruhunun qorunması və inkişaf etdirilməsi və qəsdli və bilaixtiyari dopinqin qarşısının alınması məqsədilə dəyərlərə və davranışlara yiyələnmək üçün öyrənmə prosesi.

*Tədbir (Event)*: Bir qurumun hakimliyi altında həyata keçirilmiş bir sıra fərdi *yarışlar* (məsələn, Olimpiya Oyunları, Beynəlxalq Federasiyanın Dünya Çempionatları və ya Pan-Amerika Oyunları).

*Tədbir müddəti (Event Period)*: *Tədbirin* hakim qurumu tərəfindən müəyyən edilmiş *tədbirin* başlanması və bitməsi arasındaki vaxt.

*Tədbir yerləri (Event Venues)*: *Tədbirin* hakim qurumu tərəfindən təyin edilmiş yerlər.

*Təqsir (Fault)*: *Təqsir* müəyyən vəziyyətə müvafiq olaraq öhdəliyin pozulması və ya hər hansı ehtiyatsız davranış deməkdir. *İdmançı* və ya digər *şəxsin təqsirinin* dərəcəsinin qiymətləndirilməsində nəzərə alınmalı amillərə məsələn, *idmançı* və ya digər *şəxsin* təcrübəsi, *idmançı* və ya digər *şəxsin qorunan şəxs* olub-olmaması, zədə kimi xüsusi hallar, *idmançı* tərəfindən risk dərəcəsinin anlaması və *idmançı* tərəfindən risk dərəcəsinin anlaması ilə əlaqədar *idmançının* göstərdiyi ehtiyat və təhqiqat səviyyəsi daxildir. *İdmançı* və ya digər *şəxsin təqsirinin* dərəcəsinin qiymətləndirilməsində nəzərə alınan hallar xüsusi və əhəmiyyətli olmalıdır ki, *idmançı* və ya digər *şəxs* tərəfindən gözlənilən davranış standartından yayınma izah edilə bilinsin. Belə ki, məsələn, *idmançı diskvalifikasiya* müddətində xeyli həcmdə pul qazanmaq imkanını itirəcəyi faktı, və ya *idmançının* karyerasında və ya idman təqviminində qısa vaxtın qalması faktı 10.6.1-ci və ya 10.6.2-

ci maddələrə uyğun olaraq *diskvalifikasiya* müddətinin azaldılmasında nəzərə alınmalı əhəmiyyətli amil deyil.[81]

*Maliyyə sanksiyaları (Financial Consequences)*: Yuxarıda qeyd edilmiş *Antiopdinq Qayda Pozuntularına görə sanksiyalarla* tənizmlənir.

*Yarış müddəti (In-Competition)*: *İdmançının* iştirak edəcəyi *yarışdan* əvvəlki bir gün saat 23:59-dan başlayan və *yarışın* və həmin *yarışla* əlaqədar *nümunə* toplanması prosesinin bitdiyi anadək olan müddət. Lakin, müəyyən idman növləri üçün alternativ anlayış *ÜADA* tərəfindən təsdiq edilə bilər, o halda ki, Beynəlxalq Federasiya fərqli anlayışın onun idman növünə tətbiq edilməsi zərurətini əsaslandırsın. *ÜADA* tərəfindən təsdiq edildikdən sonra alternativ anlayış həmin idman növü üzrə *Əsas Tədbir Təşkilatçısı* tərəfindən riayət edilməlidir.[82]

*Müstəqil Müşahidəçi Proqramı (Independent Observer Program)*: *ÜADA*-nın uyğunluq üzrə monitorinq proqramı çərçivəsində *ÜADA*-nın nəzarəti altında fəaliyyət göstərən müəyyən *tədbirlər* zamanı və ya *tədbirlərdən* əvvəl *dopinq nəzarəti* prosesini müşahidə edən və məsləhət verən, habelə müşahidələri əsasında hesabat verən müşahidəçilər və (və ya) auditorlar qrupu.

*Fərdi idman növü (Individual Sport)*: *Komanda idman növü* olmayan hər hansı idman növü.

*Diskvalifikasiya (Ineligibility)*: Yuxarıda qeyd edilmiş *Antiopdinq Qayda Pozuntularına görə sanksiyalarla* tənizmlənir.

*İnstitusional müstəqillik (Institutional Independence)*: Apellyasiya üzrə dinləmə qrupları *nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatından* institusional cəhətdən tam müstəqil olmalıdırlar. Onlar heç bir halda *nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatı* tərəfindən idarə edilməməli, onunla əlaqəli olmamalı və onun səlahiyyətinə aid edilməməlidir.

*Beynəlxalq tədbir (International Event)*: Beynəlxalq Olimpiya Komitəsinin, Beynəlxalq Paralimpiya Komitəsinin, Beynəlxalq Federasiyanın, *Əsas Tədbir Təşkilatçısının* və ya digər beynəlxalq idman təşkilatının hakim olduğu və ya texniki rəsmiləri təyin etdiyi *tədbir* və ya *yarış.*

*Beynəlxalq səviyyəli idmançı (International-Level Athlete)*: *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq hər bir Beynəlxalq Federasiya tərəfindən müəyyən edilən beynəlxalq səviyyədə idmanda yarışan *idmançı*.[83]

*Beynəlxalq standart (International Standard)*: *ÜADA* tərəfindən Məcəllənin dəstəklənməsi üçün qəbul edilmiş standart. *Beynəlxalq standarta* (digər alternativ standarta, təcrübəyə və ya prosedura riayətin əksi olaraq) riayət *beynəlxalq standart* tərəfindən müəyyən edilmiş prosedurların lazımi qaydada icra edilməsini hesab etmək üçün yetərlidir. *Beynəlxalq standartlar*, onların əsasında dərc edilən hər hansı *texniki sənədləri* daxil etməlidir.

---

[81] *[Təqsirə şərh: İdmançının təqsir dərəcəsinin qiymətləndirilmə meyarı, təqsirin nəzərə alınması olan bütün maddələrdə eynidir. Buna baxmayaraq,10.6.2-ci maddə altında sanksiyanın azaldılmasına, təqsirin dərəcəsinin qiymətləndirilməsi zamanı idmançı və ya digər əlaqəli şəxsin qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlığa yol verməsi ilə bağlı nəticəyə gəlindiyi hal istisna olmaqla, icazə verilmir.]*

[82] *[Yarış müddətinə şərh: "Yarış müddətində"nin hamı tərəfindən vahid anlayışının qəbul edilməsi bütün idman növləri üzrə çıxış edən idmançılar arasında daha çox uyğunlaşmanı, harmonizasiyanı təmin edir, yarış müddətində testin edilməsi ilə bağlı məqbul zaman çərçivəsi ilə bağlı idmançılar arasında çaşqınlığı, anlaşılmazlığı azaldır və ya aradan qaldırır, yarışlar arasında tədbir çərçivəsində qəsdən törədilməyən Qeyri-əlverişli Analiz Nəticələrinin qarşısını alır və yarışdan kənar müddətdə qadağan edilmiş maddələrdən yarış müddətində idman göstəricilərinin artırılması üçün istifadəsinin qarşısını almağa kömək edir.]*

[83] *[Beynəlxalq səviyyəli idmançıya şərh: Test etmə və təhqiqatlar üzrə beynəlxalq standarta uyğun olaraq, Beynəlxalq Federasiya beynəlxalq səviyyəli idmançıları təsnifləşdirmək üçün istifadə edəcəyi meyarları müəyyən etməkdə sərbəstdir, məsələn, sıralamaya görə, xüsusi beynəlxalq tədbirlərdə iştiraka görə, verilən lisenziyaya görə və s. Lakin, idmançıların nə zaman beynəlxalq səviyyəli idmançı kimi təsnif olunacaqlarını qısa zaman ərzində və asanlıqla müəyyənləşdirmələri üçün Beynəlxalq Federasiya meyarları aydın və dəqiq formada dərc etməlidir. Məsələn, meyarlara müəyyən beynəlxalq tədbilərdə iştirak daxil olduqda, Beynəlxalq Federasiya həmin beynəlxalq tədbirlərin siyahısını dərc etməlidir.]*

*Əsas Tədbir Təşkilatçısı (Major Event Organizations)*: Hər hansı kontinental, regional və ya digər *beynəlxalq tədbir* üçün hakim qurum kimi fəaliyyət göstərən *Milli Olimpiya Komitələrinin* kontinental assosiasiyaları və digər beynəlxalq çoxidman təşkilatları.

*Milli əhəmiyyətli yarış (Major National Event)*: Milli yığma komandanın formalaşmasına və ya *beynəlxalq tədbirlərdə idmançıların* iştirakına təsir göstərən və ya dövlət tərəfindən təşkil edilən və ya maliyyələşdirilən hər hansı *yarış*.

*Marker (Marker)*: *Qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun istifadəsini* göstərən birləşmə, birləşmələr qrupu və ya bioloji paramter və ya paramterlər.

*Metabolit (Metabolite)*: Biotransformasiya prosesi nəticəsində istehsal olunmuş hər hansı maddə.

*Minimal hesabat dərəcəsi (Minimum Reporting Level)*: *Qadağan edilmiş maddənin* və ya onun *metabolit(lər)inin* və ya *marker(lər)inin nümunədə* gözlənilən həddi. Bu həddən aşağı *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriyalar *nümunənin Qeyri-əlverişli Analiz Nəticəsi* kimi hesabat verməməlidir.

*Azyaşlı (Minor)*: 18 yaşına çatmamış fiziki *şəxs*.

*Milli Antidopinq Təşkilatı (National Anti-Doping Organization)*: Hər ölkə tərəfindən milli səviyyədə Antidopinq Qaydalarının qəbulu və həyata keçirilməsi, *nümunələrin* toplanmasının idarə edilməsi, test nəticələrinin idarə edilməsi və *nəticələrin emalının* həyata keçirilməsi üçün əsas səlahiyyət verilmiş və məsuliyyət daşıyan qurum və ya qurumlar. Bu təyinat müvafiq səlahiyyətli dövlət qurumu və ya qurumları tərəfindən edilmədikdə, həmin qurum ölkənin *Milli Olimpiya Komitəsi* və ya onun təyin etdiyi qurum olmalıdır. Azərbaycanda *Milli Antidopinq Təşkilatı AMADA*-dır.

*Milli tədbir (National Event)*: *Beynəlxalq tədbir* olmayan *beynəlxalq* və ya *milli səviyyəli idmançıları* daxil edən idman *tədbiri* və ya *yarışı*.

*Milli Federasiya (National Federation)*: "Bədən tərbiyyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən respublika idman federasiyası kimi müəyyən edilən, üzvlük əsasında yaradılan, dövlət akkreditasiyasından keçən, məqsədi ölkə miqyasında bir və ya bir neçə idman növünün inkişaf etdirilməsi, həmçinin respublika və ya beynəlxalq miqyaslı idman yarışlarının keçirilməsi, milli yığma komandaların formalaşdırılması, beynəlxalq yarışlara hazırlanması və iştirakı olan idman növü (növləri) üzrə ictimai birlik.

*Milli səviyyəli idmançı (National-Level Athlete)*: *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standarta* uyğun olaraq hər bir *Milli Antidopinq Təşkilatı* tərəfindən müəyyən edilən milli səviyyədə idmanda yarışan *idmançı*. Azərbaycanda *milli səviyyəli idmançı* bu Anitdopinq Qaydalarının giriş hissəsində müəyyən edilir ("Anitdopinq Qaydalarının əhatə dairəsi" bölməsi).

*Milli Olimpiya Komitəsi (National Olympic Committee)*: Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınan təşkilat. *Milli Olimpiya Komitəsi* anlayışına, həmçinin, bəzi ölkələrdə Milli İdman Konfederasiyasının anitdopinq sahəsində *Milli Olimpiya Komitəsinin* adından öhdəlikləri yerinə yetirən Milli İdman Konfederasiyası daxildir. Azərbaycanda *Milli Olimpiya Komitəsi* Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsidir.

*Təqsirin və ya səhlənkarlığın olmaması (No Fault or Negligence)*: *İdmançı* və ya digər *şəxs* tərəfindən *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul istifadə* etdiyindən və ya ona tətbiq edilməsindən və ya antidopinq qayda pozuntusunu törətməsindən bilmədiyini və ya şübhə etmədiyini və bütün ehtiyat tədbirlərinin görülməsinə baxmayaraq ağlabatan qaydada bilməyəcəyini və ya şübhə etməyəcəyini sübut etməsi. *Qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxslə* əlaqədar olan hallar istisna olmaqla, *idmançı* 2.1-ci maddənin hər hansı pozuntusu üçün həmçinin *qadağan edilmiş maddənin* onun bədəninə necə daxil olmasını izah etməlidir.

*Qeyri-əhəmiyyətli təqsir və ya səhlənkarlıq (No Significant Fault or Negligence)*: *İdmançı* və ya digər *şəxs* tərəfindən, onun hər hansı *təqsirinin və ya səhlənkarlığının,* həmin *təqsir və ya səhlənkarlıq* hallarını bütövlükdə nəzərdən keçirəndən və *təqsir və ya səhlənkarlığın olmaması* üçün meyarları

nəzərə aldıqdan sonra, antidopinq qayda pozuntusuna nisbətdə qeyri-əhəmiyyətli olmasının sübüt etməsi. *Qorunan şəxs* və ya *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxslə* əlaqədar olan hallar istisna olmaqla, *idmançı* 2.1-ci maddənin hər hansı pozuntusu üçün həmçinin *qadağan edilmiş maddənin* onun bədəninə necə daxil olmasını izah etməlidir.

*Əməliyyat müstəqilliyi (Operational Independence)*: Bu o deməkdir ki, (1) *nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatının* və ya onunla əlaqəli təşkilatlarının (məsələn üzvü olan federasiya və ya konfederasiya) şura üzvləri, işçiləri, komissiya üzvləri, müşavirləri və rəsmiləri, həmçinin, mübahisə üzrə təhqiqat və ya iş üzrə mühakimədən əvvəl həyata keçirilən proseslərdə iştirak edən hər hansı *şəxs* həmin *nəticələrin emalı* üzrə səlahiyyətli *Antidopinq Təşkilatının* dinləmə qrupunun üzvü və (və ya) katibi (o şərtlə ki, bu cür katibin səlahiyyətlərinə mübahisə üzrə müşavirə prosesində və (və ya) bununla əlaqədar hər hansı bir qərarın hazırlanmasında iştirak etmək daxildir) təyin edilə bilməz və (2) dinləmə qrupunun dinləmə keçirməsi və qərar qəbul edilməsi prosesinə *Antidopinq Təşkilatı* və ya digər üçüncü şəxs tərəfindən müdaxilə edilməməlidir. Məqsəd odur ki, dinləmə qrupunun üzvləri və ya dinləmə qrupu tərəfindən qərar verilməsində iştirak edən fərdlər təhqiqatda və ya işin başlanması üzrə qərarlarda iştirak etməsin.

*Yarışdan kənar müddət (Out-of-Competition)*: *Yarış müddəti* olmayan hər hansı müddət.

*İştirakçı (Participant)*: Hər hansı *idmançı* və ya *idmançının köməkçi heyətinin üzvü*.

*Şəxs (Person)*: Fiziki *şəxs* və ya təşkilat və ya digər qurum.

*Sahiblik (Possession)*: Faktiki, fiziki *sahiblik* və ya dolayı *sahiblik* (*şəxsin qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* üzərində müstəsna nəzarət imkanı olduğu, və ya onun *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* və ya həmin maddə və ya üsulun yerləşdiyi yerlər üzərində müstəsna nəzarət imkanını əldə etmək niyyəti olduğu hallarda baş vermiş hesab edilir); lakin *şəxsin qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsul* və ya həmin maddə və ya üsulun yerləşdiyi yerlər üzərində müstəsna nəzarət imkanı olmadıqda, dolayı *sahiblik* faktı yalnız o zaman baş vermiş hesab edilir ki, həmin *şəxsin qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun* mövcudluğu barədə məlumatı olsun və o, onun üzərində nəzarət imkanını əldə etmək niyyətində olsun. *Qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsula* malik *şəxsin* antidopinq qayda pozuntusu törətməsi barədə hər hansı bildirişin alınmasından əvvəl *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsuldan* heç zaman istifadə etmək niyyətində olmadığını göstərmək üçün müəyyən tədbir görməsi və *sahiblikdən* imtina etdiyini açıq şəkildə *Antidopinq Təşkilatına* bəyan etməsi hallarında yalnız *sahiblik* əsasında antidopinq qayda pozuntusunun törədilməsi müəyyən edilə bilinməz. Bu anlayışdakı hər hansı şərtlərə baxmayaraq, *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun* (elektron və ya digər vasitə daxil olmaqla) satınalınmasını etmiş *şəxs* tərəfindən *sahiblik* hesab edilir.[84]

*Prioritetləşdirilmiş idman növləri (Priority Sports)*: Antidopinq məqsədləri üçün əhəmiyyətli hesab edilən və *AMADA*-nın vebsaytında yerləşdirilən idman növləri.

*Qadağan edilmiş siyahı (Prohibited List)*: *Qadağan edilmiş maddələri* və *qadağan edilmiş üsulları* təsvir edən siyahı.

*Qadağan edilmiş üsul (Prohibited Method)*: *Qadağan edilmiş siyahı* ilə müəyyən edilən hər hansı üsul.

*Qadağan edilmiş maddə (Prohibited Substance)*: *Qadağan edilmiş siyahı* ilə müəyyən edilə hər hansı maddə və ya maddələr sinfi.

---

[84] *[Sahibliyə şərh: Bu anlayışa görə idmançının avtonəqliyyat vasitəsində aşkar edilmiş anabolik steroidlər, idmançının, avtonəqliyyat vasitəsinin digər şəxs tərəfindən istifadəsi faktı müəyyən etmədiyi təqdirdə, pozuntuya gətirib çıxarır; digər şəxs tərəfindən avtonəqliyyat vasitəsindən istifadə müəyyən olunduqda Antidopinq Təşkilatı idmançının avtonəqliyyat vasitəsi üzərində müstəsna nəzarətə malik olmadığı halda belə, anabolik steroidlər haqqında xəbərdar olması və onlar üzərində nəzarəti əldə etmək niyyətinin olmasını müəyyən etməlidir. Eynilə, idmançı və həyat yoldaşının birgə istifadəsində olan ilk tibbi yardım dəstində aşkarlanan anabolik steroidlər ilə bağlı Antidopinq Təşkilatı müəyyən etməlidir ki, idmançı həmin tibbi yardım dəstində anabolik steroidlərin olması haqqında məlumatlı idi və onlar üzərində nəzarəti həyata keçirmək niyyəti var idi. Qadağan edilmiş maddəni satınalma faktı hətta misal üçün, həmin maddə çatıdırlmadıqda və ya digər şəxs tərəfindən qəbul edildikdə və ya üçüncü şəxsin ünvanına göndərildikdə belə sahiblik təşkil edir.]*

*Qorunan şəxs (Protected Person)*: Antidopinq qayda pozuntusu zamanı (i) 16 yaşına çatmamış, (ii) 18 yaşına çatmamış, hər hansı *Qeydiyyata alınmış Test Qrupuna* daxil olmayan və heç vaxt *beynəlxalq tədbirdə* açıq kateqoriyada yarışmayan və ya (iii) yaş səbəbindən savayı müvafiq yerli qanunvericiliyə əsasən hüquqi qabiliyyəti məhdud olan *idmançı* və ya digər fiziki *şəxs*.[85]

*Şərti dinləmə (Provisional Hearing)*: 7.4.3-cü maddənin məqsədləri üçün, *idmançıya* bildiriş etməklə yazılı və ya şifahi formada dinlənilmək imkanı verən 8-ci maddəyə əsasən dinləmədən əvvəl baş verən sürətləndirilmiş qısaldılmış dinləmə.[86]

*Şərti kənarlaşdırılma (Provisional Suspension)*: Yuxarıda qeyd edilmiş *Antiopdinq Qayda Pozuntularına görə sanksiyalarla* tənizmlənir.

*İctimaiyyətə açıqlama (Publicly Disclose)*: Yuxarıda qeyd edilmiş *Antiopdinq Qayda Pozuntularına görə sanksiyalarla* tənizmlənir.

*Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs (Recreational Athlete)*: Azərbaycanda *bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs* bu Antidopinq Qaydalarının giriş hissəsində müəyyən edilir (“Anitdopinq Qaydalarının əhatə dairəsi” bölməsi).

*Regional Antidopinq Təşkilatı (Regional Anti-Doping Organization)*: Üzv ölkələri tərəfindən milli antidopinq proqramlarının həvalə edilmiş sahələrini koordinasiya və idarə etmək üçün təyin etdikləri regional qurum. Bu sahələrə antidopinq qaydalarının qəbul və tətbiq edilməsi, *nümunələrin* toplanmasının planlaşdırılması, nəticələrin idarə edilməsi, *TİI*-lərin yenidən baxılması, dinləmələrin keçirilməsi və regional səviyyədə *təhsil* proqramlarının həyata keçirilməsi daxil edilə bilər.

*Qeydiyyata alınmış Test Qrupu (Registered Testing Pool)*: *Məcəllənin* 5.5-ci maddəsi və *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartla* müəyyən edilmiş qaydada məkan məlumatının təqdim edilməsi tələb edilən və Beynəlxalq Federasiyanın və ya *Milli Antidopinq Təşkilatının* testin bölüşdürülməsinin planlaşdırılmasının bir hissəsi olaraq Beynəlxalq Federasiyalar tərəfindən beynəlxalq səviyyədə və *Milli Antidopinq Təşkilatları* tərəfindən milli səviyyədə ayrıca müəyyən edilmiş *yarış müddətində* və *yarışdan kənar müddətdə* yönləndirilmiş *test edilməsinə* məruz qalan yüksəksəviyyəli *idmançılar* qrupu. Azərbaycanda *AMADA*-nın *Qeydiyyata alınmış Test Qrupu* bu Antidopinq Qaydalarının 5.5-ci maddəsi ilə müəyyən edilir.

*Nəticələrin emalı (Results Management)*: *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 5-ci maddəsi ilə nəzərdə tutulmuş bildirişlə, və ya digər hallarda (məsələn, *Atipik Nəticə, İdmançının Bioloji Pasportu,* məkan məlumatı pozuntusu) *Nəticələrin emalı* üzrə *beynəlxalq standartın* 5-ci maddəsi ilə xüsusilə nəzərdə tutulmuş qaydada bildiriş qabağı həyata keçirilən addımlarla, sanksiya təklifi, birinci və ya apellyasiya instansiyalarında (apellyasiya qaydasında şikayət verildikdə) dinləmə prosesi daxil olmaqla, məsələ üzrə yekun qərarın verilməsi arasındakı proses.

*Nümünə (Sample* or *Specimen)*: *Dopinq nəzarəti* məqsədləri üçün toplanmış hər hansı bioloji material.[87]

*Məcəlləyə imza təşkilatları (Signatories)*: *Məcəllənin* 23-cü maddəsi ilə nəzərdə tutulmuş qaydada *Məcəlləni* qəbul edən və *Məcəlləni* tətbiq etməyə razılıq verən qurumlar.

---

[85] *[Qorunan şəxsə şərh: Məcəllə, müəyyən bir yaşdan və ya əqli qabiliyyətdən aşağı idmançının və ya digər bir şəxsin Məcəllə ilə qadağan olunan davranışları anlamaq və qiymətləndirmək üçün əqli qabiliyyətə sahib ola bilməyəcəyini əsas götürərək, müəyyən hallarda qorunan şəxslərə digər idmaçılardan və ya şəxslərdən fərqli yanaşır. Bura, misal üçün, əqli xəstəliyinə görə fəaliyyət qabiliyyətinin olmaması rəsmi sənədləşdirilmiş paralimpiya idmançısı aiddir. “Açıq kateqoriya” termini gənclər və ya yaş qrupları kateqoriyalar üzrə yarışları istisna etməyi nəzərdə tutur.]*

[86] *[Şərti dinləməyə şərh: Şərti dinləmə sadəcə olaraq işin bütün hallarının nəzərdən keçirilməsini ehtiva etməyən ilkin icraatdır. Şərti dinləmədən sonra idmançı işinin mahiyyəti üzrə tam dinləmə keçirilməsi hüququna malikdir. Bunun əksi olaraq, 7.4.3-cü maddədə istifadə edildiyi kimi “sürətləndirilmiş dinləmə” tezləşdirilmiş vaxt cədvəlinə uyğun olaraq işin mahiyyəti üzrə aparılan tam dinləmədir.]*

[87] *[Nümunəyə şərh: Bəzən qan nümunələrinin toplanmasının müəyyən dini və ya mədəni qrupların prinsiplərini pozduğu iddia edilir. Müəyyən edilmişdir ki, belə iddialara heç bir əsas yoxdur.]*

*Xüsusi üsul (Specified Method)*: 4.2.2-ci maddə ilə tənzimlənir.

*Xüsusi maddə (Specified Substance)*: 4.2.2-ci maddə ilə tənzimlənir.

*İdman subyektləri (Sporting Bodies): Milli Federasiyalar, idmançılar, idmançının köməkçi heyəti* və ya "Bədən tərbiyyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunun ilə müəyyən edilən digər hüquqi və fiziki şəxslər daxil olmaqla (lakin bununla məhdudlaşmayan), bədən tərbiyyəsi və idman sahəsində fəaliyyət göstərən təşkilatlar, idman klubları, bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən elm və təhsil müəssisələri, *Milli Olimpiya Komitəsi*, Paralimpiya Komitəsi və digər bədən tərbiyyəsi və idman sahəsində mütəxəssislər.

*Ciddi məsuliyyət (Strict Liability)*: 2.1-ci və 2.2-ci maddələrin məqsədləri üçün *Antidopinq Təşkilatı* tərəfindən anitdopinq qayda pozuntusunun müəyyən edilməsi məqsədilə *idmançı* tərəfindən qəsdin, *təqsirin*, *səhlənkarlığın* və ya bilərəkdən *istifadənin* nümayiş etidirilməsinin vacib olmaması qaydasıdır.

*Asılılıq yaradan maddə (Substance of Abuse)*: 4.2.3-cü maddə ilə tənzimlənir.

*Əhəmiyyətli yardım (Substantial Assistance)*: 10.7.1-ci maddənin məqsədləri üçün *əhəmiyyətli yardım* edən *şəxs*: (1) yazılı imzalanmış bəyanat və ya qeydə alınan müsahibə vasitəsilə antidopinq qayda pozuntuları və ya 10.7.1.1-ci maddə ilə müəyyən edilmiş digər icraat barədə məlumatları tam açıqılamalıdır, və (2) məsələn, dinləmə zamanı *Antidopinq Təşkilatı* və ya dinləmə qrupu tərəfindən tələb edildikdə ifadənin verilməsi daxil olmaqla, həmin məlumatlara dair hər hansı işin və ya məsələnin təhqiqatı və mühakiməsi ilə tam əməkdaşlıq etməlidir. Əlavə olaraq, təqdim edilmiş məlumatlar etibarlı olmalıdır və başlanmış iş və ya icraatın əhəmiyyətli hissəsini ehtiva etməlidir. O halda ki, iş və ya icraat başlanmamışdır, təqdim edilmiş məlumatlar işin və ya icraatın başlanmasına kifayət edəcək əsas təşkil etməlidir.

*Saxtalaşdırma (Tampering)*: *Qadağan edilmiş üsulun* anlayışına daxil olmayan *dopinq nəzarəti* prosesinin həyata keçirilməsinə maneə törətmək məqsədilə qəsdən davranış. *Saxtalaşdırma* anlayışına (lakin bununla məhdudlaşmayan) əməlin yerinə yetirilməsi və ya yetirilməməsi üçün rüşvətin təklif edilməsi və ya alınması, *nümunə* toplanmasının qarşısının alınması, *nümunənin* analiz edilməsinə təsirin göstərilməsi və ya onun qeyri-mümkün edilməsi, *Antidopinq Təşkilatına* və ya *Tİİ* üzrə komitəyə və ya dinləmə qrupuna saxta sənədlərin təqdim edilməsi, şahidlərdən yalan ifadələrin alınması, və ya *Antidopinq Təşkilatı* və ya dinləmə qrupu tərəfindən *nəticələrin emalı* və ya *sanksiyaların* tətbiq edilməsinə təsir göstərmək üçün hər hansı digər saxta əməllərin törədilməsi, və ya *dopinq nəzarətinə* hər hansı digər oxşar qəsdən müdaxilə və ya müdaxilə *cəhdi*.[88]

*Hədəfli test (Target Testing)*: *Test etmə* və təhqiqatlar üzrə *beynəlxalq standartda* nəzərdə tutulmuş meyarlar əsasında xüsusi *idmançıların test edilməsi* üçün seçilməsi.

*Komanda idman növü (Team Sport)*: *Yarış* zamanı idmançıların əvəz edilməsinə icazə verilən idman növü.

*Texniki sənəd (Technical Document)*: *ÜADA* tərəfindən mütəmadi qəbul və dərc edilən, *beynəlxalq standartda* nəzərdə tutulan xüsusi antidopinq məsələləri üzrə məcburi texniki tələbləri ehtiva edən sənəd.

*Test etmə (Testing)*: Test bölüşdürülmə planını, *nümunənin* toplanmasını, *nümunə* ilə davranışı və *nümunənin* laboratoriyaya nəql edilməsini daxil edən *dopinq nəzarətinin* hissəsi.

---

[88] *[Saxtalaşdırmaya şərh: Məsələn, bu maddə aşağıdakı əməlləri qadağan edir: test zamanı dopinq nəzarəti formasında eyniləşdirmə nömrələrinin dəyişdirilməsi, B nümunəsinin analizi zamanı B şüşəsinin sındırılması, kənar maddələri qataraq nümunənin dəyişdirilməsi və ya potensial şahidi və ya dopinq nəzarəti prosesi zamanı şahid ifadələri və ya məlumat verən şahidi təhdid etmək və ya təhdid etmək cəhdi. Saxtalaşdırma nəticələrin emalı prosesində yanlış hərəkəti (misconduct) ehtiva edir. Daha ətraflı, bax: 10.9.3.3-cü maddə. Buna baxmayaraq, antidopinq qayda pozuntusu ilə bağlı iddiaya qarşı şəxsin qanuni müdafiəsinin bir hissəsi olan hərəkət saxtalaşdırma kimi qiymətləndirilməməlidir. Dopinq nəzarəti rəsmisinə və ya dopinq nəzarətini həyata keçirən digər şəxsə qarşı idmançı tərəfindən təhqiredici davranış saxlataşdırma kimi qiymətləndirilmədiyi hallarda idman təşkilatlarının intizam qaydaları ilə uyğun şəkildə həll olunmalıdır.]*

*Test Qrupu (Testing Pool)*: *İdmançının yarışdan kənar müddətdə* olduğu yeri müəyyən etmək və onu *test etmək* üçün tələb edilmiş məkan məlumatını təmin edən *idmançıları* daxil edən *Qeydiyyata alınmış Test Qrupundan* aşağı səvyyə.

*Terapevtik İstifadə üçün İstisna (TİI) (Therapeutic Use Exemption (TUE))*: 4.4-cü maddənin və *Terapevtik İstifadə üçün İstisna* üzrə *beynəlxalq standartın* tələblərinə uyğun olaraq *Terapevtik İstifadə üçün İstisna idmançıya* tibbi məqsədlər üçün *qadağan edilmiş maddə* və ya *qadağan edilmiş üsulun istifadəsinə* imkan yaradır.

*Dövriyyə (Trafficking)*: *Antidopinq Təşkilatının* səlahiyyətinə aid olan hər hansı *idmançı, idmançının köməkçi heyətinin üzvü* və ya digər *şəxs* tərəfindən üçüncü şəxslərə *qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun* (fiziki və ya hər hansı elektron və ya digər üsullarla) satışı, verilməsi, nəql edilməsi, göndərilməsi, çatdırılması və ya yayılması (və ya bu məqsədlər üçün *sahib olması*). Lakin, bu anlayış tibb heyətin həqiqi və qanuni terapevtik və ya digər əsaslandırlımış məqbul hesab edilən məqsədlər üçün atılmış vicdanlı əməllərini (*actions of bona fide*) və *yarışdan kənar müddət testində* qadağan edilməyən *qadağan edilmiş maddələrlə* bağlı əməlləri ehtiva etməməlidir, o şərtlər ki, məsələ ümumilikdə *qadağan edilmiş maddənin* idman göstəricilərinin artırılması məqsədini daşımaması və ya həqiqi və qanuni terapevtik məqsədlər üçün nəzərdə tutulmasını ehtiva etmiş olsun.

*YUNESKO Konvensiyası (UNESCO Convention)*: Konvensiyanın iştirakçı dövlətləri və "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyanın Tərəflərin Konfransı tərəfindən qəbul edilmiş bütün və hər hansı dəyişikliklər daxil olmaqla 2005-ci il oktyabrın 19-da YUNESKO Baş Konfransının 33-cü sessiyasında qəbul edilmiş "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya.

*İstifadə (Use)*: *Qadağan edilmiş maddənin* və ya *qadağan edilmiş üsulun* hər hansı şəkildə istifadəsi, tətbiqi, qəbulu, inyeksiyası və ya istehlakı.

*ÜADA (WADA)*: Ümumdünya Antidopinq Agentliyi.

*Hüquqi mövqeyə xələl gətirmədən bağlanmış razılaşma (Without Prejudice Agreement)*: 10.7.1.1-ci və 10.8.2-ci maddələrin məqsədləri üçün *Antidopinq Təşkilatı* və *idmançı* və ya digər *şəxs* arasında bağlanmış yazılı razılaşma. Bu razılaşma müəyyən edilmiş vaxt çərçivəsində *idmançı* və ya digər *şəxs* tərəfindən *Antidopinq Təşkilatına* məlumatın verilməsinə imkan yaradır, o şərtlə ki, *əhəmiyyətli yardım* üzrə razılaşma və ya mübahisənin həlli üzrə razılaşma yekunlaşmadıqda, həmin müəyyən edilmiş vaxt çərçivəsində *idmançı* və ya digər *şəxs* tərəfindən verilmiş məlumat *Məcəlləyə* əsasən həyata keçirilən *nəticələrin emalı* üzrə hər hansı icraat zamanı *Antidopinq Təşkilatı* tərəfindən istifadə edilə bilməz. O cümlədən, *əhəmiyyətli yardım* üzrə razılaşma və ya mübahisənin həlli üzrə razılaşma yekunlaşmadıqda, həmin müəyyən edilmiş vaxt çərçivəsində *Antidopinq Təşkilatı* tərəfindən verilmiş məlumat *Məcəlləyə* əsasən həyata keçirilən *nəticələrin emalı* üzrə hər hansı icraat zamanı *idmançı* və ya digər *şəxs* tərəfindən istifadə edilə bilməz. Belə razılaşma *Antidopinq Təşkilatı*, *idmançı* və ya digər *şəxs* tərəfindən razılaşmada müəyyən edilmiş vaxt çərçivəsi xaricində hər hansı mənbədən toplanmış hər hansı məlumatın və ya sübutun istifadə edilməsinə mane olmamalıdır.